ƏLİ
CABBAROV







# TURİZM MARŞRUTLARI VƏ EKSKURSİYA İŞİNİN TƏŞKİLİ













BAKI-2017

**Əli Cabbarov**

# Turizm marşrutları və ekskursiya işinin təşkili

*(dərs vəsaiti)*

108217

"Naxçıvan" Universitetinin Elmi Şurasının 26 aprel 2017-ci il tarixli iclasının qərarı ilə dərs vəsaiti kimi çapa tövsiyə olunmuşdur (protokol № 05)

Azərbaycan Milli Kitabxanası

Bakı - 2017

Z518.115(2A)Ca7

**Elmi redaktor:** **Əli Qəmbərəli oğlu Əlirzayev**
Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" kafedrasının müdiri

**Rəyçilər:** **Nazim Səfərəli oğlu Bababəyli**
Coğrafiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin "Coğrafiya" kafedrasının dosenti

**Elbrus Saleh oğlu İsayev**
Tarix üzrə fəlsəfə doktoru, "Naxçıvan" Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının dosenti

**Cabbarov Ə.X. Turizm marşrutları və ekskursiya işinin təşkili** / *Dərs vəsaiti.* Bakı-2017. ADPU-nəş. 159 səh.

Bu mövzuda ilk dəfə yazılmış dərs vəsaitində turizm səyahətləri zamanı turizm marşrutlarının yaradılması və ekskursiya fəaliyyətinin təşkili məsələləri şərh olunur. Turizm marşrutlarının mahiyyəti, turların layihələndirilməsi və bu zaman resursların qiymətləndirilməsi problemləri izah olunur. Dərs vəsaitində ekskursiya fəaliyyətinin mahiyyətinə geniş yer verilir, ekskursiyaların təşkili zamanı məntiqi ardıcıllıq və pedaqoji-psixoloji məsələlərin mahiyyəti açılır. Ekskursiya təqdimatı və bu zaman bələdçinin funksiyaları kimi mühüm məsələlərin izahı verilir. Dərs vəsaitində həmçinin Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatları timsalında konkret tur nümunələri və təqdimat reseptləri, ekskursiyalar zamanı çox işlənən turizm terminləri də verilmişdir. Kitabdan turizm ixtisası üzrə təhsil alanlar, turizm sahəsində çalışan mütəxəssislər, o cümlədən turizm və səyahət məsələləri ilə maraqlananlar faydalana bilərlər

ARXİV



# GİRİŞ

Turizm sülh və tərəqqi dövründə xalqların bir-birinin tarixi keçmişi, mədəniyyəti, yaşadığı ölkələrin təbiət möcüzələri, saf ekoloji şəraiti, iqtisadi inkişaf səviyyəsi və milli qonaqpərvərliyi ilə tanış olmaq üçün edilən səyahətlərdir. İnsanların yaşayışı üçün zəruri olan həyati vacib nemətlər təmin edilərsə onda turizm səfərlərinə yollanmaq da real tələbat olacaqdır.

Lakin turizm mürəkkəb təşkilati məsələlərin həll olunması ilə inkişaf edə bilən bir sahədir. Turizmin inkişafı problemləri müasir dövrdə cəmiyyətin iqtisadi və mədəni inkişafı prioritetlərinə görə aktual olub dünya ölkələrinin sosial-iqtisadi inkişaf göstəriciləri arasında mühüm yer tutur. Çünki, turizm ümumi inkişafın nəticəsi, həm də onun bəhrələrinin cəmiyyətin bütün üzvləri arasında paylanmasının sərfəli bir mexanizmidir. Azərbaycan Respublikasında da turizmin inkişafına verilən diqqət onun regional inkişaf və tanıtım məsələlərindəki xüsusi çəkisi ilə izah olunur. Bu da təsadüfi deyildir. Belə ki, turizmin imkanlarından geniş istifadə edən və öz təbii, tarixi və mədəni ehtiyatlarından dayanıqlı istifadəni təşkil edən ölkələrin təcrübəsi göstərir ki, turizm heç də təkcə zəngin ehtiyatlar hesabına öz-özünə inkişaf edən bir sahə deyil, əksinə hər kəsdən töhfəsini gözlədiyi çox dərin bir münasibətlər sistemidir.

Turizm bir sıra xüsusiyyətlərinə görə iqtisadi və sosial-mədəni sahələr arasında mühüm yer tutur. Bu, xüsusən, onun iqtisadi cəhətdən sərfəli olmasına və sosial inkişafdakı roluna görə əhəmiyyətlidir. Yeni iş yerlərinin yaradılması və keyfiyyətli həyat səviyyəsinin yaradılmasına görə isə turizm dövlətin bu istiqamətdə yeritdiyi sosial siyasətə uğurla xidmət edir. Bu da öz növbəsində bəzi hallarda qonaqpərvərlik sənayesi də adlandırılan turizm sənayesinin inkişafı ilə mümkün olur.

Turizm sənayesi regiona səfər edən turistlərin yüksək peşəkarlıq səviyyəsində qarşılanıb yola salınması məqsədilə təklif edilən bütün növ xidmətləri özündə birləşdirir. İlk baxışda, burada hər şeyin çox sadə olduğu görünə bilər. Ancaq problemə məhz turizmin inkişafı məsələlərindən yanaşdıqda görürük ki, burada çox mürəkkəb elmi, təşkilati, tənzimləmə, reklam-təbliğat, tərtibat və dizayn, hədiyyəlik əşyalar istehsalı və satışı, arxitektura və s. kimi işlər və həm də bunların kompleks vəhdəti kimi problemlər vardır. Bunların uğurlu həlli isə regiona məxsus olan turizm ehtiyatlarının, əmək potensialının iqtisadi dövriyyəyə cəlb olunması və kadrların gücündən səmərəli istifadə ilə mümkündür.

Turizm müasir cəmiyyətin tələbi, çox sayda insanın mədəni tələbatlarından biridir. Turizmin necə inkişaf etdirilməsi sualı planetin hər yerində bütün dövrlər üçün aktualdır. Burada müasir turistlərin tələbatlarının düzgün qiymətləndirilməsindən tutmuş mürəkkəb beynəlxalq vəziyyətə görə qərarlar qəbul edilməsinədək hər cür məsələlərlə qarşılaşmaq mümkündür. Ancaq təcrübə göstərir ki, turizmin inkişafı zamanı planlaşdırılan əraziyə məxsus turizm marşrutlarının yaradılması ilk mərhələdə özünü göstərən həlli vacib məsələlərdəndir.

Müasir turizm hər şeydən əvvəl səyahətsevərlərin asudə vaxtının mənalı keçirilməsi, sərfəli qiymətlərlə daha çox rekreasiya xidmətlərindən istifadə olunması və əhalinin bütün təbəqələrinin turizmə cəlb olunması tezisləri ilə xarakterizə olunur. Müxtəlif turlarda iştirak edən turistlər bu yolla ziyarət etdikləri məkanlardan aldıqları təəsüratlarla öz rekreasiya tələbatlarını da təmin etmiş olurlar. Belə ki səyahətə çıxdıqda təbiətlə yaranan birbaşa ünsiyyət, tarixi-mədəni zənginliklərlə üzbəüz tanışlıq və yüksək qonaqpərvərliklə qarşılanmaqdan alınan mənəvi zövq bu tələbatın insanın özü tərəfindən ödənilməsinə imkan yaradır. Bunun bir tələbat kimi



qiymətləndirilməsi də turizm sənayesinin qarşısında duran məsələlərdəndir.

Regionda turistlərə təklif olunan turizm marşrutlarının işlənib hazırlanması turizmin təşkilinin əsas problemlərindəndir. Bunlar turistlərin regiona ilk giriş qapıları olan hava limanları, yaxud sərhəd-keçid məntəqələrindən tutmuş onların son dayanacaqlarına qədər müəyyən müddətə keçirilməsi nəzərdə tutulmuş mütəşəkkil tədbirlərə qədər şamil edilir. Bunların uğurlu həlli isə hər şeydən əvvəl təşkilati turizmin inkişafına şərait yaradır ki, bu da turizmdən arzuedilən səviyyədə gəlirlər əldə olunmasının ən yaxşı yoludur. Buna görə də turistlərin səyahətlərinin təşkil oluna biləcəyi bütün istiqamətlərdə turizm marşrutlarının işlənib hazırlanması, onların bütün tələblərə uyğun şəkildə əsaslandırılması qarşıda duran vacib məsələlərdəndir. Yaradılacaq marşrutların davamlılığı, onların texniki və iqtisadi cəhətdən əsaslandırılması, burada ekoloji maraqların və yerli əhalinin mənafelərinin ödənilməsi, təhlükəsizlik məsələləri bu istiqamətdə görülən işlərin ən mühümləridir.

Beləliklə, turizm marşrutu regiona səyahət edən turistlərin ərazi ilə tanış ola bilməsi üçün müəyyən bir istiqamət üzrə əvvəlcədən tərtib olunmuş bütöv bir tədbirlər planıdır. Belə bir marşrut regiona turistlərin cəlb olunmasına maraqlı olan firma və ya müəssisələr, bunlar olmadığı halda isə turistlərin özləri tərəfindən də işlənib hazırlana bilər. Lakin nəzərə almaq lazımdır ki, turistlərin səyahət güzərgahı bəzən yerli əhalinin istifadə etdiyi yollarla eyni olsa da turizm marşrutu adi sərnişindaşıma marşrutu anlayışından tamamilə fərqli olub, turizmin əsas motiv, tələb və xidmət standartları baxımından özünəməxsus xüsusiyyətləri vardır.

Turizm destinasiyası daxilində yaradılan turizm marşrutları, onların cazibədarlığının qiymətləndirilməsi, iqtisadi cəhətdən əsaslandırılması və təhlükəsizliyinin təmini turizm marşrutları və ekskursiya işinin təşkili üzrə əsas prob-

lemlərdən biridir. Bununla əlaqədar olaraq turizm marşrutlarının hazırlanması, onların təsnif olunması müvafiq layihələndirmə mərhələlərindən keçməsi və turistlərə təklifi problemləri həll olunmalıdır.

Turizm marşrutları, onların məzmunu səfər öncəsində səyahətçini maraqlandıran əsas cəhətlərdəndir. Şübhəsiz, hər bir turistin olduğu səyahətlərdən müəyyən qeydləri vardır. Bu qeydlər yazı, foto, video şəklində saxlanıla bilər. Marşrutlar boyunca turistlərin marağını çəkən hər bir obyekt və təbiət hadisəsi bu formada yaddaş şəklinə salınaraq gələcəkdə eyni istiqamətdə səyahətə çıxanlar üçün təkrarən istfadə oluna bilər.

Turizm marşrutları üzərində yerli əhalinin maraqları, milli adət və ənənələr, əsasən xidmət sahələri olmaqla kiçik sahibkarlığın, fərdi təsərrüfatların imkanları nəzərə alınmalıdır. Marşrut boyunca turistlərin ala biləcəkləri informasiyanın etibarlı və inandırıcı olması isə bu sahənin peşəkarları olan ekskursiya bələdçilərinin üzərinə düşür. Onlar öz regionunu hamıdan yaxşı tanıyaraq, onun hər bir qeyri-adi mənzərəsinə bir qonaq gözü ilə də baxmağı bacarmalıdır.

Turizm marşrutu nisbi anlayışdır və o, hər bir ərazinin coğrafi mövqeyi, bölgənin sosial-iqtisadi inkişaf səviyyəsi, sosial infrastrukturun vəziyyəti ilə dəyişilə bilər. Ona görə də dünən işlək bir marşruta bu gün tələbatın olmaması və ya əksinə, bu gün qeyri-adi kimi görünən bir marşruta sabah kütləvi tələbatın yaranması da tamamilə təbii bir haldır. Ona görə də turizm marşrutları haqda danışarkən bir çoxları üçün bir növ sürpriz ola biləcək, amma iş reallaşanda digərlərindən tamamilə fərqli bir reseptlə ortaya çıxa biləcək ideyalara əsaslanmaq lazımdır. Dünyada artıq bir milyarda yaxın insanın səyahətləri üzərində qurulmuş turizm biznesinin uğuruna bu yolla inanmaq mümkündür.



# I FƏSİL. TURİZM MARŞRUTLARI, ONLARIN YARADILMASI

## *§1. Turizm marşrutu anlayışı. Turizm marşrutlarının növləri*

Turizm marşrutları turistlərin səyahət motivlərinə, turların müddətinə, istifadə olunan nəqliyyat vasitələrinin növlərinə görə təsnif olunur. Burada ən geniş təsnifat qrupu, şübhəsiz, turistlərin səyahət motivlərinə əsasən tərtib olunur. Bunlar istirahət, sağlamlıq, təbiətlə tanış olmaq, balıq tutmaq, ov etmək, həyəcanlı (ekstrim) turlarda iştirak etmək, safari, raftinq, macəra, sərvət axtarışı, foto ovçuluq, təbii və texnogen fəlakət yerlərinə olan marşrutlar, çətin keçilən yerlərdən təşkil olunan marşrutlar, habelə artıq istifadədə olmayan hərbi obyekt və döyüş poliqonlarına və təhlükə törətməyən qəza yerlərinə səyahətlər ola bilər.

**Müddətinə görə** turizm marşrutları çoxgünlük, yəni 14-30 günlük, bir neçə günlüyə (1-3 günlük) və bir neçə saatlıq ekskursiyalara bölünür.

**Çoxgünlük marşrutlar** bir neçə nəqliyyat növü istifadə olunmaqla kifayət qədər zəngin, maraq kəsb edən və bir çox yaş qrupundan olan turistlər üçündür. Çoxgünlük marşrutlar adətən idman və sağlamlıq, macəra, fiziki hazırlıq xarakterli olur.

**Bir neçə günlük** marşrutlar ov etmək, alpinizm, raftinq, çay boyu gəzintilər, foto-ovçuluq, qeyri-adi təbiət hadisələri ilə tanışlıq, həftəsonu turizm ("weekend tourism") marşrutları ola bilər.

**Bir neçə saatlıq** ekskursiya marşrutları şəhər və kənd ətrafı görməli yerlər, muzeylər, mineral bulaqlar, görkəmli şəxsiyyətlərin adı ilə bağlı yerlər, abidələr, maraq kəsb edən obyektlər, təhsil müəssisələri kimi yerlərə təşkil olunan marşrutlar ola bilər.

İstifadə edilən **nəqliyyat vasitələrinə** görə turizm marşrutları piyada (5-20 km), heyvanlardan (at, dəvə, it, maral) istifadə etməklə (50-100 km) qoşqulu, dəmiryolu, havayolu, su yolu marşrutlarına, habelə avtomobil və qarışıq nəqliyyat vasitələri üzrə marşrutlara ayrılır.

Turizmin inkişafı turizm ehtiyatları ilə zəngin olan ərazilərdə turizm məhsulunun yaradılması ilə mümkündür. Turizm məhsulunun əsas tərkib hissəsi isə müəyyən istiqamətlərdə təşkil olunmuş turizm marşrutları və bunlara aid olunan tur, ekskursiya proqramları, yolüstü xidmətlərdə öz əksini tapır.

Turistlər öz səyahətlərini müəyyən marşrutlar boyunca həyata keçirirlər. Bu marşrutlar boyunca hərəkət edən turistlər səyahətlərdən gözlədiyi təəssüratı almağa maraqlıdırlar. Turistlərin səyahətlərinin müəyyən marşrut üzrə təşkil olunması məhz təşkilati turizmin əsas şərtlərindən biridir. Təşkilati turizm isə öz növbəsində müasir dövr turizmin əsas tələblərindən biridir. Bunun üçün müəyyən istiqamətlərdə turizm destinasiyalarının yaradılması vacib şərtdir.

Turizm destinasiyası daxilində yaradılacaq turizm marşrutları, onların cazibədarlığı, iqtisadi əsaslandırılması və təhlükəsizliyi turizm marşrutları və ekskursiya işinin təşkili üzrə əsas problemlərdən biridir. Bununla əlaqədar olaraq turizm marşrutlarının hazırlanması, onların təsnif olunması müvafiq lahiyələndirmə mərhələlərindən keçməsi və turistlərə təklifi problemləri həll olunmalıdır.

Turizm marşrutu nədir? Turizm marşrutu coğrafi cəhətdən əvvəlcədən müəyyən olunmuş ərazi, xüsusi obyektlərlə bağlı olan və müxtəlif səviyyədə təsvir olunan yürüş, səyahət və hərəkət yoludur. Başqa sözlə, **turizm marşrutu** dedikdə, əvvəlcədən hazırlanmış istiqamət üzrə, müəyyən müddətində və müəyyən məqsədlə hazırlanmış xidmətlər zərfi başa düşülür. Bu xidmətlər zərfi bir başqa anlayışla tur və ya turistin əldə etdiyi yollayış əsasında istifadə



etdiyi turizm-ekskursiya xidmətləridir. Bu mənada, turizm marşrutlarının yaradılması turizm xidmətlərinin göstərilməsinin əsas texnologiyasını təşkil edir.

**Əlamətlərinə görə** turizm marşrutları tematik, yürüş, fiziki-sağlamlıq marşrutları kimi təsnif olunur:

- *tematik marşrutlar* daha çox tanışlıq və ekskursiya məqsədli bir səyahət formasıdır.
- *yürüş marşrutları* daha çox aktiv hərəkət vasitəsi ilə həyata keçirilən səyahətdir.
- *fiziki-sağlamlıq* turları isə əsasən idman məzmunlu, sağlamlığın möhkəmləndirilməsi məqsədi ilə həyata keçirilir.
- *qarışıq marşrutlar* yuxarıda qeyd olunan marşrutların kombinasiyası əsasında hazırlanır.

İstifadə olunan **nəqliyyat vasitələrinə görə** avtobus, teploxod, təyyarə, qatar və qarışıq nəqliyyat vasitələri üzrə marşrutlar vardır.

**Xətti quruluşuna görə** marşrutlar xətti, radial, dairəvi marşrutlardır.

- *Xətti marşrut* dedikdə, başlanğıc nöqtəsindən başqa xətt üzrə bir və ya bir neçə yerin ziyarət edilməsi başa düşülür.
- *Radial marşrut* sadəcə bir nöqtənin ziyarət edilməsi ilə həyata keçirilir.
- *Dairəvi marşrut* isə başlanğıc və son nöqtələrin üst-üstə düşdüyü və bir neçə məntəqənin ziyarət edildiyi turizm marşrutudur.

İstifadə olunan **nəqliyyatın növünə görə** turizm marşrutları belə təsnif olunur:

-turizm firmasının *şəxsi nəqliyyat* vasitəsi (məs. avtobus, mikroavtobus)

-*icarəyə* götürülmüş nəqliyyat vasitəsi (məs. teploxod)

-turistin *fərdi nəqliyyat* vasitəsi.

**Nəqliyyat vasitələrindən istifadədən asılılığa görə** turizm marşrutlarına aşağıdakı kimi baxmaq mümkündür:

- *piyada* turizm marşrutları və ya gəzintilər. Adətən belə marşrutlar 2-6, hətta 20-50 kilometr arasında dəyişir.

-*qoşqu* üçün istifadə olunan canlıların (atların, maralların və itlərin) köməyi ilə həyata keçirilən marşrutlar. Belə marşrutlar arasında atlı marşrutlar geniş yayılıb.

- *dəmiryolu* turizm marşrutları. Belə tipli marşrutlar hələ qədimdə də olub. Belə ki, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində məşhur "Şərq Ekspressi" adı ilə tanınan və İstanbuldan Kale boğazına qədər olmuş bu marşrutda o dövrün ən zəngin adamları səyahət edirdilər. Dəmiryolu turizm marşrutlarında turistlər səyahət etməklə komfortlu vaqonlarda qalır, vaqon-restoranlarda yemək yeyirlər. Bu turizm marşrutları boyunca hərəkət əsasən gecələr həyata keçirilir, gündüzlər isə turistlər proqram çərçivəsində nəzərdə tutulmuş yerlərə təşkil olunan baxışlarda olurlar.

- *su yolları* üzrə turizm marşrutları. Belə turizm marşrutları istənilən növ qayıqlarda, yaxta və kiçik tutumlu gəmilərdə həyata keçirilir. Kiçik çay və göllərdə avarlı və motorlu qayıqlarda turizm marşrutları keçirilə bilər. Burada turistlərin istəyinə görə adi qayıqlar və ya komfortlu çay və dəniz gəmiləri seçilə bilər.

- *hava yolları* ilə turizm marşrutları. Hava yolları ilə turist daşınması nisbətən uzaq məsafələr üçün daha sərfəlidir. Qitələrarası və okeanlararası məsafələr üçün hava yolu ilə rahat və təhlükəsiz laynerlərlə turist daşınması hazırda daha çox yayılmışdır. Turistlərin hava yolu ilə daşınması üçün həm reys, həm də çarter uçuşlarından istifadə olunur. Qeyd etmək lazımdır ki, hazırda ölkələr daxilində də yerli hava xətləri ilə turist daşınması da getdikcə əhəmiyyət qazanır. Bu zaman kiçik hava gəmiləri ilə az məsafələrə turistlərin daşınması, quru yolu ilə çətin keçilən yerlər üçün daha çox əlverişlidir.

- *kombinasiyalı* marşrutlar. Bir çox marşrutlar bir neçə nəqliyyat vasitəsindən istifadə olunmaqla səfərlərin təşkil olunmasını nəzərdə tutur. Burada əsas məqsəd turistlərin vaxt



itkisini minimumlaşdırmaq, onların daha çox mənalı istirahətə vaxt ayırmasına şərait yaratmaqdır.

**Məzmununa görə turizm marşrutları bunlardır:**

- təbiətlə ünsiyyət və istirahət;
- dənizdə istirahət;
- dağlarda gəzinti və istirahət;
- ovetmə və mənalı istirahət;
- tarixi yerlərə baxış;
- təhsil və maariflənmə.

Beləliklə, turizm marşrutları istənilən məqsədli turun həyata keçirilmə obyekti olub müəyyən coğrafi məkanda və müəyyən dövrdə yaranıb inkişaf edən və öz həyat dövriyyəsini tamamlayan bir turizm anlayışıdır.

***Yoxlama üçün suallar***

- Turizm marşrutları nədir?
- Turizm marşrutları necə təsnif olunur?
- Əlamətlərinə görə turizm marşrutları necədir?
- Xətti quruluşuna görə marşrutlar necədir?
- Nəqliyyat vasitələrindən istifadəyə görə turizm marşrutları necə təsnif olunur?
- Məzmununa görə turizm marşrutlarını izah edin

***Testlər***

*1. Müddətinə görə turizm marşrutları neçədir?*

A) 6
B) 5
C) 3
D) 4
E) 1

*2. Başlanğıc və son nöqtələrin üst-üstə düşdüyü və bir neçə məntəqənin ziyarət edildiyi turizm marşrutudur.*

A) dairəvi marşrut
B) tematik marşrut
C) xətti marşrut
D) radial marşrut
E) kombinasiyalı marşrut

*3. Tematik, yürüş, fiziki-sağlamlıq marşrutları turizm marşrutlarının hansı kateqoriya üzrə təsnifatlaşdırılmasına aiddir?*

A) xətti quruluş
B) məzmun
C) nəqliyyat vasitələri
D) əlamət
E) müddət

*4. Turizm marşrutlarının ən geniş təsnif olunduğu kateqoriya hansıdır?*

A) müddət
B) motiv
C) nəqliyyat vasitələrindən asılılıq
D) əlamət
E) xətti quruluş

*5. İstənilən məqsədli turun həyata keçirilmə obyekti nədir?*

A) motiv
B) ekskursiya
C) turizm məhsulu
D) tur
E) turizm marşrutu



## §2. Turizm marşrutlarının yaradılmasına təsir edən amillər

Mürəkkəb sosial-iqtisadi hadisə kimi turizm bir çox amillərdən asılıdır. Bunlar səyahətlərə olan motiv, yaradılmış turizm infrastrukturu, turistlərin informasiya təminatı, nəqliyyat vasitələrinin inkişafı, turistlərin istehlak davranışları, moda və zövqlərdəki dəyişiklik, asudə vaxtın təşkili imkanları kimi sıralanır. Bunlardan əlavə, ərazidə aparılmış planlaşdırma, yeni yaşayış məskənlərinin və urbanizasiya proseslərinin sürətlənməsi turizm marşrutlarının layihələndirilməsinə öz təsirini göstərir. Yerli əhalinin turistlərə qarşı münasibəti və ümumi qonaqpərvərlik də burada öz sözünü deyir.

**Motiv** insanı səyahət etməyə cəlb edən əsas səbəbdir. Turizm marşrutları da bu motivlər üzərində qurulmalıdır. Əgər müasir dövrdə səyahətlərin 300-dən çox növü və yarımnövü varsa turistlərin motivləri də bu qədər müxtəlif olmalıdır.

**Turizm infrastrukturu** kimi turizm sənayesinin də fəaliyyət göstərə bilməsi və turizm resurslarından səmərəli istifadə olunması üçün zəruri olan məcmu şərtlər vardır. Buraya kompleks şəkildə mühəndis-kommunikasiya şəbəkəsi, o cümlədən telekommunikasiya (müasir səviyyəli elektron rabitə və İnternet) şəbəkəsi, müxtəlif təyinatlı rahat yollar, hava və dəniz limanları, otel, motel, hostel, turist bazaları kimi turistlərin müvəqqəti qalma yerləri, nəqliyyat vasitələri, əyləncə mərkəzləri, müxtəlif mətbəx nümunələrini təklif edən restoranlar, parklar, istirahət guşələri, rabitə-informasiya şəbəkələri, hədiyyəlik əşya mağazaları daxildir. İnfrastruktur şəraiti həm turizm müəssisələrinin işinin, həm də turistlərin özününü turizm məhsulundan istifadə etməsi baxımından mühüm rol oynayır və turizmin təşkilinin ayrılmaz tərkib hissəsidir. Turizm infrastrukturu, xüsusən, yerləşmə və

nəqliyyat vasitələri turizm marşrutu boyunca mühüm şərtlərdəndir. Belə ki, rekreasiya məqsədli turlar zamanı marşrut boyunca zəruri olan dayanacaqlar, onlar arasındakı məsafəyə görə nəqliyyat imkanları turizm marşrutlarının cazibədarlığını artırır, daha da imkanlı edir.

**İnformasiya təminatı** amili turistlərin marşrut boyu keçəcəyi məntəqələr, onların sosial-iqtisadi inkişaf səviyyəsi, marşrut boyunca keçirilən ekskursiya müddətində onları gözləyən hava şəraiti, yol-naviqasiya şəraiti, hədiyyəlik əşyalar satılan yerlər, çay-kofe fasiləsi yerləri, turizm informasiya mərkəzləri, avtomobil kirayə məntəqələri, motellər, yanacaq doldurma məntəqələri barədə məlumatlar hesab olunur.

**Nəqliyyat** amili ekskursiyalar zamanı marşrutun daha rahat, bəzi hallarda isə daha eqzotik ola bilməsi üçün böyük əhəmiyyət daşıyır. Nəqliyyat vasitələrinin kütləvi turizm üçün istifadə imkanları və komfort dərəcəsi əsas ekskursiya şərtlərindəndir.

**İstehlakçı davranışları** amili turizm marşrutu boyunca turistlərin zəruri servis xidmətlərinə, komfort ehtiyaclarına olan tələbkarlığı, dil bilmə, piktoqramları başa düşmə, ailə tərkibinə, ailədəki uşaqların sayına və turistlərin xərcləməyə olan meylinə görə müəyyən olunmalıdır.

**Moda və zövqlərdəki dəyişiklik** insanın mədəni səviyyəsini müəyyən etməklə turizm sənayesinin, eləcə də turizm marşrutlarının layihələndirilməsinə də təsir edir. Turistlərin ölkə mənşəyi, onların modaya münasibəti nəzərə alındığında seçilmiş turizm marşrutları üzrə xidmətlər daha səmərəli olur.

Turizmin inkişafına təsir edən sosial amillərdən biri olan **asudə vaxt** imkanları da turizm marşrutlarının yaradılmasına təsir edən mühüm amillərdəndir. Asudə vaxtın əldə olunması vasitəsi kimi iş vaxtının qısaldılması və haqqı ödənilən məzuniyyətlərin verilməsini qeyd etmək olar. Məhz



asudə vaxtın əldə olunması ilə insanların ən mühüm ehtiyaclarından biri olan istirahət və rekreasiya tələbatının ödənilməsi imkanları yaranır.

Asudə vaxtdan səmərəli istifadə qaydaları turizmin inkişafında mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə isə asudə vaxtın kiçik hissələrə bölünməsi və səyahətlərin qısamüddətli dövr üçün təşkili daha geniş yayılmışdır. Belə təşkil olunmuş turizm səyahətləri həm turistlərin özləri üçün həm də turizm fəaliyyətini təşkil edən firmaların işi üçün faydalıdır.

İnsanlara asudə vaxt imkanı yaradan amillərdən ilk olaraq elmi-texniki tərəqqini göstərmək olar. Bunun nəticəsində fiziki iş qüvvəsinin əhəmiyyəti azalır, bunun əvəzində zehni əmək daha da artıq əhəmiyyət kəsb etməyə başlayır. Zehni əməyin artması ilə işdə və məişətdə yaranan stressli vəziyyət fiziki və psixoloji enerjinin itirilməsi ilə nəticələnir ki, burada turizm ən yaxşı bərpaedici, bir rekreasiya vasitəsi kimi özünü göstərir.

Müasir turistlərin təqdimatına verilən turizm məhsulu bir çox xidmətlərdən ibarətdir. Yerləşdirmə, nəqliyyat, qida, əyləncə, animasiya kimi əsas və əlavə xidmətləri özündə birləşdirən turizm məhsulu onları istehsal edən ayrı-ayrı firmaların müəyyən təşkilati işləri yekunlaşdırmasından sonra son istehlakçılar olan turistlərin tələbatlarını ödəyə bilir. Bütün bu işləri isə yuxarıda qeyd etdiyimiz və bir-birlərindən asılı olmayaraq və yalnız bir-birləri ilə rəqabət halında olan firmaların işini əlaqələndirən **turoperatorlar** həyata keçirir. Başqa sözlə turoperatorlar bu sahədə ciddi funksiyaya malikdirlər.

Turizm sənayesinə daxil olan çox sayda iştirakçının bir-biri ilə inteqrasiya əlaqəsinə çox ehtiyacı vardır. Lakin bu əlaqə dövlət tənzimlənməsi yolu ilə çox da mümkün olmadığından təşkilati turizmə keçid üçün turoperatorlar kimi vasitəçiyə həmişə ehtiyac duyulur. Tarixdə ilk təşkilati turlar olan Tomas Kukun *(Thomas Cook)* səfərlərindən başlayaraq

bu günə qədər məhz turoperator fəaliyyəti ilə təşkilati turizm məsələləri həll olunur. Turoperatorluq turizmin təşkilinin, turizm məhsulunun satışının, turizm məhsulunun marketinqinin xüsusi formasıdır. Bu fəaliyyət elə bir məqamda yaranır ki, xidmət istehsalçıları olan sahibkarların turizm bazarına təkliflər etdikdə, bu xidmətləri alıb istifadə edə biləcək turistlər mövcud olduqda və həmin xidmətlərin istehsalçıdan alınıb turistlərə sata bilmək üçün bazar imkanları və qanunvericilik bazası mövcud olduqda turoperatorluq üçün əlverişli şərait yaranır.

Turizm xidmətlərinin tarixi inkişaf yoluna və onların xüsusiyyətlərinə baxdıqda görürük ki, bir-birindən asılı olmayaraq yaranan **qonaqpərvərlik servisləri** məhz turoperatorun təşəbbüsü ilə turistlər üçün əlverişli olur və onların səyahətləri zamanı təhlükə və risklər daha az, gözlənilən müsbət təəssürat isə daha çoxdur.

Öz təbiəti etibarı ilə turizm kifayət qədər böyük **risk** sahəsidir. Bu risklər həm səyahətlərin məzmunu, səyahətlər zamanı göstərilən servislərin çeşidi və həm də servis göstərən firmaların təsərrüfat əlaqələrinin kövrək olması ilə bağlıdır. İqtisadiyyatın başqa sahələri ilə müqayisədə turizm elə bir sahədir ki, burada həmin risk yaradan amillər daha çoxdur. Buna görə də turizm məhsulunun bitkin ola bilməsi üçün həmin saydığımız servis subyektləri ayrılıqda bütün risklərə hazır ola bilmir.

Turizmin təşkilati problemləri kimi tanıdığımız bu məsələlər xüsusi bir sahibkara həvalə olunduqda bu, turizmin kütləvi hala gəlməsinə, turizm məhsulunun çeşidlənməsinə, turist göndərən tərəflə qəbul edən tərəf arasında etibarlılığın təmin edilməsinə və beləliklə, turizm sektorunun daha çox şaxələnib iqtisadiyyatın əksər sahələrini əhatə etməsinə imkan yaradır. Turizm marşrutlarının hazırlanmasında turizm fəaliyyətinin təşkilatçılarının qarşısında ilkin şərtlər kimi mühüm vəzifələr dayanır. Bu **şərtlər** aşağıdakılardır:



1. Hüquqi;
2. Təşkilati;
3. Texniki;
4. Kadr;
5. İnfrastruktur təminatıdır.

Belə ön şərtlərin yerinə yetirilməsi, habelə regionun milli qonaqpərvərlik səviyyəsinin mövcudluğu turizm marşrutlarının hazırlanması üçün çox vacibdir. Bunlara geniş şəkildə baxaq.

**Hüquqi şərtlər**. Hüquqi şərtlərin təmin olunması turizm marşrutu üzrə göstəriləcək xidmətlərin, habelə turizm marşrutunun özünün ölkənin milli maraqlarına uyğun gəlməsi, qanunvericiliyə zidd olmaması və beynəlxalq hüquqda mübahisə və münaqişə doğurmayacaq səviyyədə bitkin olması deməkdir.

108217

**Təşkilati şərtlər**. Təşkilati şərtlər hər bir işin, o cümlədən turizm marşrutlarının hazırlanmasının ən mühüm hazırlıq mərhələlərindəndir. Bu, marşrut üzrə ideya müəllifinin fikrini dəstəkləyən ekspertlərin tapılması, zəruri informasiya verəcək mənbələrin əldə olunması, bu informasiyaları işləyəcək mərkəzin yaradılması, bu mərkəz üzərində funksional vəzifələri bölüşdürmək kimi məsələləri əhatə edir.

**Texniki şərtlər**. Turizm marşrutlarının hazırlanması heç də asan olmayıb kifayət qədər çox sayda informasiyanın alınması, saxlanılması, habelə marşrut üzrə resursların yerində öyrənilməsi və marşrutu hazırlayan şəxsin və yaradıcı komandanın normal fəaliyyəti üçün ofisin olmasını tələb edir. Belə texniki şərtlər kompüter və ofis texnikası, nəqliyyat vasitələri, foto və video avadanlıqlar və s. ola bilər. Bundan başqa hazırlıq mərhələsində istifadə olunan xüsusi geyimlər, texnikalar, vasitələr və sair də texniki şərtlərə aid edilə bilər.

**Kadr şərtləri**. Kadrlar bütün fəaliyyət sahəsində, o cümlədən turizm marşrutlarının hazırlanmasında ən vacib şərtlərdəndir. Belə ki, mükəmməl hazırlanmış turizm



Azərbaycan Milli Kitabxanası

marşrutları tamamən düşüncə məhsuludurlar. Başqa sözlə, turizm marşrutları yüksəkixtisaslı kadrların əməyi nəticəsində zərf halına salınmış və turistlərin rahatlıqla və maraqla istifadə edəcəyi bir məhsuldur. Kadrlar kimi turizm mütəxəssisləri, texniki işçilər, asistentlər, bələdçilər ola bilər.

**İnfrastruktur təminatı.** İnfrastruktur hər cür funksional fəaliyyəti dəstəkləyən köməkçi sistemdir. Turizm marşrutlarının hazırlanmasında buna ərazi təminatı, istehsal və ticarət imkanları, bazar infrastrukturu, habelə sosial-mədəni xidmətlərin səviyyəsini müəyyən edən sosial infrastruktur daxildir.

Bütün bu sayılanların hamısı ilkin şərt kimi təmin olunduqda turizm marşrutlarının hazırlanması, onların layihələndirilməsi mərhələsinə keçmək mümkündür.

***Yoxlama üçün suallar***

- Turizm motivi nədir?
- Turizmdə informasiya təminatı amili nədir?
- İstehlakçı davranışları amili turizm marşrutlarının yaradılmasına necə təsir edir?
- İnsanlara asudə vaxt yaradan amillər hansıdır?
- Turizm marşrutlarının hazırlanmasında ilkin şərtlər hansıdır?
- Turizm marşrutlarının hazırlanmasında infrastruktur təminatı necə rol oynayır?

***Testlər***

*1. Turizm sənayesi və turistləri əlaqələndirir.*

A) turoperator
B) mehmanxana
C) aviaşirkət
D) turagent
E) dövlət



*2. Turizm marşrutu boyu yol-naviqasiya şəraiti hansı amilə aiddir?*

A) nəqliyyat
B) istehlakçı davranışı
C) informasiya təminatı
D) kadr
E) qonaqpərvərlik

*3. Turizm marşrutlarının hazırlanmasında ilkin şərtlərdən deyil.*

A) hüquqi
B) iqtisadi
C) texniki
D) kadr
E) infrastruktur təminatı

*4. Nəqliyyat vasitələrinin hansı göstəriciləri əsas ekskursiya şərtlərindəndir.*

A) komfort dərəcəsi və böyüklük
B) sadəlik və qiymət
C) böyüklük və qiymət
D) sadəlik və rahatlıq
E) kütləviliyi və komfort dərəcəsi

*5. İlk təşkilati turların yaradıcısı kimdir?*

A) Adam Smit
B) Ceyms Monro
C) Tomas Mor
D) Tomas Kuk
E) Ceyms Kuk

## *§3. Tur və onun əhəmiyyəti*

Turizm marşrutu boyunca dizayn olunmuş **turlar** bu marşrutların əsas məhsuludur. Məhz turlar sayəsində işlənmiş turizm marşrutu onun istifadəsinə maraqlı olan tərəflərə gəlir gətirir. Buna görə də turlara turizm marşrutunun əsas komponenti kimi yanaşmaqla mühüm qərarlar vermək lazımdır.

Tur eyni zamanda turizm məhsulunun əsas tərkib elementidir. Satışa hazır məhsul kimi tur turoperatora məxsus olmaqla mövcud turizm marşrutlarına adaptasiya etdirilir və hətta onun əsas mənasını əks etdirir. Buna nail olmaq üçün marşrut boyunca turzərfdəki xidmətlər turistlərin maraqlarını əks etdirməli, səyahətdən əvvəlki reklamlarla üst-üstə düşməlidir. Turmarşrut boyunca məsrəflər ən az, ekoloji vəziyyətə təsiri ən aşağı, gözlənilən nəticələr isə maksimum olmalıdır. Tur ondan istifadə edəcək turistlər üçün başadüşülən, tam məzmunlu və bitkin olmalıdır. Turizm məhsulunun tərkibindəki tur zamanı əsas xidmətlərlə yanaşı müşayiətedici xidmətlər də olmalıdır.

Turizm marşrutu boyunca fərdi və zərf turlar təklif olunur.

**Fərdi turlar** sifariş əsasında və çox az hallarda təşkil olunub yüksək statuslu qonaqların qarşılanması zamanı və yaxud müalicə-tərbiyə məqsədli olaraq təşkil olunurlar.

Bununla yanaşı **zərf turlar** isə turizm marşrutu boyunca müntəzəm olaraq bu xidmətlərdən istifadə edən turistlərə təklif olunur. Proqram məzmununa görə belə turlar sırf ekskursiya, əyləncə, tanışlıq, təhsil məqsədli ola bilər. Burada zərflərin tərtibi zamanı ümumi tələblərlə yanaşı turların təhlükəsizliyini, turistlərin həmin turlara davamlılığını və marşrut boyunca proqramların bir-birini inkar etməməsi və əngəl törətməməsini nəzərə almaq lazımdır.

Zərf turlar və ya başqa bir ifadə ilə turzərflər fərdi turlardan fərqli olaraq əvvəlcədən ciddi şəkildə planlaşdırılmış



xidmətlər dəsti nəzərdə tutur. Zərf turların belə xüsusiyyətləri onların sifarişlə hazırlanmasına imkan vermir. Zərf turların tərkibi onların reallaşdırılması zamanı dəyişilmir. Turistlər belə turu ala və ya ondan imtina edə bilər. Zərf turlar adətən daha çox tanınan və populyar olan istiqamətlərə təşkil olunur. Beynəlxalq qaydalara əsasən zərf turların tərkibində ən azı üç əsas xidmət, adətən, uçuş, mehmanxanada gecələmə və ekskursiya və ya avtomobil kirayəsi xidmətlərindən biri olmalıdır. Zərf turlar bazardakı tələbin dəyişkən olmasına rəğmən turizmin inkişafı üçün müəyyən üstünlüklərə malikdirlər. Bunlar aşağıdakılardır:

- zərf halında olan xidmətlər dəsti onların ayrı-ayrı halındakından həmişə ucuz olur;
- turoperatorlar qiyməti və proqramı əvvəlcədən bilinən turları öz müştərilərinə asanlıqla məsləhət edə bilir;
- turların cəlbediciliyini göstərmək üçün daha çox üstünlük qazanılır.

Bununla yanaşı zərf turların müəyyən **çatışmaz** cəhətləri də vardır. Belə ki:

- Zərf turlara qoyulmuş qiymətlər bəzi aşağı gəlir səviyyəli turistlər üçün çox baha, bir qrup yuxarı gəlir səviyyəli turistlər üçün isə mənasız görünə bilər;
- Mövsümə görə qiymət tənzimləməsi zamanı istehlakçı seçimi imkanları azalır;
- Zərf turlarda təklif olunan bütün xidmətlərin məzmununu turistlərin dünyagörüşünə görə uyğunlaşdırmaq çox da praktik deyildir;
- Zərf turlarda təklif olunan ekskursiyalar zamanı verilən informasiya fərdi turlara nisbətən daha məhdud ola bilir.

Turizm marşrutunda cəlbedici turun yaradılması turoperatorun əsas vəzifəsidir. Belə ki, turoperatorların əsas vəzifələrindən biri müəyyən proqrama əsaslanan xidmətlər və

bu proqramlar əsasında tur yaratmaqdır. Turizm məhsulunun tərkib hissəsi kimi belə turlar turistlərin istəyinə və təşkil olunması üsullarına görə fərdi və qrup turlara bölünür.

**Fərdi** turlar turistlərə daha çox sərbəstlik versə də onlar kifayət qədər bahalı olub xüsusi bələdçi, nəqliyyat servisləri tələb edir. Fərdi turlar kütləvi turizm üçün əlverişli deyildir. Onlar çox əməktutumludur və bir sıra əməliyyatlar zamanı daha çox əlavə xərc tələb edirlər. Bununla yanaşı fərdi turlar turizm firması üçün iqtisadi cəhətdən sərfəlidir, çünki qrup turlarla müqayisədə hər turistin səyahət xərci dəfələrlə çox olduğundan həmin xərclər firmanın gəlirlərinə çevrilir. Ona görə də hər bir turoperator həm qrup, həm də fərdi turlara hazır olmalıdır.

**Qrup** turlar isə ucuz və kütləvi olsa da burada bütün turistlər üçün ümumi qəbul edilmiş qaydalara tabe olmaq məcburidir.

Turizm marşrutunda turun yaradılması turoperatorların apardığı əmtəə siyasətinin mühüm hissəsidir. Bu siyasətin məzmunu istehsalla reallaşdırma arasında baş verən kommersiya, çeşidləmə, xidmət proqramı və turist sayı məsələlərində lazım olan düzgün qərarların verilməsidir.

Turoperator tur yaradarkən turistlərin ondan nə alacağını yaxşı bilməlidir. Turistin mehmanxanada yalnız yataq üçün deyil, yeni təəssürat və tanımadığı mühitdən zövq almağa pul ödədiyi, restoranda sadəcə yemək üçün deyil buradakı komfort və diqqətə görə müştəri olduğunu turoperator yaxşı bilməlidir. Yaradılmış turun turistlər üçün cazibədarlığını müəyyən etmək üçün onun **istehlak xüsusiyyətlərini** tanımaq lazımdır.

Bunlar aşağıdakılardır:

1) Turizm marşrutunun tərkibindəki xidmətlər əsaslandırılmış olmalıdır, yəni buradakı xidmətlər həmin turun reklamında göstərildiyi kimi real olmalıdır. Təklif olunan bütün xidmətlər səyahətin əsas məqsədilə və müşayiətçi xidmətlərlə şərtlənməlidir.



2) Turizm marşrutu ona çəkilmiş ən minimum xərclər səviyyəsində turistlər üçün maksimum səmərə verməlidir.

3) Turizm marşrutunun tərkibindəki xidmətlər turistlərə lazım olan bütün tələbatları ödəyəbiləcək şəkildə tamamlanmış olmalıdır.

4) Turizm marşrutunun tərkibinə daxil olan xidmətlər başa-düşülən olmalıdır.

5) Turizm marşrutunun tərkibindəki xidmətlər istifadə üçün sadə olmalıdır.

6) Turizm marşrutunun tərkibindəki xidmətlər cəld və dəyişdiriləbilən olmalıdır. Belə ki, hazırlanmış tur və onun tərkibi turistlərin istəyi və xidməti personalın bacarığına görə cəld dəyişdirilib uyğunlaşdırılmalıdır.

7) Turizm marşrutunun tərkibindəki xidmətlər faydalı olmalıdır. Belə ki, hər bir mal və xidmət bir və ya birdən artıq faydalılıq daşıdıqda o, istehlakçı tərəfindən həvəslə qəbul olunur.

8) Turizm marşrutu yaradılarkən və hətta planlaşdırılarkən turistlərin tələbatını necə ödəyəbiləcəyinə müxtəlif üsullarla nəzarət edilməlidir.

Bütün bunlar hamısı birlikdə çox vacib element olan qonaqpərvərliklə müşayiət olunduqda lazım olan nəticəni verir.

Turizm sektorunda **qonaqpərvərlik** dedikdə, insanların istədikləri hər cür servisləri təmin edən bütün münasibətlərdə onları məmnun edə biləcək peşəkar tələblər başa düşülür. Qonaqpərvərlik nümayiş etdirmək istənilən servis işçisinin gülərüzlüyü, diqqətcilliyi kimi onun əsas keyfiyyəti olub, bütövlükdə turizm firmasının imicini formalaşdırır.

Qonaqpərvərlik anlayışına bunlar təsir edir:

1) Turistlərin gəldikləri regionda istirahət və əyləncəsini təmin edə bilən keyfiyyətli informasiya;

2) Turizm destinasiyasının müsbət imicinin yaradılması üçün sərgi və yarmarkalarda reklam, kampaniyalarda mütəşəkkil iştirak;

3) "Hər şey müştəri üçün" prinsipi altında yeridilən xidmət siyasətinin bütün heyət tərəfindən açıq-aşkar nümayiş etdirilməsi;

4) Müştərilərin arzusuna görə onlara xidmət göstərən bütün servis təchizatçılarına diqqətli münasibət;

5) Müəssisə daxilindəki bütün xidmətlərdən rahat istifadə olunması üçün onların turistlərin başa düşə biləcəyi formada təqdim olunması;

6) Turistlərə bütün xidmətlər zamanı maksimum nəzakətlə davranılması, turistlərin şəxsi maraqlarının ön planda tutulması və bütün bunların xidmət texnologiyası kimi mənimsənilməsi tələb olunur.

Beynəlxalq turizm səyahətləri zamanı qonaqpərvərliyin praktikadan uğurla keçmiş bir sıra üsulları vardır:

1) Gəlmiş hər turist üçün şəxsi hədiyyənin təqdimi;

2) Turların sonunda hər bir turist üçün xüsusi hazırlanmış sertifikat, diplom və ya nişanın verilməsi;

3) Turistlərin istirahət, əyləncə və digər tədbirlər üçün ola biləcəyi yerdə onlara lazım olacaq buklet, vərəqə, xəritənin olması;

4) Turun ilk günündə turistlərlə onları müşayiət edəcək bələdçinin görüşünün keçirilməsi, ilkin planlaşdırmanın aparılması.

Bunlardan başqa xidmət zamanı turistlər üçün maksimum qayğısız mühit təmin olunmalıdır. Belə ki, turistlər gəldikləri ərazidə nəyinsə çatışmazlığını, vaxt məhdudiyyətini hiss etməməlidirlər.

**Peşəkar qonaqpərvərliyin** mühüm şərti optimal xidmət atmosferinin yaradılmasıdır. Bunlar:

1) Bütün xidmətlərin dərəcəsinə görə bir-birini tamamlaması;



2) Bütün xidmətlərin turun tematikası ilə uzlaşması;

3) Turun proqramının vaxta görə tənzimlənməsi;

4) Tur proqramının tərkibindəki işlərin bir-birini əvəzedəbiləcək səviyyədə amorf hazırlanması;

5) Təklif olunan xidmətlərin miqdarına görə rasional tərkibin müəyyən olunması;

6) Xidmətlər zamanı ənənəlivikdən kənara çıxılması.

Bütün bu göstəricilərin turizm məhsulu hələ hazırlanarkən nəzərə alınması, turizm sektorunda qlobal rəqabətin əsas götürülərək potensial turistlərin əldən çıxarılması deyil, onların turizm müəssisəsinin müştərisi kimi qazanılması prinsipləri əsas götürülməlidir.

***Yoxlama üçün suallar***

- Turizm marşrutunda turların əhəmiyyəti nədir?
- Turizm marşrutlarında hansı turlar təklif olunur?
- Fərdi turlar nədir?
- Qrup turlar nədir?
- Zərf turlar nədir?
- Zərf turların üstünlükləri nədir?
- Zərf turların çatışmaz cəhətləri nədir?
- Qonaqpərvərlik anlayışına təsir edən amillər nədir?
- Peşəkar qonaqpərvərliyin şərtləri nədir?

***Testlər***

*1. Turizm marşrutlarının əsas komponenti nədir?*

A) nəqliyyat xidmətləri
B) ekskursiya
C) turizm məhsulu
D) tur
E) mehmanxana

*2. Turizm marşrutu boyunca hansı növ turlar təklif olunur?*

A) fərdi və kompleks
B) fərdi və zərf
C) inkluziv və zərf
D) kompleks və sifariş
E) fərdi və sifariş

*3. Turistlərin istəyinə və təşkil olunması üsullarına görə turlar neçə yerə bölünür?*

A) 2
B) 3
C) 4
D) 6
E) 7

*4. Turun istehlak xüsusiyyətlərindən deyil.*

A) əsaslandırılmış olması
B) maksimum səmərəlilik
C) xidmətlərin sadəliyi
D) xidmətlərin faydalılığı
E) mürəkkəbliyi

*5. Hansı turlar daha ucuz və kütləvidir?*

A) sifariş
B) kompleks
C) qrup
D) fərdi
E) all inclusive



## *§4. Turların layihələndirilməsi*

Turların **layihələndirilməsi** turizm marşrutlarının hazırlanmasının əsas mərhələsidir. Turların layihələndirilməsi zamanı aşağıdakı məsələlərin həllinə diqqət vermək tələb olunur:

*1. Marşrutun seçilməsi.*

Bu, turizm marşrutu hazırlanmasının ən mühüm mərhələlərindən biridir. Bu adətən, turda iştirak edən qrupun maraqlarına uyğun olan məqsədlərdən asılıdır. Şübhəsiz, maraq və məqsədlər müxtəlif olsa da onları aşağıdakı qaydada ümumiləşdirmək mümkündür:

- təbiətdə istirahət;
- təbiət və ya tarixi abidələrə baxış;
- fiziki aktivliyin artırılması məqsədi daşıyan yürüşlər və sair.

Praktikada isə bunlar ayrı-ayırılıqda və birgə formada da ola bilərlər.

*2. Marşrutun mürəkkəblik dərəcəsinin müəyyən olunması.*

Müəyyən marşrutlar təbii maneələri olmayan kifayət qədər rahat və adət olunmuş yollardan keçdiyindən onların dizayn olunması zamanı xüsusi xəritələr və yol göstəriciləri tələb olunmur. Belə yürüşlər zamanı xüsusi düşərgələr yaradılması tələb olunmur.

Digər marşrutlar isə təkcə hamar yollarla deyil, meşə yolları və cığırları, çay və göl kənarları, bataqlıqlar və dağ aşırımları keçməklə də ola bilər. Bu zaman göstərilən maneələr ayrı-ayırılıqda və bir çoxu eyni yerdə rast gəlinə bilər. Belə olduqda, xüsusi xəritə və ya sxemlər tələb olunur. Belə marşrutların hazırlanmasıda uzunmüddətli düşərgələr və gecələmələrin nəzərə alınması məcburidir.

Marşrutların hazırlanması zamanı **aşağıdakı qaydalara** əməl olunması tələb olunur:

- turizm marşrutu boyu keçilən gündüz yürüşləri bütün turistlərin fiziki imkanları çərçivəsində olmalıdır;

- yerli sərnişin nəqliyyatı və turist daşıyan xətlər arasında turistlərin hərəkəti zamanı piyada və digər aktiv vasitələrə üstünlük verilməlidir;

- uzunmüddətli düşərgə və yataq yerləri mümkün ola biləcək səviyyədə komfortlu, yanacaq, ərzaq və rabitə təminatlı olmalıdır;

- marşrutun planlaşdırılması zamanı yolda yubanmalar əvvəlcədən nəzərə alınmalıdır.

Marşrutların hazırlanması zamanı ən müxtəlif sorğu materiallarından — sorğu kitabçalarından, bələdçi kitablarından, ölkəşünaslıq üzrə ədəbiyyatlardan və xəritələrdən istifadə oluna bilər.

Yürüşlər turizm marşrutu boyunca təşkil olunan, əsasən turistləri tanışlıq və sağlamlıq tələbatlarının ödənilməsi məqsədilə həyata keçirilən hərəkət formasıdır. Yürüşlər məqsədinə görə sağlamlıq, ekzotik-macəra, idman, tədris-məşq, elmi-tanıtım və digər ola bilər. Uzunmüddətli ekskursiyalar da yürüşlər kimi təsnif olunurlar. Yürüşlər piyada formadan tutmuş, digər aktiv hərəkət növləri olan velosiped, xizək, qayıq, motosikl, avtomobil və hava şarına qədər müxtəlif vasitələrlə təşkil oluna bilər.

Yürüşlər mürəkkəblik dərəcəsindən başqa marşrutun uzunluğundan, davametmə müddətindən və turizmin növlərindən də asılı olaraq dəyişilir.

Turizm marşrutları müəyyən olunmuş metodologiya vasitəsilə hazırlanıb, planlı şəkildə başa çatdırılır. Bu zaman tətbiq olunan metodologiya turların həyata keçirilməsi ardıcıllığı və bu proses zamanı tələb olunan qayda, qanun və üsulların sırasıdır.

Turizm marşrutları kifayət qədər mürəkkəb, yüksək ixtisaslı servislər tələb edən çoxpilləli proseduralar toplusu olduğundan onların vahid **metodologiya** ilə işlənməsinə



ehtiyac yaranır. Əgər bu marşrut sifarişlə, yəni birdəfəlik olaraq hazırlanırsa onda marşrutların hazırlanması metodologiyası çox sadə olur. Əgər bu, davamlı xarakter daşıyırsa onda bütün detalların nəzərə alınması ilə çoxcəhətli metodoloji qaydalardan istifadə olunur.

Müasir dövrdə turizm marşrutlarının hazırlanması üçün aşağıdakılar nəzərə alınmalıdır:

- Nəzərdə tutulan yol boyu mövcud olan turizm ehtiyatlarının öyrənilməsi;
- Həmin resurslardan istifadəyə məhdudiyyət yaradan səbəblərin öyrənilməsi;
- Verilmiş marşrut üzrə təklif olunan xidmətlərin marketinq araşdırmasının aparılması;
- Marşrutun tipinin seçilməsi;
- Marşrutun eskiz modelinin qurulması;
- Marşrut üzrə konkret yolların müəyyən olunması;
- Turmarşrutda hərəkət qrafiki və təqvimə görə səyahətlərin tətbiq olunması;
- Marşruta vacib həyati ehtiyacların qarşılanması üçün lazım olan məntəqələrin daxil edilməsi;
- Marşrutun təhlükəsizlik sxeminin qurulması;
- Marşrutun pasportunun hazırlanması;
- Bu paspotun müvafiq qurumlarla razılaşdırılması;
- Marşrut üzrə test yürüşlərin aparılması;
- Marşrutun sxeminə lazım olan dəyişikliklərin edilməsi;
- Marşruta yenidən baxılıb təsdiq olunması.

Turoperator fəaliyyətinin məhsulu olan tur dövlət tərəfindən qəbul edilmiş ciddi standartlara uyğun olaraq layihələndirilməlidir. Bu layihələr turistlərin həyat və sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, risklərin azaldılması və istehlakçı hüquqlarının qorunması kimi tələblərə ciddi şəkildə cavab verməlidir. Bütün bunlar turların layihə-

ləndirilməsi zamanı tərtib olunan sənədləşmədə öz əksini tapır. Belə ki bu sənədlərdə:

- Turistlərə xidmətin forma, metod və prosesləri təsvir olunur;
- Turlar üçün tələb olunan maşın və avadanlıqların tipi, miqdarı və buraxılış qabiliyyəti göstərilir;
- Bu proseslərin xarakteristikası verilir;
- Tur üçün tələb olunan zəruri işçi heyəti və onların peşəkarlıq səviyyəsi müəyyən olunur;
- Turistlərə xidmətin zəmanəti verilir;
- Rekreasiya resurslarının sahibləri, sanitar-epidomoloji orqanların rəhbərləri, yanğın orqanlarının rəhbərləri ilə əldə edilən razılaşmalar göstərilir.

Bütün bu göstərilənlər normativ sənəd kimi turistlərə xidmət zamanı əsas göstərilməli və bundan aşağı səviyyədə olmamalıdır.

Bunlardan əlavə turların layihələndirilməsi zamanı turizm müəssisəsinin imkanları nəzərə alınmalı, turun keçiriləcəyi rayon və turistlərin tələbatı öyrənilməlidir.

Turların işlənməsi zamanı marşrut boyunca göstərilən xidmətlərin icraçılarının siyahısı, xidmətlərin göstərilmə dövrü, ekskursiya obyektlərinin tərkibi, turistlərin yürüşlərinin, gəzintilərinin siyahısı, hər məntəqədə dayanma müddəti, səyahətlərdə iştirak edənlərin sayı, nəqliyyat üçün istifadə olunan vasitələrin növü, bələdçiyə, təlimatçıya, tərcüməçiyə, xarici təmsilçiyə olan tələbat, səyahətin informasiya təminatı və reklam üzrə vəziyyət əks olunmalıdır.

Turların düzgün layihələndirilməsi **praktikada** öz müsbət nəticəsini verir. Bu nəticələr:

1) turizm marşrutlarının hazır texnoloji xəritəsi;
2) turizm müəssisəsinin işlə yüklənmə qrafiki;
3) turizm yollayışının informasiya vərəqi;



4) turistlərə xidmətin proqramı kimi hazır nəticələr ola bilər.

Turaların layihələndirilməsi zamanı təklif olunacaq turizm xidmətlərinə olan tələblər iki yerə bölünürlər. Bunlar:

- İcbari tələblər;
- Tövsiyə olunan tələblərdirlər.

**İcbari tələblər** turistlərin həyat və sağlamlığının, əmlakının və ətraf mühitin qorunması kimi çox mühüm tələblərdir.

**Tövsiyə olunan tələblər** isə turların təyinatına uyğunluğu, dəqiqliyi, kompleksliyi, etik tələblərə uyğunluğu, zəruri servis heyətinin mövcudluğu, komfortluğu, estetikliyi və erqonomikliyidir. Burada erqonomiklik dedikdə, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün nəzəriyyənin, praktiki prinsiplərin və məlumatların sistematik şəkildə öyrənilməsi ilə onların insan həyatının rahatlığı naminə istifadəsi üçün elmi yanaşmalar başa düşülür.

Turların layihələndirilməsi zamanı tətbiq olunan **erqonomik yanaşma** isə bu turlarda təklif olunan marşrut, avadanlıq, əşya və digər şərtlərin turistlərin fiziki və psixoloji vəziyyətinin üst-üstə düşməsidir.

Turizm marşrutları və tur istehlakçı tələbini ödəyən bir məhsul kimi turistlərə təklif olunarkən müəyyən hazırlıq mərhələsi keçir. Bundan sonra qurulmuş turizm biznesinin uğurlu işi üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Seçilmiş seqmentə uyğun tələbin tam ödənilməsi;
- Turistlərə yüksək xidmət və peşəkar mədəniyyət nümunəsi təqdim etmək;
- Turu həyata keçirən turizm firmasının iqtisadi cəhətdən məqsədəuyğun işini təmin etmək;
- Müəssisə fəaliyyətinin mənfəətlə yekunlaşması və onun səmərəli istifadəsini təmin etmək;

- Təsərrüfat risklərini minimumlaşdırmaq, müxtəlif təbii və texnogen qəzalara yol verməmək;
- Turfirmanın imicini və bazar dəyərini daim artırmaq.

Beləliklə, yuxarıda göstərilənləri qarşısına məqsəd qoymuş turizm firması turmarşrutları hazırlayarkən aşağıdakı **mərhələlərdən** keçir:

- Bazarın öyrənilməsi — buraya mövcud tələbin səviyyəsi, rəqiblərlə mövcud olan rəqabətin səviyyəsi, mülkiyyət mövqeyi və təklif ediləcək məhsulun rəqabətədavamlılığı daxildir;
- Resurslara olan tələbin müəyyənləşdrilməsi — bunlar təbii, əmək, maliyyə və informasiya resurslarıdır;

Əgər turizm firması **yeni yaradılıbsa**:

- Onun təşkiltati - hüquqi formasının seçilməsi;
- Təşkitati strukturunun formalaşdırılması;
- Müəssisənin idarəetmə sisteminin müəyyənləşdirilməsi;
- Firmanın istehsal - təsərrüfat funksiyalarının müəyyən olunması;
- Rəsmi qeydiyyatdan keçirilməsi.

İşə başlayan turfirmanı isə aşağıdakı mərhələlər gözləyir:

- Turun formalaşdırılması üçün proqramın tutulması;
- Turun qiymətnin hesablanması;
- Xidmət təchizatçıları ilə kommersiya müqvilələrinin bağlanması;
- Turun dövriyyəsi və hərəkət etdirilməsi (marketinqi);
- Turistlərə xidmətin idarə edilməsi;
- Turfirmanın innovasiya siyasətinin aparılması.

### *Yoxlama üçün suallar*

- Turların layihələndirilməsi zamanı hansı məsələlər həll olunur?



- Marşrutun seçilməsi nədir?
- Marşrutun mürəkkəblik dərəcəsinin müəyyən olunması nədir?
- Marşrutların hazırlanması zamanı hansı qaydalara əməl olunması tələb olunur?
- Turaların layihələndirilməsi zamanı icbari tələblər hansıdır?
- Turaların layihələndirilməsi zamanı tövsiyə olunan tələblər hansıdır?

### *Testlər*

*1. Turizm xidmətlərinə olan tələblər neçə yerə bölünürlər?*

A) 6
B) 5
C) 3
D) 4
E) 2

*2. Turistlərin həyat və sağlamlığının qorunması marşrutlar üçün hansı tələblər sırasına daxildir?*

A) icbari
B) məcburi
C) tövsiyə xarakterli
D) könüllü
E) iqtisadi

*3. Turizm firması turmarşrutları hazırlayarkən keçməli olduğu ilk mərhələdir.*

A) firmanın qeydiyyatı
B) resursların təhlili
C) bazarın öyrənilməsi
D) əməkdaşların seçilməsi

E) turistlərlə əlaqə

*4. Turların düzgün layihələndirilməsinin praktik nəticələrindən deyil.*

A) marşrutların texnoloji xəritəsi
B) turistlərin vizası
C) müəssisənin işlə yüklənmə qrafiki
D) turizm yollayışının informasiya vərəqi
E) turistlərə xidmətin proqramı

5. Turizm marşrutlarının hazırlanmasının əsas mərhələsi nədir?

A) turların təsnifatlaşdırılması
B) ekskursiyaların işlənməsi
C) marşrutun pasportunun hazırlanması
D) turların layihələndirilməsi
E) marşrutun qeydiyyatı



## *§5. Turların formalaşdırılmasındakı resurslar və onların planlaşdırılması*

Turizm bazarında əsas alqı-satqı obyekti turizm məhsulu və onun turistlərə satılması üçün dizayn olunmuş tur-marşrutdur. Turizm məhsulu kimi həm maddi əşya formasında, həm də qeyri-maddi xidmət fomasında **resurslar** təklif olunur. Bu resurslar əsas və əlavə xidmətləri göstərə bilmək üçün turu təşkil edən turoperatorlar tərəfindən alınaraq kompleks zərflər halına salınır. Uğurlu bir turmarşrut hazırlana bilməsi üçün həmin resurslar düzgün seçilməli, onlara olan tələbat düzgün qiymətləndirilməli, göstərilən xidmətlərin istehlak dəyəri, onların faydalılığı, etibarlılığı, habelə qonaqpərvərliklə müşaiyət olunma imkanları nəzərə alınmalıdır. Bütün bunlar hamısı tur üçün tələb olunan resursların planlaşdırılması və onun texnologiyasından asılıdır.

Resurslara olan tələbatın planlaşdırılması modelləri müxtəlifdir. Məsələn, turqrupdakı üzvlərin sayına görə, onların nəqliyyat, qida və yerləşmə tələbatına görə, habelə turistlər arasında və onlara rəhbərlik edən bələdçi arasındakı işgüzar əlaqələrin sayına görə resurslar tələb olunur.

Bazar iqtisadiyyatı şəraitində hər bir resursun istehlak keyfiyyətinə görə düzgün seçilib rasional istifadə olunması, onların qonaqpərvərliklə möhkəmləndirilməsi, habelə idarəetmə proseslərində xətti və funksional əlaqələrin düzgün təşkili resursların planlaşdırılmasında mühüm şərtlərdir.

Turların formalaşdırılmasındakı resurs bazası kimi turizm regionunun potensialı nəzərdən keçirilir. Turizm regionunun **potensialı** dedikdə, turizm-rekreasiya fəaliyyətinin təşkili üçün lazım olan təbii, tarixi-mədəni və sosial-iqtisadi şərait başa düşülür. Turizm potensialının əsas hissəsi turizm ehtiyatlarıdır. Digər bir tərəfdən turizm potensialı turizm ehtiyatları ilə bərabər turizm infrastrukturu ilə də qiymətləndirilir.

Regionun turizm potensialı təbii, tarixi-mədəni və sosial-iqtisadi olaraq **üç yerə** bölünür. Ancaq daha dəqiq olaraq turizm-rekreasiya potensialını beş hissəyə bölmək mümkündür. Bunlar təbii, tarixi-mədəni, infrastruktur, kadr və informasiya resurslarıdırlar. Bundan əlavə, turizmin inkşaf etdirildiyi regionun görməli yerləri və şəraiti də turizm potensialı hesab olunur. Turizm regionunun cazibə qüvvəsini artıran nadir təbiət abidələri olan qayalar, kanyonlar, şəlalələr, mili parklar, dəniz və çaylar, habelə ümumxalq bayramları, mühüm əhəmiyyətli tədbirlər, muzeylər və sair ehtiyatlar turizm potensialı hesab olunurlar. Ona görə də turizm regionunda nə qədər çox sayda turizm cazibə elementi varsa deməli, turizm potensialı da yüksəkdir. Bu məqsədlə, turizmin inkişaf etdirilməsi və planlaşdırılması üzrə məsul olan orqanlar cazibə elementlərini tapıb üzə çıxarmalı, öyrənməli, onları daha da inkişaf etmiş vəziyyətə gətirməlidirlər.

Regionun turizm potensialının öyrənilməsi turizm məhsulunun hazırlanmasının əsasıdır. Burada turizm ehtiyatları təklif olunan turun tərkibində birbaşa və dolayı olaraq daxil olunur. Bundan əlavə, turizm məhsulunun tərkibində maddi və qeyri-maddi obyektlər, xidmətlər də vardır.

Turizm regionunun turizm potensialının öyrənilməsinin müxtəlif yolları vardır. Bunları mərhələ olaraq aşağıdakı kimi göstərmək mümkündür.

Birinci mərhələdə ilk olaraq təhlil olunan obyekt haqqında əsas informasiya toplanması aparılır. Bu zaman anket, sorğu aparılması, təsvir üsullarından istifadə olunur.

Sonrakı mərhələ araşdırma metodları ilə regionun turizm potensialının hər bir elementinin qiymətləndirilməsidir. Bu mərhələ eyni zamanda turizm potensialı xəritəsinin tərtib olunması ilə xarakterizə olunur.

Üçüncü mərhələ eyni zamanda konkret turizm növünün inkişafı üçün perspektivlərin müəyyən olunması, tədqiq olunan ərazinin cazibədarlıq xüsusiyyətlərini üzə



çıxaran təhlil və nəticə mərhələsidir. SWOT analiz kimi aparılan araşdırmaların nəticəsi kimi belə tədqiqatlar turizm məhsulunun yaradılması üçün istifadə olunan elementlərin müəyyənləşdirilməsi və onların dəqiqləşdirilməsi məqsədi daşıyır.

SWOT analiz regionun turizm potensialının, həmçinin turizm şirkətinin mövcud imkanlarının və ya turizm marşrutunun vəziyyətinin təhlil olunması üçün populyar vasitələrdən hesab olunur. Bu təhlil turizm məhsulu üzrə sonrakı fəaliyyət mərhələsində konkret nəticəyə gəlinməsinə imkan yaradır. SWOT təhlil ingilis dilində Strenghts (güclü) Weaknesses (zəif) Opportunities (fürsətlər) və Threats (qorxulu tərəflər) kəlmələrinin baş hərflərindən ibarətdir. SWOT təhlilin nəticələri onun keçirilməsi zamanı peşəkarlıqdan və dəqiqliklən çox asılıdır. SWOT təhlil öyrənilən obyektin güclü və zəif tərəflərini, onun istifadəsi ilə yaranan imkanları və təhlükələri üzə çıxarmaq məqsədilə aparılır. Konkret turizm regionunun SWOT təhlili təklif olunan turizm məhsulunun əsasını və turizm planlanlaması zamanı operativ və strateji planlaşdırmanı müəyyən etmək baxımından əhəmiyyətlidir.

Nümunə üçün Naxçıvan şəhərindən 12 kilometr qərbdə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müalicə məqsədi üçün təşkil olunan turlar üçün **SWOT təhlil** aparaq

| **Güclü tərəflər** | **Bunun qorunub saxlanılması üçün nə etməli?** |
|---|---|
| Duzdağın yerləşdiyi regionun - Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf səviyyəsi | |
| Duzdağ bu region üçün unikaldır | Onun bütün təbii xüsusiyyətləri qorunub |

| | |
|---|---|
| | saxlanılmalıdır |
| Onun yerləşdiyi region turizm üçün ciddi antireklam yarada biləcək heç bir göstəriciyə malik deyil (bu xüsusən inkişaf etməkdə olan ölkələr üçün çox vacib şərtdir) | Buna əks ola biləcək kiçik bir element vaxtında aradan qaldırılmalıdır. |
| Burada tükənməz ehtiyat vardır | Mağaranın hər kvadrat metrindən səmərəli istifadə olunmalıdır |
| Duzdağın yerləşdiyi Naxçıvan Muxtar Respublikası (Azərbaycan Respublikası) iki dövlət – Türkiyə və İranla həmsərhəd olub, Avorpalı və Asiyalı, həmçinin Rusiyalı turistlər üçün əlverişlidir. | |
| Burada ərzaq, nəqliyyat və s. qiymətləri münasibdir<br>Yerli əhalinin turistlərə heyrətamiz xoş münasibəti var<br>Regiona hava və quru yolları var | |
| Müalicə ilə bərabər turistlər idman, festival, bayram tədbirlərinə qatıla bilər, zəngin Azərbaycan milli mətbəxindən istifadə edə bilərlər | Bunun üçün müalicə turları mövsümə və turistlərin müxtəlif kateqoriyadan olan seqmentlərinə görə zənginləşdirilməlidir. |



| | |
|---|---|
| Regionda müalicə ilə bərabər kombinativ turlar da mümkündür<br>Ətraf mühit çox təmiz, yerli istehsal olan ərzaqlar tam təbii və təhlükəsiz, su ehtiyatları çox etibarlıdır. | Bunun üçün potensial turistlər üzrə araşdırmalar aparılmalıdır<br>Turistlərə daha çox yerli məhsullardan olan yemək servisləri təklfi olunmalıdır |
| Duzdağın və ətrafının ekoloji təmizliyi, az səs-küy, tullantılı sənayenin, xüsusən karbon-dioksid tullantısının çox az olması (regionun bütün yanacaq tələbatı kömür deyil, təbii qaz hesabınadır); | |
| Duzdağ və onun ətrafnda tam yeni yol infrastrukturu: | |
| Duzdağ, onun tarixi və müxtəlif imkanları ilə bağlı keçirilmiş konfrans, Naxçıvana səyahət edən dövlət başçılarının bu mağarada olması və bunun reklam kimi istifadəsi. | |
| Gecələri mağarada keçirən insanların gündüzlər eyni dərəcədə təmiz havası olan Naxçıvan şəhərində asudə vaxtını keçirməsi, mədəniyyət müəssisələrinin xidmətlərindən istifadə edə bilməsi, alış-veriş | Geniş çeşiddə əlavə xidmətlərlə təmin olunma artırılmalıdır |

| | |
|---|---|
| edə bilməsi, yerli əhali ilə sıx ünsiyyət; Hava yolu ilə Naxçıvandan Azərbaycanın paytaxtı Bakı şəhərinə gün ərzində 4-5 dəfə, İstanbul və Moskva şəhərlərinə həftədə bir neçə dəfə uçuşlar və Türkiyə və İran arasında 24 saat gediş-gəliş əlaqəsi hesabına kommunikasiya əlaqələri. | |
| **Zəif cəhətlər** | **Zəif cəhətləri fürsətlərə necə çevirmək olar?** |
| Geniş reklamı olmadığından Duzdağın Avropadakı analoqları ilə rəqabətdə zəifliyi, Duzdağ brendinin dünya üzrə hələ ki az tanınması; | Hərtərəfli reklam işi təşkil olunmalıdır |
| Duzdağa gələn müalicə turistlərin öz təşəbbüsləri ilə gəlməsi, bunun üçün ixtisaslaşmış turoperatorun olmaması, rezervasiyaların olmaması | Xüsusi turoperator və rezervasiya sistemi ilə Duzdağa səyahət şəraitinin yaradılması |
| Bir çox ölkələrdə, xüsusən Avropa ölkələrində keçmiş SSRİ respublikalarındakı şəraitə olan inamsızlığın hələ də davam etməsi | Azərbaycandakı siyasi, iqtisadi sabitlik və mədəni inkişafla bərabər Naxçıvanda turizm üçün əlverişli şərait davamlı olaraq tanınmış media kanalları ilə işıqlandırılmalıdır |
| Duzdağdan müalicə məqsədilə | Naxçıvandakı |



| | |
|---|---|
| istifadənin master planının, dayanıqlı istifadə strategiyasının olmaması | toxunulmamış turizm ehtiyatlarından, o cümlədən Duzdağdan dayanıqlı istifadə üzrə uzunmüddətli plan işlənilməlidir. |
| Dil. Duzdağda fəaliyyət göstərən personalın rusca danışa bilmək imkanı olsa da ingilis dilində çətinlikləri vardır. | Tibbi və peşəkar qonaqpərvərlik üzrə ingilis dilində treninqlər keçirilməli, personal staj üçün müvafiq yerlərə göndərilməlidir |
| Personalın özünüinkişaf təşəbbüslərinin (tibb işçilərinin müalicə turizmi və ya speleoterapiya mövzulu elmi konfranslarda, simpoziumlarda iştirak) zəifliyi. Duzdağın müalicəvi keyfiyyətlərini əks etdirən tibbi-elmi araşdırmaların az olması | Mövcud müalicəvi nəticələr toplanıb, elmi müzakirələrə verilməlidir. |
| Özəl sektorun əlavə xidmətlər zərfinə az töhfə verməsi. Duzdağdan sosial məqsədlə istifadənin tamamən dövlətin üzərinə düşməsi, özəl sektorun zəifliyi. Halbuki, buraya gələn turistlərə özəl sektor tərəfindən çox sayda əlavə xidmətlər göstərilə bilər. | Özəl sektor üçün fəaliyyət istiqamətlərini müəyyən edən stimullaşdırıcı yollar tapılmalıdır. |
| Duzdağa hansı yollarla gəlmək üçün real məlumatların çatışmazlığı; | Rəngarəng turizm marşrutlarının işlənilməsi |

| Fürsətlər | |
|---|---|
| Duzdağda təşkil olunan sosial turizm hesabına regionun turizm imicinin qısa müddətdə dəfələrlə artırılması<br><br>Xidmətlərdə və tariflərdə aparılan diversifikasiya hesabına həm sosial prinsiplərin gözlənilməsi, həm də zəruri olan gəlirlərin əldə olunması<br><br>Duzdağdakı müalicə turizmi əsasında sosial turizm problemlərinə həsr olunmuş konfrans keçirilməsi<br><br>Mağara müalicəsi və onun effektləri istiqamətində elmi araşdırmalar aparılması<br><br>Regionda turizm sənayesi, əl işləri, hədiyyəlik əşyalar istehsalı və satışı, həmçinin, məşğulluq məsələlərində yaranan yeni fürsətlər<br><br>Duzdağın əvvəlcə duzla əlaqəli olmuş şöhrətinə (min illər əvvəl duz çox bahalı məhsul olmuşdur) indi onun müalicəvi gücü ilə yenidən qovuşmaq, | |



| | |
|---|---|
| Duzdağı burada dincələn müxtəlif xalqların nümayəndələri olan insanlar arasında dostluq mərkəzi halına gətirmək | |
| **Qorxulu tərəflər** | **Qorxulu tərəflərin aradan qaldırılması yolları** |
| Mağarada yerli vətəndaşlarla xarici ölkə turistlərinin eyni otaqlarda müalicə keçməsi, yarana biləcək anlaşmazlıqlar<br>Turistlərin təşkilati turlarla gəlməməsi nəticəsində Duzdağın müəyyən günlərdə (məs. Azərbaycanda tətil və qeyri-iş günlərində) həddən artıq yüklənməsi<br>Duzdağa tanışlıq üçün ekskursiyaya gələnlərə qeyri-peşəkarların rəhbərlik etməsi, onların pasientlərlə eyni zamanda mağarada olmaları<br>Bir sıra ölkələrdən gələ biləcək turistlərin yerli əhali ilə münaqişə yaratmaq ehtimalı<br><br>Ərazinin tullantılarla çirklənməsi<br><br>Bəzi ölkələr üçün viza problemi | Yerli vətəndaşlar xarici turistlərlə təmasda olmamalıdır<br><br>Duzdağın buraxılış həcminə görə plan hazırlanmalıdır<br><br>Fərdi turizmdən təşkilati turizmə keçilməlidir<br><br>Turistlərin ölkə seçiminə görə (mentalitet və s.) ciddi diqqət yetirilməli<br>Ətraf mühitin qorunması dəstəklənməli<br>Azərbaycana viza ilə və vizasız gələ bilən turistlər üçün fərqli təkliflər hazırlanmalı, planlaşdırma |

| | |
|---|---|
| | aparılmalıdır. |

***Yoxlama üçün suallar***

- Resurslara olan tələbatın planlaşdırılması modelləri hansıdır?
- Turizm regionunun potensialı necə qiymətləndirilir?
- Regionun təbii turizm potensialı nədir?
- Regionun tarixi-mədəni turizm potensialı nədir?
- Regionun sosial-iqtisadi turizm potensialı nədir?
- SWOT analiz nədir?

***Testlər***

*1. Turizm bazarında əsas alqı-satqı obyekti nədir?*

A) nəqliyyat servisləri
B) mehmanxana servisləri
C) aviabilet
D) ekskursiya
E) turmarşrut

*2. Regionda turizm-rekreasiya fəaliyyətinin təşkili üçün lazım olan şərait necə adlanır?*

A) turizm potensialı
B) turizm resursları
C) turizm məhsulu
D) ekskursiya
E) turizm yollayışı



*3. Regionun turizm potensialı neçə yerə bölünür?*

A) 6
B) 5
C) 4
D) 3
E) 1

*4. Turizm-rekeasiya potensialına aid deyil.*

A) təbii resurslar
B) dövlət qurumları
C) tarixi-mədəni resurslar
D) kadrlar
E) informasiya resursları

*5. Regionunun turizm potensialının öyrənilməsində sonuncu mərhələdir.*

A) fərdi qiymətləndirmə
B) informasiya toplanması
C) təhlil və nəticə
D) struktur qiymətləndirmə
E) sorğu

## II FƏSİL. EKSKURSİYA FƏALİYYƏTİ VƏ ONUN TƏŞKİLİ

### §6. *Ekskursiyalar və onların təsnifatı*

Ekskursiya işi turizm fəaliyyəti təşkilinin ən mühüm bölmələrindən olub, turistlərin ətraf aləmi əyani olaraq dərk etməsinin ən geniş formalarından biridir.

Turizm-ekskursiya müəssisəsinin fəaliyyətinin nəticəsi kimi ekskursiya xidmətlərinin tərkibinə təbii, tarixi, mədəni və hətta əhəmiyyətini itirmiş keçmiş hərbi obyektlərə təşkil olunan səfərlər daxildir.

12 saatadək müddətdə aparılan ekskursiyalar turizmin baş verməsi üçün mühüm şərtlərdən biri hesab olunur. Əgər turizm motivinin yaranması səbəblərinə baxsaq görərik ki, turizm səfərləri zamanı əsas rol oynayan turizm suprastrukturu — yerləşdirmə, nəqliyyat, yemək servisi ekskursiya xidməti olmadan ayrılıqda turistlərin əraziyə səyahət etmələri üçün əsas motiv ola bilməz. Çünki, turistlər sadəcə yüksək komfortlu otellərdə qalmaq, rahat nəqliyyat vasitələrindən istifadə etmək və ya ləziz yeməklər yemək xatirinə səyahət etmirlər. Doğurdan da, müasir turistlərin əksəriyyəti iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş, həyat səviyyəsi yüksək olan ölkələrin vətəndaşları olub, qeyd etdiyimiz lüks həyat şəraiti onların gündəlik məişətində də vardır. Ona görə də bu şəraitin turistlərdə qeyri-adi mühit təəssüratı yarada biləcəyini düşünmək çətindir. Ona görə də turizm səfərlərinin əsas motivi kimi ekskursiyalarda iştirakın qeyd olunmasını obyektiv qəbul etmək lazımdır. Ekskursiya xidməti digər mühüm üç şərtlə birlikdə turizm təklifini (turizm məhsulunu) formalaşdırır.

Ekskursiya latınca "excursion" — səfər mənası verir. Ekskursiya əvvəlcədən seçilmiş obyektə bu və ya digər mövzu ətrafında insanların dünyagörüşünün artırılması məqsədi



daşıyan məqsədəuyğun bir proses kimi başa düşülür. Başqa sözlə, ekskursiya zamanı turistlər (bu halda ekskursantlar) turizm destinasiyası haqqında müxtəlif informasiya vasitələri ilə (qəzet, jurnal, bukletlər, televiziya, radio, internet, dost-tanışların şifahi təəssüratları) aldıqları məlumatlardan fərqli olaraq obyekti canlı görmək, təmasda olaraq hiss etmək, bir sözlə hər şeyin əyani şahidi olmaq imkanı əldə edirlər.

Buna görə də ekskursiya işinin təşkili zamanı onun **prinsiplərini**, yerinə yetirdiyi **funksiyaları**, və ekskursiyaların **mərhələlərini** elmi olaraq müəyyənləşdirmək zərurəti yaranır.

Ekskursiyaların təşkil olunmasında aşağıdakı **prinsipləri** əsas götürmək lazımdır. İlk olaraq, ekskursiyalar elmi olmalıdırlar. Faktların, hadisələrin, nəzəri mülahizələrin aid olduqları elmi prizmalardan işıqlandırılması onlara obyektiv qiymət verilməsi üçün zəmin yaradır. Bundan əlavə, ekskursiyalar turizmi təşkil edən ölkə mənafeyinə uyğun olaraq ideyalılıq ifadə etməli, burada turistlərə çatdırılan informasiya həqiqətə uyğun olmalı, nəzəri və praktiki cəhətdən vəhdət təşkil etməli, ekskursantlara tez qavranılan, inandırıcı olmalıdır.

Bu prinsiplərə əməl olunması halında ekskursiya fəaliyyətinin yerinə yetirəcəyi funksiyalardan müsbət nəticə gözləmək mümkündür.

Turizm iqtisadiyyatın bir sahəsidir. Ölkə iqtisadiyyatı üçün ən sərfəli hesab olunan turizmin mühüm elementi kimi ekskursiya fəaliyyətinin də əsas funksiyalarından biri gəlir əldə etməkdir. Məhz ekskursiya xidmətlərinə motivlənmiş turistlər əraziyə səyahət edərək, xarici valyutanın ölkəyə daxil olmasına şərait yaradırlar. Buna görə də ekskursiyaların mühüm **iqtisadi funksiya** yerinə yetirdiyini qeyd etmək olar. Ekskursiyaların digər mühüm funksiyası kimi isə ideya, siyasi, ümumi-maarifləndirici, informasiyaverici, tərbiyəedici, konkret məzmunlu istirahət, dünyagörüşünün geniş-

ləndirilməsi, insanlarda yeni maraqların formalaşdırılması, kadr hazırlığı və təkmilləşdirilməsini göstərmək olar.

Ekskursiyaların bu funksiyaları yerinə yetirməsi üçün onların **hazırlanması mərhələlərinə** dəqiq əməl olunmalı, hər mərhələnin məzmunu və ona qarşı qoyulan şərtlər ekskursiyanın əsas məqsədilə ahəngdar olmalı və operativliyə çalışılmalıdır.

İlk mərhələ ekskursiyanın mövzusunun seçilməsidir. Əvvəlcədən müəyyən olunmamış bir mövzuya əsaslanmayan, kortəbii həyata keçirilməyə çalışılan bir ekskursiya ümumiyyətlə mümkün deyildir. Sonrakı ekskursiya mərhələləri kimi bu mövzuya uyğun olan mənbələrin seçilməsi, bu mövzu üzrə yeni məzmunlu ekskursiyaların tərtib olunması və onun həyata keçirilməsi üçün hazırlıq aparılması göstərilə bilər.

Ekskursiyanın mövzusu onun tərkibini əks etdirən, göstərilən və haqqında danışılan obyektin əsl mahiyyətini ifadə edən bir addır. Ona görə də ekskursiyanın mövzusuna dəqiq uyğun gələn bir obyekt seçilməlidir. Ekskursiyanın mövzusu aşağıdakı tələblərə cavab verməlidir. O, unikal olmalı, asan ifadə olunub, yaddaqalan, dəqiq və görkəmli, xoşagələn olmalıdır.

Müasir turistlərin sosial-demoqrafik əlamətlərinə görə məhdudiyyəti olmadığı üçün ekskursantlar arasında uşaq, gənc, yaşlı, qadın, kişi, şəhər və kənd əhalisinin nümayəndələri olar bilər. Onların hər bir qrupunun öz maraq dairəsi, uyğun tələbatları olduğundan ekskursiyalar insanların estetik zövqünün formalaşması və inkişafına xidmət edən bir proses olmalıdır. Əks halda turizm səfərlərinin əsas **məqsədi** olan turizm təəssüratı yaranmayacaqdır. Bu məqsədlə, turizm-ekskursiya fəaliyyətinin təşkilatçıları tematik, ekoloji, tarixi, incəsənət, bədii-ədəbi, arxitektura, şəhərsalma, muzey, şəhər və şəhərətrafı ekskursiyalar zamanı real tələbata uyğunlaşan mövzu seçməlidirlər.



Bunlardan əlavə, həyata keçirilən işin və ümumi strategiyanın müvəffəqiyyəti naminə ekskursiyalar qarşısına bir sıra **tələblər** qoyulur. Bunlar, ekskursantların həyat və sağlamlığının təhlükəsizliyi, onların əmlakının mühafizəsi, ətraf mühitin, o cümlədən təbii, tarixi və mədəni abidələrin qorunması kimi əsas, ekskursiya marşrutunun optimal və estetik, obyektə asan çata bilmək, baxış üçün geniş meydanın və avtomobil dayanacaqlarının olması və s. kimi əlavə tələblər kimi göstərilə bilər. Ekskursiyaların etik normalar çərçivəsində və mümkün ola biləcək maksimum komfort səviyyəsində olması da zəruri tələblər arasındadır. Bu kimi tələblərin məcmu olaraq ahəngdar şəkildə bir-birini tamamlaması ekskursiyanın, bütövlükdə turizm məhsulunun cəlbediciliyi yüksəlir. Ekskursantların optimal sayının 15-20 nəfər arasında olması isə yuxarıda göstərilən tələblərə cavab vermək və iqtisadi səmərəliliyə nail olmaq baxımından tövsiyə olunan və dünya təcrübəsində özünü göstərən bir şərtdir.

Müstəqil fəaliyyət növü kimi ekskursiyalar məzmununa, iştirakçıların sayı və tərkibinə, keçirilmə yerinə, hərəkətetmə vasitələrinə, müddətinə və keçirilmə formasına görə **təsnif** olunurlar. Göstərilən hər bir təsnifat qrupunun özünün xüsusiyyəti və quruluş tərkibi vardır.

**Məzmununa görə** ekskursiyalar çoxplanlı və tematik ekskursiyalardır. **Çoxplanlı** və ya **obzor** ekskursiyalar ərazi haqqında — şəhər, vilayət, bölgə barəsində ümumi təsəvvür formalaşdırır. Onların tərkibində tanış edilən ərazinin tarixi inkişaf yolu, sənayesi, elmi, mədəniyyəti, təhsili, digər turizm imkanları, hərb tarixi, döyüş yerləri, həmçinin muzeyləri, bank və maliyyə institutları, bir sözlə insanların bugünkü və keçmiş həyatı ilə bağlı hər şey qısa xülasə şəklində tanıdılır.

**Çoxplanlı** ekskursiyalar bir qayda olaraq çoxmövzuludurlar. Onlarda tarixi və müasir materiallar öz əksini tapır. Bu mövzuda olan ekskursiyalar müxtəlif obyektlərin, təbiət,

tarix və mədəniyyət abidələrinin, bina və qurğuların, məşhur hadisələrin baş verdiyi yerlər, sənaye və kənd təsərrüfatı müəssislərinin tanıdılması ilə bağlıdır. Belə ekskursiyalar şəhər, diyar, vilayət, ölkə barəsində ümumi təsəvvür əldə etməyə imkan yaradır. Çoxplanlı ekskursiyaların özünəməxsus xüsusiyyətləri vardır. Tematik ekskursiyalardan fərqli olaraq onların işlənilməsinin müəyyən çətinlikləri vardır. Belə ki, hazırlanması və keçirilməsi yerlərindən fərqli olmayaraq onların oxşar cəhətləri vardır. Bununla yanaşı, çoxplanlı ekskursiyaların özünəməxsus xarakterik xüsusiyyətləri də vardır. Onlar müəyyən şəhər və vilayətə xas olan tarixi şərait və inkişaf səviyyəsinin diqtəsi ilə keçirilir. Məsələn, hansısa döyüş və ya müdafiə xarakterli mövzuda keçirilən ekskursiya bununla bağlı olan ərazidə, ədəbiyyat məzmunlu eksursiyaların keçirilməsi isə görkəmli ədəbiyyat xadimlərinin adı ilə bağlı olan yerlərdə keçirilir.

Bundan fərqli olaraq tematik ekskursiyalar hər hansı bir mövzunun tamamilə açılması, burada gizlənən hadisənin tarixi mahiyyəti, onun əks etdirdiyi dövrün reallıqları, konkret maraq doğuran detallar təqdim olunur. **Tematik ekskursiyalar** öz növbəsində tarixi, istehsal, ekoloji, sənətşünaslıq, muzey-teatr, bədii və arxitektura-şəhərsalma yönümlü təşkil olunur.

**Tarixi ekskursiyalar** yarımnöv olaraq ölkəşünaslıq (məsələn, Alban tayfaları ilə bağlı adların yaranması), arxeoloji (məsələn, I və II Kültəpə qazıntıları), etnoqrafik (hər hansı bir adətin, əfsanənin yaranması ilə bağlı onların yaşadıcısı olan əhalinin məskunlaşdığı yerlər), hərbi-tarixi (hər hansı bir dövlətin və xalqın şanlı hərb tarixini əks etdirən yerə olan baxış), tarixi-bioqrafik (məşhur adamların həyat və fəaliyyəti ilə bağlı olur) ekskursiyalarına ayrılır.

**İstehsal təyinatlı** ekskursiyalar aşağıdakı yarımqruplara bölünür:

1. İstehsal-tarixi;



2. İstehsal-iqtisadi (məsələn, banklar, birjalar, iri ticarət mərkəzləri);
3. İstehsal-texniki (bunlar hər hansı bir maraq doğuran istehsal prosesinin izlənilməsi üçün təşkil olunur);
4. İstehsal-istiqamətyönümlü (burada ekskursantların konkret bir istehsal sahəsinin sirləri ilə tanış olması üçün təşkil olunur).

**Sənətşünaslıq** yönümlü ekskursiyaların yarımnövləri aşağıdakılardır:

1. Tarixi-teatr;
2. Tarixi-musiqi;
3. Xalq sənətkarlığı nümunələri üzrə;
4. Görkəmli mədəniyyət xadimlərinin həyatı və fəaliyyəti ilə bağlı;
5. Sərgi zalları, şəkil qalereyası və rəssam, heykəltaraşların emalatxanalarına təşkil olunan ekskursiyalar

Bədii ekskursiyalar aşağıdakı yarımnövlərə bölünür:

1. Bədii-bioqrafik;
2. Tarixi-bədii;
3. Ədəbi-bədii.

**Arxitektura-şəhərsalma** ekskursiyaları isə aşağıdakı istiqamətlərdə təşkil olunur:

1. Şəhərin arxitektura quruluşu ilə tanışlıq;
2. Onun tarixi abidələri ilə tanışlıq;
3. Bir arxitektorun yaradıcılığı ilə tanışlıq;
4. Şəhərin baş planına uyğun onun tikililəri ilə tanışlıq;
5. Müasir arxitekturanın nümunələri ilə tanışlıq;
6. Yeni tikililərlə olan tanışlıq ekskursiyaları.

**İştirakçıların sayına və tərkibinə** görə ekskursiyalar fərdi, yerli əhali üçün, turistlər üçün, böyüklər və uşaqlar üçün olur. Hər bir göstərilən qrup üzrə ekskursiyalar tədbirinin mahiyyəti, onun metodikası və keçirilmə texnikası, həmçinin müddəti barədə zəruri dəyişiklik tələb edir.

**Keçirilmə yerinə** görə ekskursiyalar şəhər, şəhərətrafı, istehsal, muzey ərazilərində, habelə bunların bir çoxlarından ibarət olan kompleks yerlərdə ola bilər.

**Hərəkətetmə vasitələrinə** görə ekskursiyalar piyada və müxtəlif nəqliyyat vasitələrindən istifadəyə görə dəyişir.

Piyada ekskursiyaların üstünlüyü göstəriş və təqdimatın ekskursiyanın tempinə uyğun olaraq daha rahat və hər iki tərəf üçün əlverişli olmasıdır.

Nəqliyyat vasitələrindən istifadəyə gəldikdə onlar əsasən avtobuslardan ibarət olmaqla iki hissədən ibarət olur. Bu ilk olaraq dayanacaqlarda ekskursiya obyektlərinin analizi və dayanacaqlar arasında fikirlərdən ibarətdir. Avtobuslardan başqa ekskursiyalar üçün həmçinin tramvay, trolleybus, çay teploxodları və vertolyotlardan istifadə olunur.

Ekskursiyaların müddəti bir akademik saatdan (45 dəqiqə) bir günə kimi ola bilər. Qısamüddətli turlar zamanı (1-3 gün) adətən həftə sonlarında müxtəlif mövzularda bir neçə ekskursiya təşkil etmək olar.

**Keçirilmə formasına** görə ekskursiyalar aşağıdakı kimi təsnif olunur:

1. Kütləvi ekskursiyalar — eyni anda çox sayda, yəni 10-20 nəqliyyat vasitəsinin daşıdığı ekskursantlarla aparılan işdir. Bunlar kütləvi tədbirlər xalq oyunları, folklor bayramları ola bilər;

2. Ekskursiya-gəzinti — müəyyən gəzinti ilə müşayiət olunan ekskursiyalar;

3. Ekskursiya-mühazirə — tələbələrin mühazirəni daha yaxşı mənimsəməsi üçün təşkil olunan ekskursiyalar;

4. Ekskursiya-konsert — müəyyən konsert tədbiri ilə müşaiyət olunan ekskursiyalar;

5. Ekskursiya-tamaşa — müəyyən teatr tamaşası ilə müşaiyət olunan ekskursiyalar;

6. Ekskursiya-məsləhət — müəyyən məsləhət xarakterli ekskursiyalar;



7. Ekskursiya-nümayiş — hər hansı məhsul və xidmətin nümayişi ilə müşayiət olunan ekskursiyalar;

8. Ekskursiya-dərs — şagirdlər üçün dərs məqsədilə təşkil olunan ekskursiyalar;

9. Ekskursiya-tədris — konkret tədris proqramında nəzərdə tutlmuş ekskursiyalar;

10. Ekskursiya-göstəriş — hər hansı yeni bir əhəmiyyətli hadisəni və ya məhsulu başqalarına nümayiş etdirmək məqsədilə təşkil olunan ekskursiyalar;

11. Ekskursiya-reklam — müəyyən məhsul və xidmətin reklamı məqsədli ekskursiyalar;

12. Sınaq ekskursiyaları — hər hansı texnoloji prosesin, o cümlədən yeni bir turun sınağı məqsədilə təşkil olunan ekskursiyalar;

Beləliklə, praktikada ekskursiyaların müəyyən qruplara bölünməsi şərti xarakter daşısa da bu, ekskursiya müəssislərinin işinin təşkili üçün mühüm əhəmiyyət kəsb edir. Ekskursiyaların düzgün təsnifatı ekskursiya prosesi zamanı bələdçinin turistlərlə işinin düzgün qurulması baxımından əhəmiyyətli olub, düzgün metodoloji qərarların verilməsi üçün zəruridir.

***Yoxlama üçün suallar***

- Ekskursiyalar hansı əlamətlərinə görə təsnif olunurlar?
- Məzmununa görə hansı ekskursiyalar vardır?
- Çoxplanlı ekskursiyalarda nə öz əksini tapır?
- Tematik ekskursiyalarda nə təqdim olunur?
- Tarixi ekskursiyalarda nə təqdim olunur?
- İstehsal təyinatlı ekskursiyalar hansı yarımqruplara bölünür?
- Sənətşünaslıq yönümlü ekskursiyaların yarımnövləri hansıdır?

- İştirakçıların sayına və tərkibinə görə ekskursiyalar necə təsnif olunurlar?
- Hərəkətetmə vasitələrinə görə ekskursiyalar necə təsnif olunurlar?
- Keçirilmə formasına görə ekskursiyalar necə təsnif olunurlar?

***Testlər***

*1. Məzmununa görə ekskursiyaların təsnifatı necədir?*

A) 6
B) 5
C) 3
D) 2
E) 1

*2. Hər hansı ərazi haqqında ümumi təsəvvür formalaşdırır.*

A) obzor ekskursiyalar
B) tematik ekskursiyalar
C) tarixi ekskursiyalar
D) etnoqrafik ekskursiyalar
E) sınaq ekskursiyaları

*3. Hansı növ tarixi, istehsal, sənətşünaslıq yönümlü təşkil oluna bilər?*

A) çoxplanlı ekskursiyalar
B) sinaq ekskursiyaları
C) məntiqi ekskursiyalar
D) arxeoloji ekskursiyalar
E) tematik ekskursiyalar



*4. Bunlardan biri hadisə və ya məhsulu başqalarına nümayiş etdirmək məqsədilə təşkil olunan ekskursiyalardır.*

A) ekskursiya-tamaşa
B) ekskursiya-nümayiş
C) ekskursiya-göstəriş
D) ekskursiya-reklam
E) ekskursiya-tədris

*5. Bunlardan biri sənətşünaslıq yönümlü ekskursiyanın yarımnövüdür.*

A) tarixi-bədii
B) tarixi-musiqi
C) istehsal-tarixi
D) hərbi-tarixi
E) tarixi-bioqrafik

### §7. *Ekskursiya marşrutunun tərtib olunması*

Ekskursiya marşrutu ekskursiya qrupu hərəkətinin rahat yoludur. Bu marşrut həmin ekskursiya üçün obyektlərə baxışın, qrupların hərəkəti üçün ərazi sahəsindən və ekskursantların təhlükəsizliyinin təmin olunmasınadan asılı olaraq tərtib olunur. Ekskursiya marşrutunun əsas vəzifəsi mövzunun tam açılmasıdır.

Ekskursiya marşrutunun tərtib olunması zamanı əsas tələblərdən biri məntiqi olaraq obyektlərin təqdimatına imkan yaratması və mövzunun açılması üçün ziyarətçi bazasının yaradılmasıdır. Praktikada ekskursiya marşrutlarının **üç variantda** hazırlanması məlumdur. Xronoloji, tematik və tematik-xronoloji. Xronoloji ekskursiya marşrutuna misal olaraq görkəmli insanların həyatı və fəaliyyəti ilə bağlı olan marşrutlar misal ola bilər. Tematik marşrutlara isə misal olaraq hər hansı şəhərin həyatındakı bir mövzunun açılması ilə bağlı olan marşrutlar misal ola bilər.

Bütün çoxplanlı şəhər ekskursiyaları tematik-xronoloji əsasda qurulur. Belə ekskursiyalarda təklif olunan materaialların ardıcıllığı bir qayda olaraq hər yarımmövzu üzrə müəyyən olunur.

Ekskursiya marşrutunun hazırlanması kifayət qədər yüksək peşəkarlıq və biliklər tələb edən mürəkkəb və çoxpilləli bir prosesdir. Marşrut zamanı nəqliyyat vasitələrindən istifadə olunursa o zaman yol hərəkəti qaydalarına əsasən hərəkət olunmalıdır. Ekskursiyada təqdim olunan obyektlər əsas və əlavə olaraq iki yerə bölünür. Əsas obyektlərə baxış ciddi şəkildə planlaşdırılır və bu zaman ekskursiyanın əsas məzmunu açılır. Əlavə obyektlər isə ekskursiya zamanı keçid xarakteri daşıyır və bu zaman əsas məqsəd kimi nəzərədə tutulmur. Ümumiyyətlə isə marşrut mümkün olduğu qədər ardıcıllığa əməl olunması prinsipinə əsasən hazırlanır və aşağıdakı şərtlərə cavab verməsi tələb olunur:



- marşrut zamanı obyektlərə baxış düzgün məntiqi ardıcıllıq prinsipinə əsasən hazırlanmalı və marşrut boyunca təkrarçılığa yol verilməməlidir;
- obyektlərə baxış üçün kifayət qədər geniş meydan olmalı;
- ekskursiya zamanı təqdim olunan obyektlər arasında vaxt intervalı 10-15 dəqiqəni aşmamalı;
- ekskursantların müəyyən ehtiyaclarının ödənilməsi üçün fasilələr verilməlidir.

Bunlardan əlavə, ekskursiya yerində qrupun bir neçə variantda hərəkət etmələri üçün imkanlar olmalıdır. Belə ki, xüsusən iri şəhərlərdə müxtəlif səbəblərdən nəqliyyat vasitələrinin hərəkəti zamanı tıxaclar yaranması mümkündür. Marşrutun hazırlanması onun sxeminin və pasportunun təsdiq olunması, keçilməsi nəzərdə tutulan yolun uzunluğunun və sərf olunan zamanın müəyyən olunması ilə yekunlaşır.

Marşrutun tərtib olunması zamın keçilən yolun xarakteristikası, burada nəqliyyat vasitələri və ya piyada hərəkət edərkən qarşılaşıla bilinəcək maneələr, habelə dayanacaqlar, qarşılaşılması ehtimal olunan təhlükələr və onlardan yan keçməyin variantları əvvəlcədən təhlil olunmalıdır.

Ekskursiyanın **mətinin test olunması** hazırlıq mərhələsində görüləcək əsas işlərdən biridir. Məhz bu mətndə ekskursiyanın məzmununun açılması üçün tələb olunan bütün material əks olunur. Mətndə ekskursiyaya aid olan tematik məlumatlar, turistlər üçün maraqlı ola biləcək bütün faktlar yer alıb, təqdim olunan obyektlərin qiymətləndirilməsinə xidmət edir. Ekskursiya mətninə olan tələblər onun yığcamlığı, dəqiq işlənib hazırlanması, mövzu üzrə informasiyaya malik olması, mövzunu tam açması və bədii dildə olmasıdır. Ekskursiya mətni yaradıcı qrup tərəfindən işlənib hazırlanır və o yoxlayıcı funksiyaya malikdir. Belə ki, hər bir bələdçi bu mətnin əsasında **öz təqdimatını** qurmağı bacarmalı, bunun üçün kompozisiya fikirləşib tapmalıdır. Ekskursiya mətni təkcə əyani

olaraq təqdim oluna bilən obyektlər haqqında deyil, eyni zamanda təqdimat zamanı göstərilməsi mümkün olmayan yer, obyekt və ya hadisə haqqında da təsəvvür yaratmağa yönəlməlidir. Bu zaman fotoşəkilllər və müəyyən sənədlər də ekskursiya mətninə əlavə oluna bilər.

Ekskursiya marşrutunun tərtib olunmasındakı metodiki yanaşma nümayiş olunan obyektin təqdimatı zamanı turistlərin yaddaşında daha yaxşı izlər buraxa biləcək təəssüratın yaranması üçün həyata keçirilən işlərdir. Belə ki, hər bir ekskursiya obyekti özünəməxsus şəkildə müxtəlif olduğundan onun təqimatı zamanı differensial yanaşama da tələb olunur. Ona görə də ekskursiya metodikasının mənimsənilməsi sayəsində bələdçi ekskursiyanın məqsədinə uyğun olaraq onun başlanılması, əsas hissəsinin aparılması və yekunlaşdırılması mərhələsində qarşıya çıxa biləcək müvafiq suallara cavab tapa bilir.

Fərdi ekskursiya mətni bələdçinin öz çıxışını qura bilməsi üçün tərbit etdiyi müstəqil mətndir. Bu mətnin əsasını ekskursiyanın yoxlayıcı mətni təşkil edir. Bütün fərdi ekskursiya mətnlərində məzmun eyni olsa da müxtəlif ifadə tərzləri və ardıcıllıqları ilə fərqlənirlər. Fərdi mətnin yoxlayıcı mətndən əsas fərqi isə bundan idarətdir ki, o, ekskursiyanın strukturunu əks etdirməklə yanaşı tamamilə ekskursiya metodikasına cavab verir. Yoxlayıcı mətnin bir standart kimi qəbul edilməsi ilə bələdçi obyektin tanıdılmasının müxtəlif forma və yollarından istifadə edir.

Ekskursiyanın tərtibinin **son mərhələsi** onun təsdiq olunmasıdır. Bütün mərhələlərin müsbət həll olunması ilə ekskursiya bürosunun rəhbərliyi tərəfindən yeni yaradılmış ekskursiyanın mövzusu və burada iştirak edəcək bələdçilərin siyahısı təsdiq olunur.



***Yoxlama üçün suallar***

- Ekskursiya marşrutları neçə variantda hazırlanır?
- Ekskursiya marşrutunun hazırlanması ardıcıllığı necədir?
- Ekskursiya mətninin yoxlayıcı funksiyası nədir?
- Ekskursiya marşrutunun tərtib olunmasındakı metodiki yanaşma nədir?
- Ekskursiyanın tərtibinin son mərhələsi nədir?

***Testlər***

*1. Ekskursyanın tərtibinin son mərhələsi hansıdır?*

A) ekskursiyanın qiymətləndirilməsi
B) ekskursiyanın dizaynı
C) ekskursiyanın təsdiqi
D) ekskursiyanın marşrutu
E) ekskursiyanın xəritəsi

*2. Ekskursiya marşrutunun əsas vəzifəsi nədir?*

A) ekskursiya mövzusunun tam açılması
B) ekskursiyanın qiymətləndirilməsi
C) ekskursiyanın planlanması
D) ekskursiyanın sxematikləşməsi
E) ekskursiyanın marketinqi

*3. Praktik olaraq ekskursiya marşrutlarının neçə variantda hazırlanması məlumdur?*

A) 6
B) 5
C) 4
D) 3

E) 1

*4. Çoxplanlı şəhər ekskursiyaları hansı əsasda qurulur?*

A) xronoloji
B) tematik-xronoloji
C) tematik
D) arxitektik
E) klassik

*5. Ekskursiyada təqdim olunan obyektlər necə qruplaşdırılır?*

A) maddi və mənəvi
B) böyük və kiçik
C) münasib və bahalı
D) sadə və mürəkkəb
E) əsas və əlavə



### *§8. Ekskursiyalara hazırlıq və onların keçirilmə texnologiyası*

Ekskursiyalar turizm məhsulunun bir hissəsi, səyahətlərin əsas motividir. Ekskursiyanın təşkil olunması birbaşa hasilə gələn iş olmayıb mürəkkəb **hazırlıq** və **icra** mərhələsindən keçir. Mövzusu və məqsədi əvvəlcədən bəlli olan hər hansı bir ekskursiya müəyyən bir yaradıcı qrupun məhsulu olub turizm mütəxəssislərindən başqa buraya daxil olan muzey işçilərinin, təcrübəli turistlərin, elmi işçilərin, idmançıların, məktəblilərin iştirakı ilə yekunlaşır.

Ekskursiya bir çox cəhətlərinə görə praktiki fəaliyyət növü olsa da onun dərin nəzəri əsasları vardır. Ekskursiyaçı üçün nəzəri biliklər, bu fəaliyyət növünün əsas istiqamətlərini, onun inkişafının təkmilləşdirilməsi yollarını bilmək üçün çox əhəmiyyətlidir. Çünki ekskursiya fəaliyyəti təsadüfən keçirilən bir iş olmayıb, turistlərin tələbatlarının ödənilməsi üçün dəqiq müəyyən olunmuş məqsədyönlü tədbirlər sisteminin bir hissəsidir. Ona görə də ekskursiya nəzəriyyəsinin öyrənilməsi ekskursiyanın funksiyalarının, əlamətlərinin, təqimatların xüsusiyyətlərinin ekskursiya metodları, ekskursiyaların təsnifatları, ekskursiya xidmətlərinə müxtəlif yanaşmalar, ekskursiyaların metodologiyası, ekskursiyanın pedaqogikası və məntiqi, bələdçinin peşəkarlığının əsasları haqqında biliklər əldə etməyə imkan verir.

Ekskursiya və onun mahiyyəti haqqında ilk elmi fikirlər yüz ildən artıq bir dövrə təsadüf etsə də kütləvi turizmin yayılması ilə ilk ona elmi yanaşmalar başlamışdır.

**Ekskursiyaların hazırlanması** müəyyən marşrut üzrə informasiyaların toplanması və bunun üçün arxiv materiallarından, internet saytlarından, turistlərin xatirələrindən, foto-video materiallarından istifadədən ibarətdir. Ekskursiya obyektinin seçilməsi təsadüfi olmayıb turistlərdə dərin emosiya yaradacaq qeyri-adi təbiət, tarixi və mədəni obyektlər olmalıdır. Belə obyektlər kimi tarixi hadisələrlə əlaqəli olan

yerlər, təbiət abidələri və qoruqlar, məşhur binalar və qurğular, xatirə abidələri və kompleksləri, arxitektura və şəhərsalma nümunələri, orjinal mühəndis qurğuları, məşhur şəxslərin adı ilə bağlı yerlər, texniki eksponatlar, sənət nümunələri ola bilər.

Ekskursiya iki mühüm mərhələdən — onun hazırlanmasından və keçirilməsindən ibarət olan bir prosesdir. Əvvəlcədən yaxşı təşkil olunmuş hazırlıq mərəhələsi olmayan ekskursiyanın yüksək keyfiyyətindən danışmaq mümkün deyil. Bu baxımdan, yeni bir ekskursiyanın **iki əsas mərhələsi** diqqəti cəlb edir:

- yeni ekskursiya mövzusunun işlənib hazırlanması;
- artıq işlənilib hazırlanmış ekskursiyanı həyata keçirmək üçün işə yeni başalyan bələdçinin hazırlanması.

İlk mərhələ ekskursiya müəssisəsi üçün yeni olan prosesin başlanğıcıdır. Yeni bir ekskursiyanın hazırlanması yaradıcı qrupa həvalə olunur. Bu qrupdakı yaradıcı insanların sayı 3-7 nəfər, mürəkkəb mövzulu ekskursiyalar üçün daha çox sayda ola bilər. Əksər hallarda bunlar ekskursiya bürosunun əməkdaşları ola bilər. Bir sıra hallarda müxtəlif sahələrdən olan mütəxəssislər — muzey işçiləri, ali və orta məktəb müəllimləri məsləhətçilər kimi bu prosesə cəlb oluna bilər. Görülmüş işə nəzarətçi kimi yaradıcı qrupun rəhbəri ola bilər.

Yeni ekskursiyanın hazırlanması **üç əsas mərhələdən** keçir. Birinci vəzifə hazırlanacaq ekskursiya üçün materialların seçilməsi, onların öyrənilməsidir.

Bundan sonra ekskursiyanın məzmununun tərtib olunması mərhələsində ekskursiya marşrutunun qurulması, əldə olunmuş faktiki materialların işlənib hazırlanması, ekskursiyanın əsas hissəsinin işlənilməsi, yoxlama mətninin yazılması, ekskursiyanın keçirilməsi metodikası üzərində işin aparılması, ekskursiya müddətində daha səmərəli təqdimat metodikasının seçilməsi, bələdçilər tərəfindən fərdi mətnin yazılması həyata keçirilir.



Sonuncu, yekunlaşdırma mərhələsində ekskursiyanın marşruta qəbul olunub tətbiq edilməsi baş verir.

Mövzusundan, növündən və keçirilmə formasından asılı olmayraq ekskursiyalar giriş, əsas hissə və yekun bölmələrdən ibarətdir.

Ekskursiyaların giriş hissəsi də təşkilati və informasiya bölümləri olaraq iki yerə bölünür. Təşkilati bölümdə ekskursiya qrupu ilə tanışlıq, təlimatların verilməsi, yolda təhlükəsizlik qaydaları, marşrut boyunca hərəkət qaydaları verilir. İnformasiya bölümündə isə mövzu haqqında qısa məlumat, marşrutun uzunluğu və müddəti, yola çıxma və qayıtma müddətləri, sanitar məqsədli dayanacaqlar, ekskursiyanın qurtarma yerləri əks olunur.

Ekskursiyanın əsas hissəsi konkret ekskursiya obyektindən, təqdimat və təqimatın hekayəsindən ibarətdir.

Ekskursiyanın yekun hissəsi iki hissədən ibarət olub, 5-7 dəqiqədən artıq sürmür. İlk hissədə ekskursiyanın əsas məzmunun yekunları verilir. Mövzu üzrə əldə olunmuş nəticələr əks olunur. İkinci hissədə isə mövzunu dərinləşdirən digər ekskursiyalarda qazanılmış informasiyadan istifadə olunur. Yekun bölmə ekskursiyaya giriş və əsas hissə kimi vacibdir. Burada tələb olunan əsas şərt ekskursiyanın kifayət qədər maraqlı olmasıdır. Bununla yanaşı, ekskursiyanın turistlər üçün lazım olmayan informasiya ilə də yüklənməməsi vacibdir.

Yeni ekskursiyaya hazırlıq mərhələsində bir sıra əsas mərhələlər seçilir. Onları aşağıdakı kimi göstərmək mümkündür:

- ekskursiyanın məqsəd və vəzifələrinin müəyyən olunması;
- mövzunun seçilməsi;
- ədəbiyyatın seçilməsi və biblioqrafik mətnin tərtibi;
- ekskursiya materialları üçün mənbələrin müəyyən olunması;

- ekskursiya obyektinin seçilməsi və öyrənilməsi;
- ekskursiya marşrutunun tərtibi;
- marşrut boyunca keçidlər;
- yoxlama mətninin hazırlanması;
- bələdçi portfelinin komplektləşdirilməsi;
- ekskursiyanın keçirilməsinin metodiki üsullarının müəyyənləşdirilməsi;
- ekskursiyanın aparılması texnikasının müəyyənləşdirilməsi;
- metodiki iş qaydalarının tərtibi;
- fərdi mətnlərin tərtib olunması;
- ekskursiyanın təhvil verilməsi;
- ekskursiyanın təsdiq olunması.

***Yoxlama üçün suallar***

- Ekskursiya obyektinin seçilməsinin mahiyyəti nədir?
- Yeni ekskursiyanın hazırlanmasının neçə əsas mərhələsi var?
- Ekskursiyalar hansı bölmələrdən ibarətdir?
- Ekskursiyaların giriş hissəsi neçə yerə bölünür?
- Ekskursiyanın yekun hissəsi neçə hissədən ibarətdir?

***Testlər***

*1. Ekskursiyalara qarşı əsas şərt nədir?*

A) Maraqlı olması
B) Qiymət
C) Komfort
D) Təhlükəsizlik
E) Vaxt



*2. Ekskursiyalara elmi yanaşmalar başlamışdır.*

A) turizmin yaranması ilə
B) kütləvi turizmin yaranması ilə
C) kənd turizminin yaranması ilə
D) turizm marşrutlarının formalaşması ilə
E) ÜTT-nin yaranması ilə

*3. Yeni bir ekskursiyanın hazırlanması kimə həvalə olunur?*

A) turoperator
B) turagent
C) yaradıcı qrup
D) dövlət
E) otel rəhbərliyi

*4. Yeni ekskursiyanın hazırlanması zamanı ilkin vəzifə nədir?*

A) məzmunum müəyyən olunması
B) bələdçi mətninin tərtibi
C) ekskursiyanın təsdiq olunması
D) materialın seçilməsi və öyrənilməsi
E) ekskursiyanın metodikasının müəyyən olunması

*5. İstənilən ekskursiya neçə bölmədən ibarətdir?*

A) 7
B) 6
C) 5
D) 4
E) 3

### §9. Ekskursiyanın psixoloji elementləri

Psixoloji vəziyyət hər bir insan fəaliyyətində, o cümlədən, ekskursiya zamanı özünü göstərən insani keyfiyyətdir. Ekskursiyalar zamanı psixoloji vəziyyətin yaranmasında **əsas şərt** olaraq konkret şərait, bələdçi və ekskursantların həmin andakı əhvali-ruhiyyəsi, həyat şəraiti, kollektivdəki mikroiqlim, sağlamlıq şəraiti, hava şəraiti, atmosfer təzyiqi və sair ola bilər. Ekskursiyalar zamanı psixoloji vəziyyətin aşağıdakı **növləri** ola bilər. Bunlar:

- ümumi psixoloji və emosional vəziyyət;
- intellektual yaradıcılıq vəziyyəti;
- iradi vəziyyət.

Ekskursiyaların keçirilməsi zamanı bələdçi burada iştirak edən insanların xüsusiyyətləri, temperament və təbii keyfiyyətlərini nəzərə almalıdır. Çünki ekskursiyanın fəallığı burada iştirak edən insanların psixoloji vəziyyətindən çox asılıdır.

Ekskursiyalar zamanı psixoloji mühiti aşağıdakı konkret faktorlar yaradır:

1. Ekskursiyaçının və bələdçinin əmək şəraiti;
2. Kollektivdəki mikromühit;
3. Sağlamlıq şəraiti;
4. Hava şəraiti.

Bu amillər şəxsin psixoloji vəziyyətinə təsir edərək aşağıdakı halları yaradır:

1. İntellektual yaradıcılıq;
2. Yüksək temperament;
3. Cəsurluq və sərbəstlik;
4. Yüksək yaddaş.

Göstərilən keyfiyyətlər ekskursiya metodistləri tərəfindən ekskursiyaların hazırlanması və keçirilməsi zamanı yüksək dərəcədə tövsiyə olunur. Bu psixoloji keyfiyyətlərin aşağı və yuxarı dərəcəsi hər bir ekskursiyaçı üçün vacib olub ətraf mühitin dərk olunmasında mühüm əhəmiyyət kəsb edir.



Ekskursiya bir dərketmə prosesidir. Məhz onun vasitəsilə obyekt haqqındakı qiyabi təsəvvürlər reallığa çevrilir. Bu baxımdan ekskursiya zamanı insanların duyğu üzvləri vasitəsilə ətrafı dərk etməsi, daha dərin mücərrəd bilgilərə yol açılması vacibdir. Belə mücərrəd mövzular isə bütün ətraf aləm, təbiət, tarix və mədəniyyətdir.

Psixoloji proses kimi ekskursiyaların təşkili iki əsas dərketmə prosesindən keçilir. Bunlardan biri hiss edib dərketmə, ikincisi məntiqi dərketmədir. Hiss edib dəretmə kimi toxunma, görüb qavrama və təsəvvüretmə aiddir. Toxunaraq hissetmə kimi insana obyekt haqqında çatan və onda müxtəlif emosional hislər yaradan fəaliyyətlər nəzərdə tutulur. Bu proseslər səs, temperatur, qoxu, sürət, sərtlik, ağırlıq ola bilər.

Görüb qavrama ekskursiya zamanı hadisələrin, əşyanın və müəyyən halların bir və ya bir neçə hissetmə orqanı vasitəsilə dərk olunaraq onun haqqında real təsəvvür əldə edilməsidir. Görüb qavrama habelə, hadisə və predmet haqqında səsli informasiya, onun zərifliyi və ya dadı haqqında insanlarda dərin bir təsəvvür formalaşdıraraq bələdçinin həmin hadisələr haqqında danışdıqlarını sabitləşdirir. Təsəvvürlərin dərinləşməsi üçün ekskursantlarda müxtəlif davranış və ifadə formaları, predmet və halların, xarici görünüş, rəng, ölçü, yerləşmə, bənzərlik və fərqlilik kimi keyfiyyətlərin canlandırılması mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar hamısı ekskursiya obyektinin məntiqi qavraması ilə mümkün olur.

Ekskursiyaların aparılması zamanı tələb olunan psixofizioloji mühitin yaradılması üçün bələdçidən ekskursantların keçmiş təcrübəsi, aktiv həyat tərzi, onun əhvali-ruhiyyəsi, psixoloji hallardan asılılıq dərəcəsi, başqalarından seçiləbilmə istəyi, onun nəzəri bilikləri və praktiki vərdişləri, müxtəlif əşya və predmetlərin strukturu, tərkibi və detalları haqqında məlumatlılığını nəzərə almağı tələb olunur.

Ekskursiyanın məzmununun qavranılması üç növ psixoloji prosesin vəhdətində baş verir. Bunlar hissetmə, təsəvvüretmə, düşünmə və təxəyyületmə ilə yekunlaşan dərketməni, emosional olaraq həmin hislərin yaşanmasını və insanların iradəsinin möhkəmlənməsi, onların daha inadcıl və istəkli olmasını şərtləndirir.

Bir dərketmə fəaliyyəti növü kimi ekskursiya insanların hisslərinin daha çox üzə çıxdığı bir sahədir. Ətraf mühit, tarixi-mədəni və təbii obyektlərin dərk olunması ilə insanlarda görmə və eşitmə hisləri yaranır. Məhz bunlar vasitəsilə təqdimat baş tutur. Bütün bunlar ekskursiyanın bir parçasını təşkil edir.

Hissetmə psixoloji bir hadisə olub, insan beynində hadisə və obyekt haqqında **təsəvvürün yaranmasıdır**. Məhz hissetmə ilə insan ətraf aləmdə olanların ölçüsü, forması, səsi, temperaturu, qoxusu, sürəti, sərtliyi, ağırlığı və sair haqqında öz şüurunda təsəvvür yaradır.

Ekskursiya zamanı təqdim olunan materialda diqqəti cəlb edən və insanlarda hiss-həyəcan yaradan amillər diqqəti cəlb edir. Bu zaman bələdçinin vəzifəsi ekskursantların diqqətini təqdim olunan obyektin belə xüsusiyyətləri üzərində qurmaqdır. Bu zaman diqqəti cəlb edən fakt, hadisələrə ciddi fikir verilməlidir.

Ekskursiyanın hazırlanması zamanı burada iştirak edən insanların keçmiş təcrübəsi, onun psixoloji xüsusiyyətlərindən asılı olaraq hadisələri qavrama xarakteri, onun əhvali-ruhiyyəsi, dərrakəsi, bilik və praktiki bacarıqları nəzərə alınmalıdır.

Ekskursiya metodikası təqdim olunan materialın qavranlıması üçün müxtəlif üsullardan istifadə olunmasına imkan verir. Dərkolunmanın başlanğıcı kimi təqdim olunan obyektin ekskursantlara tanıdılması ola bilir. Bundan sonra obyekt haqqında olan təsəvvürlərin daha da dərinləşməsi üçün turistlərin yaddaşında qalan məlumatların tutuşdurularaq müqayisə aparılması həyata keçirilə bilər.



Qavramanın dərinləşməsində mühüm rolu bələdçinin hekayəsi oynayır. Bələdçinin danışdığı məlumatın monoloqdan dialoqa keçməsi qavrama effektini daha da dərinləşdirən bir üsuldur. Ekskursantlar qarşılarına qoyulmuş suallara cavab verərək öz intellektual səviyyələrini nümayiş etdirmək imkanı da əldə edirlər.

Ekskursiya praktikasında tez-tez istifadə olunan **analogiya metodu** da bu zaman dərkolunma prosesinə kömək edir. Bu metodu tətbiq edən bələdçi bir-birinə bənzər obyektlərin analoji xüsusiyyətlərini müqayisə edərək onların oxşar və fərqli xüsusiyyətlərini izah edir. Bunun üçün ekskursiyadan əvvəl təqdim olunan obyektin bənzər xüsusiyyətləri haqqında məlumat toplamaq tələb olunur.

***Yoxlama üçün suallar***

- Ekskursiyalar zamanı psixoloji vəziyyətin yaranmasında əsas şərt nədir?
- Ekskursiyalar zamanı psixoloji vəziyyətin hansı növləri ola bilər?
- Ekskursiyalar zamanı psixoloji mühiti hansı faktorlar yaradır?
- Psixoloji proses kimi ekskursiyaların təşkili neçə əsas dərketmə prosesindən keçir?
- Dərketmə fəaliyyəti növü kimi ekskursiya nədir?
- Analogiya metodu dərkolunma prosesinə necə təsir edir?

***Testlər***

*1. Ekskursiyaların təşkili zamanı hansı dərketmə prosesindən keçilir?*

A) sadə və mürəkkəb

B) hissi və məntiqi

C) şaquli və üfüqi
D) sadə və məntiqi
E) metodik və tematik

*2. Səs, temperatur, qoxu, sürət hansı növ dərketməyə aiddir?*

A) hissi
B) metodik
C) məntiqi
D) mürəkkəb
E) sadə

*3. Ekskursiyalar zamanı bir-birinə bənzər obyektlərin xüsusiyyətlərinin müqayisəsi hansı metoda aiddir?*

A) deduksiya
B) kompleks yanaşma
C) koordinasiya
D) sintez
E) analogiya

4. *Ekskursiyanın məzmununun qavranılması neçə növ psixoloji prosesin vəhdətində baş verir?*

A) 6
B) 5
C) 4
D) 3
E) 1

5. Ekskursiyalar zamanı yaranan psixoloji vəziyyətin növlərinə aid deyil?

A) ümumi psixoloji vəziyyət
B) emosional vəziyyət



C) sosial-psixoloji vəziyyət
D) intellektual yaradıcılıq vəziyyəti
E) iradi vəziyyət

### *§10.Ekskursiyalarda məntiqi ardıcıllıq*

Ekskursiya zamanı bələdçi nə qədər məlumatlı olsa da yalnız müəyyən məntiqi ardıcıllığa əməl etməklə o, öz işində uğur qazana bilər. Turizmdə çox sayda bələdçi öz intuisiyasına və keçmiş təcrübəsinə əsaslanaraq verilmiş tapşırıqları yerinə yetirər və işində uğurlu ola bilər. Təcrübə göstərir ki, yalnız təbiət və humanitar elmlər sahəsində yüksək məntiqi savada malik bələdçilər ekskursiyalarda tələb olunan informasiyanı tam və qüsursuz çatdıra bilirlər. Məhz məntiqi ardıcıllıqla həyata keçirilən tanıtım bələdiçinin söhbətində, ekskursiya təhlilində və ekskursiyanın quruluşunda öz əksini tapmalıdır. Ekskursiyalar zamanı aşağıdakı **məntiqi qanunlar** öz əksini göstərir. Bunlar:

- müəyyənlik;
- ardıcıllıq;
- əsaslılıq;
- bir-birini inkar etməmə qanunlarıdır.

Bunların tətbiq olunması zamanı istifadə olunan məntiqi üsullar:

- müqayisə;
- təhlil;
- sintez;
- mücərrəd təfəkkür;
- ümumiləşdirmə hesab olunur.

Ekskursiyanın yaradılması zamanı metodist və bələdçilər məntiqi təfəkkürdən doğan:

- Eynilik;
- Əkslik (ziddiyyət);
- Üçüncünün istisna olunması;
- Kifayət qədər əsaslılıq kimi əsas məntiqi təfəkkür qanunlardan istifadə edirlər.

Eynilik qanunu ekskursiyalar zamanı özünü elə göstərir ki, bələdçi baxış zamanı müxtəlif fikirlər doğuracaq ifadələrə yol



verməməli, dolayısı ilə ekskursantların fikirlərini çaşdırmamalıdır.

Əksklik qanunu onunla izah olunur ki, obyekt və ya hadisə haqqında danışılarkən hər hansı iki əks arqument eyni anda düzgün sayıla bilməz.

Üçüncünün istisnası qanunu ekskursiyalar zamanı bir-birini inkar edən və ya bir-biri ilə eynilik təşkil edən hal və hadisədən fərqli olaraq üçüncü bir arqumentin mümkünsüzlüyüdür.

Kifayət qədər əsaslılıq qanunu onunla izah olunur ki, istənilən fikrin real qəbul olunması üçün şübhəsiz olmasına tam əmin olunan digər faktlarla sübut olunmalıdır.

Ekskursiyalar zamanı **düzgün metodikaya** əsaslanan məntiqi qanunlar bələdçiyə və metodistə aşağıdakı problemləri həll etməyə imkan verir:

1. Tamaşaçı arqumentlərinə qarşı uğurlu sübutlar gətirib ekskursiyanı gözlənilən şəkildə başa vurmaq;
2. Tarixi hadisələrin, faktların və nümunələrin məntiqi ardıcıllığını təmin etmək;
3. Ekskursiyanın sözlü hissəsinin onun görüntü təqdimatı ilə üst-üstə düşməsi;
4. Göstəriş və söhbətin məntiqi sxeminin seçilməsi;
5. Mövzunun açılışını təmin edən optimal kompozisiyanın qurulması.

Ekskursiyalar zamanı məntiqi qanunlara əməl olunmasının özünəməxsus xüsusiyyətləri vardır. Onlardan ən mühümü odur ki, burada ortaya qoyulmuş əsas tezis və fikirlər ziyarətçi arqumentləri ilə izah olunur. Belə ki, ekskursiyalar zamanı insanın əldə etdiyi yeni biliklər iki yerə bölünür:

a) duyğu orqanları vasitəsilə ətraf mühitin dərk olunması ilə qazanılan biliklər;

b) artıq əldə olunmuş məlumatlardan nəticə çıxarılması ilə əldə olunmuş biliklər. Bu baxımdan, ekskursiyalar zamanı bələdçi məntiqi üsullarla biliklər qazanılmasına diqqət edir.

Bunlar arasında bir düşüncə əsasında bir fikrə hökm olunması üsulu maraq kəsb edir. Bu, mühakimə, nəticə və yekunlaşdırma mərhələsindən ibarətdir.

Mövzusundan asılı olmayaraq, hər bir ekskursiyanın ümumi bir konstruksiyası vardır. Belə ki, təqdimat zamanı istifadə olunan məntiqi keçidlər ekskursantlara təqdim olunan obyektlərin göstərilməsi və haqqında danışılması zamanı mühüm rola malikdir. Təqimatın bir hissəsi olan bu keçidlər müəyyən funksiyalara malikdir. Belə ki, məntiqi keçidlər:

- tabeçilik;
- bənzərlik;
- təzadlılıq;
- əlaqəlilik;
- asılılıq funksiyaları daşıyır.

Belə keçidlər ekskursiya zamanı mövzunun tam əks etdirilməsi üçün bölmələr arasında zəruri olan bağlantıların qurulması baxımından əhəmiyyətlidir.

Ekskursiya prosesində müşahidə olunan obyektin üzərində məntiqi mühakimə aparılması maraq kəsb edir. Məntiqi mühakimə aşağıdakı məsələlərin həllinə imkan verir:

- Müşahidə olunan obyektin ətrafdakı digər obyektlərdən seçilib ayrılması;
- Təqdimat məqsədilə obyektin maraq kəsb edən xarici görkəminin açılması;
- Obyektlər və onların hissələr arasında əlaqələr

Ekskursiyalar zamanı məntiqi qanunlara əməl olunması bu zaman qarşıda duran vəzifələrin yerinə yetirilməsinə imkan verir. Ekskursiya materiallarının başa düşülməsi və yadda saxlanılması belə vəzifələrdəndir. Ona görə də məntiqi qanunlar və onların tələbləri yeni ekskursiyanın işlənib hazırlanması, əsas sualların bir mövzuda birləşdirilməsi zamanı nəzərə alınmalıdır. Bu baxımdan, eksursiyanın müəllifləri marşrutun və yoxlama mətninin tərtibi zamanı



ekskursiyalardakı məntiqi ardıcıllığa əməl edirlər. Buna nail oluqda eksukursiyada bələdçinin ardıcıllığı, təqdimatın mərhələsinin müəyyənləşdirilməsi və onları metodiki üsullarla möhkəmləndirilməsi mümkündür.

Beləliklə, məntiqi qanunlar ekskursiyanın hazırlanması və keçirilməsində mühüm rol oynayır. Bütün ekskursiya metodikası, onun qəbulu məntiqi qanunların tələblərinin nəzərə alınması ilə qurulur. Bələdçinin də bu sahədəki işi məhz ekskursiyanın tələbləri çərçivəsində qurulacaq məntiqi ardıcıllıqdan çox asılıdır.

***Yoxlama üçün suallar***

- Ekskursiyada məntiqi ardıcıllığın rolu nədir?
- Ekskursiyalar zamanı hansı məntiqi qanunlar öz əksini göstərir?
- Eynilik qanunu ekskursiyalar zamanı özünü necə göstərir?
- Ekskursiyalar zamanı məntiqi qanunlar bələdçiyə və metodistə hansı problemləri həll etməyə imkan verir?
- Ekskursiyalar zamanı məntiqi qanunlara əməl olunmasının özünəməxsus xüsüsiyyətləri hansıdır?
- Ekskursiya prosesində məntiqi mühakimə hansı məsələlərin həllinə imkan verir?

***Testlər***

*1. Ekskursiyanın yaradılması zamanı yaranan məntiqi təfəkkürdən doğan qanunlara aid deyil.*

A) eynilik
B) əkslik
C) üçüncünün istisna olunması
D) kifayət qədər əsaslılıq

E) məntiqlilik

*2. Aşağıdakılardan hansı ekskursiyalar zamanı yaranan məntiqi qanunlardandır?*

A) müqayisə
B) təhlil
C) sintez
D) müəyyənlik
E) mücərrəd təfəkkür

*3. Ekskursiyalar zamanı insanın əldə etdiyi yeni biliklər neçə yerə bölünür?*

A) 5
B) 6
C) 2
D) 3
E) 4

*4. Ekskursiyalarda təqdimat zamanı istifadə edilən məntiqi keçidlərin funksiyalarına aid deyil.*

A) bənzərlik
B) sərbəstlik
C) asılılıq
D) əlaqəlilik
E) təzadlılıq

*5. Hansı məntiqi qanuna görə bələdçi baxış zamanı müxtəlif fikirlər doğuracaq ifadələrə yol verməməlidir?*

A) eynilik
B) ziddiyyət
C) kifayət qədər əsaslılıq
D) sərbəstlik
E) üçüncünün istisna olunması



## *§11. Ekskursiya pedaqoji bir proses kimi*

Bütün insan həyatı, o cümlədən asudə vaxtın keçirilmə forması olan ekskursiya fəaliyyətinin bir pedaqoji zəmini vardır. Ətraf mühitin, təbii gözəlliklərin, tarixi zənginliklərin insanlara, xüsusən gənc nəslə öyrədilməsi zamanı burada **pedaqogika elminin** imkanlarından istifadə mühüm əhəmiyyət kəsb edir. Bələdçi ilə ünsiyyət, onun tövsiyələri və qeydləri turistlər tərəfindən onların mənəvi və estetik zövqlərinə görə dəyişilir, onların təhsilinə, tərbiyəsinə və dünyanı dərk etməsinə öz təsirini göstərir.

Ekskursiyanın pedaqoji əsasları ilk növbədə onun didaktik prinsiplərində görünür. Bu prinsiplərə görə ekskursiyanın elmiliyi, ideyalılığı və həyatla bağlılığı, obyektin əlçatanlığı, ekskursiyanın ümumi sistematikliyi, onun başadüşülənliyi və inandırıcılığı əsas götürülür. Elmilik kimi ekskursiyalarda təqdim olunan obyektin elmi maraq kəsb etməsi, onun hər hansı bir ideyaya xidmət etməsi, nə zamansa baş vermiş real həyati faktlara əsaslanması, onun hər hansı bir fantastik səviyyədə deyil müasir elmin və texnologiyanın səviyyəsi ilə, əlçatan yerdə olması ilə, ekskursiya elementlərinin bir-birini tamamlaması ilə, turistlərin sahib olduğu mədəni səviyyə və dünyagörüşünə görə başa düşülən və təsvir etdiyi hal, hadisə və ya fakta görə, real inandırıcılığa görə seçilir.

Bir mədəni-maarif tədbiri kimi ekskursiyanın öz müstəqil yolu vardır. İstənilən bir pedaqoji fəaliyyət kimi burada iki tərəf — öyrədən bələdçi və öyrənən turistlər vardır. Bu proses zamanı bələdçinin pedaqoji ustalığı ilk olaraq onun ixtisası üzrə biliklərindən, təhlil aparmaq qabiliyyətindən, düşüncə irəli sürmək məharətindən, ekskursantların psixologiyasını başa düşmək qabiliyyətindən, qrupu idarə etmək bacarığından, pedaqoji texniklər üzrə biliklərindən, intuisiya keyfiyyətindən, ekskursantın şəxsiyyətinə hörmətdən və

həmçinin ekskursiyanın pedaqoji vasitələrindən istifadə səriştəsinə əsaslanır.

Ekskursiya zamanı pedaqoji bacarıq, lazım olan anada tərbiyə prosesinin sürətləndirilməsinə və eyni zamanda ləngidilməsinə səbəb ola bilər. Ekskursiyanı aparan bələdçi-pedaqoq hər şeydən əvvəl öz ekskursantlarına mənəvi inkişaf, kollektiv hərəkətlərə hörmət, öz xalqına və digər xalqlara sevgi kimi dərin mənəvi keyfiyyətlər aşılamalıdır.

Hər bir tematikalı ekskursiyanın öz vəzifəsi vardır. Təbiətşünaslıq yönümlü ekskursiyada canlı təbiətə, bitki və heyvanat aləminə qayğı və diqqətdən bəhs olunur. İncəsənət yönümlü ekskursiyada ekskursantların estetik tələbatının ödənilməsi və estetik yöndən tərbiyə olunması əsas götürülür. İstehsalyönümlü ekskursiyada isə əməyə hörmət motivləri tərbiyə olunur. Eksursiya zamanı pedaqoji proseslərdən istifadədə **induktiv və deduktiv metodlardan** istifadə olunur.

Bələdçi induksiya metodunu tətbiq etməklə verilmiş material və faktlar əsasında ümumiləşmə aparıb fərdi hallardan ümumi yekun fikirə keçir.

Deduktiv metodun istifadəsi isə bələdçinin əlində konkret tezislər olduğu zaman və buna uyğun arqumentlər gətirə bildikdə istifadə olunur.

Pedaqogikanın tələblərinə uyğun olaraq bələdçi ekskursiya zamanı birbaşa deduktiv izahda kifayət qədər biliklər və məhdud biliklər olduğu zaman yaranmış vəziyyətə keçmək üçün beş variantdan istifadə edir:

1. Faktların hamıya məlum olan nəzəri biliklər bazasında izahı;

2. Əvvəlcədən əldə olunmuş biliklərin kombinasiya olunması;

3. Əvvəlki iki nəticədən əldə oluna bilinməyən deduktiv nəticələrin yeni forma ilə izahı;

4. Hadisə və faktların modelləşdirilməsi və ya analogiyası ilə izahı;



5. Hadisə və faktların induktiv izahı. Bu üsul əvvəlki modelləşdirmə, analogiya üsulları səmərə vermədikdə tətbiq olunur.

Ekskursiyanın pedaqoji proses kimi səmərəsi hər iki tərəfin — bələdçi və ekskursantın fəallığından çox asılıdır. Gənclərlə işləyən bələdçilər bu insanların yaradıcılığını, onların enerjisini zəruri yönə çevirməyi bacarmalıdır.

Ekskursiya zamanı mühüm pedaqoji vəzifələrdən biri verilən informasiyanın yaddaşda möhkəmləndirilməsidir. Bunun üçün bələdçinin qarşısında verdiyi informasiyanın daha əvvəlcə verilmiş və görülmüş informasiya ilə müqayisəsi, verilmiş informasiyanın içində birinci, ikinci və üçüncü dərəcəlilərin seçilməsi və yekun nəticəyə gəlinməsi vəzifələri durur.

Ekskursiya zamanı bələdçinin başqa bir vəzifəsi isə ekskursantların müstəqil işləməsi üçün praktiki vərdişlər verməsidir. Bu bilavasitə ekskursantların ekskursiya savadlılığıdır. Obyekti görə bilmək, onu dərk edib ondan zövq ala bilmək, bütün marşrut boyu və dayanacaqlarda ekskursiyaya aid olan məlumatları müstəqil həzm edə bilmək baxımından bu vacibdir.

Pedaqoji proses kimi ekskursiyanın vacib bir mərhələsi ekskursiyadan sonrakı işin aparılmasıdır. Bunun üçün bələdçi ekskursiyanın sonunu "bir ev tapşırığı" mərhələsinə keçirməli, ekskursiyadan alınan təəssüratın ekskursiyadan sonra özünütəhsil, qiraət, film seyri kimi tapşırıqlarla möhkəmləndirilməsinə çalışmalıdır.

Yekun nəticədə bələdçinin pedaqoji fəaliyyətini aşağıdakı mərhələlərə bölmək olar:

1. Bələçinin ekskursiya qrupunu hazırlaması;
2. Ekskursiyanın özünün keçirilməsi;
3. Ekskursiyadan sonrakı möhkəmlətmə mərhələsi.

Ekskursiya fəaliyyəti zamanı bələdçi iki mühüm **vəzifəni** yerinə yetirir:

1. Ekskursantların biliklərlə zənginləşməsini təmin edən didaktik vəzifə;

2. Onlarda dünyagörüş, davranış norması və ünsiyyət etikası kimi tərbiyəedici vərdişlər yaratma funksiyası.

Bunun üçün bələdçi həm də pedaqoq kimi aşağıdakı **keyfiyyətlərə** malik olmalıdır:

1. Konstruktiv qabiliyyət — konstruktiv olmaq ekskursiya materialını düzgün seçib işləmək, ekskursiya planını və metodiki qaydaları düzgün tərtib etməkdən ibarətdir.

2. Təşkilatçılıq qabiliyyəti — bunun üçün bələdçi rəhbərlik etdiyi qrupda diqqətləri istədiyi yerə yönəltmək, zəruri məlumatları lazım olan tərzdə çatdıra bilmək bacarığına malik olmalıdır.

3. Bələdçi yüksək dərəcədə ünsiyyətcil olmalıdır. O təkcə turistlərlə deyil, həm də sürücü, muzey işçisi, səyahət bürosu işçiləri, metodiki rəhbərlər və digər qrupların bələdçiləri ilə ünsiyyətə girə bilər. Bu məqamda yaxşı ünsiyyətcil bələdçi təkcə öz tabeliyində olan turistlərin qarşılanması üçün deyil eyni zamanda onlarla şən, səmimi münasibətin yaradılması üçün çalışmalı, heç bir halda özünə qeyri-əminlik, tələskənlik, nəyi isə axtarırmış kimi boş vaxt itirmək, yersiz əl-qol hərəkətləri etmək kimi davranışları özünə yaxın buraxmamalıdır.

4. Tanıtım qabiliyyəti — buna sahib olan bələdçi öz biliklərini ekskursantlara çatdıra bilmək üçün ekskursiyanın məzmununu daim təkminləşdirməli, onun aparılma texnikasını yeniləməli, ekskursiya prosesinin xüsusiyyətlərini təhlil etməli, ayrı-ayrı qruplara tələbatlarına görə yanaşmalı, öz ustalığını daim artırmalıdır.

Pedaqoji ustalığını artıra bilmək üçün bələdçi eyni zamanda səlis, aydın və gözəl danışığa, ifadəli nitqə, başa düşülən fikirlərə və hislərə malik olmalı, mimik və pantomik ifadələr, dəqiq jestlər, mənalı baxışlar və təbəssümlər,



qrupdakı insanları emosional vəziyyətləri ilə idarə etmək, onlara qarşı xoşniyyətli olmaq və son nəticədə öz rejissor və aktyor məharətini ortaya qoya bilmək bacarığına sahib olmalıdır.

***Yoxlama üçün suallar***

- Ekskursiyanın pedaqoji əsasları nə ilə izah olunur?
- Bir pedaqoji fəaliyyət kimi ekskursiyada neçə tərəf vardır?
- Ekskursiya zamanı pedaqoji bacarıq nəyə səbəb ola bilər?
- Eksursiya zamanı pedaqoji proseslərdən istifadədə hansı metodlardan istifadə olunur?
- İnduksiya metodunu tətbiq etməklə bələdçi nəyə nail olur?
- Deduktiv metodun istifadəsi ilə bələdçi nəyə nail olur?
- Ekskursiyanın pedaqoji proses kimi səmərəsi nədir?
- Bələdçinin pedaqoq kimi hansı keyfiyyətləri vardır?

***Testlər***

*1. Ekskursiyalar zamanı bələdçinin pedaqoji fəaliyyəti neçə mərhələdən ibarətdir?*

A) 6
B) 5
C) 3
D) 4
E) 1

*2. Bələdçinin pedaqoq kimi malik olmalı olduğu keyfiyyətlər sırasına aid deyil?*

A) konstruktivlik
B) ünsiyyətcillik
C) təşkilatçılıq
D) tanıtım qabiliyyəti
E) yaraşıqlı olmaq

*3. Ekskursiya fəaliyyəti zamanı bələdçinin yerinə yetirdiyi iki mühüm vəzifə hansdır?*

A) düşündürmə və dərketmə
B) biliklәndirmə və tərbiyələndirmə
C) təşkilatlanma və idarəetmə
D) birləşdirmə və əlaqələndirmə
E) təşkilatlanma və koordinasiya

*4. Eksursiya zamanı pedaqoji proseslərdən istifadədə hansı metodlardan istifadə olunur?*

A) sintez və analiz
B) sadə və mürəkkəb
C) təhlil və analiz
D) induktiv və deduktiv
E) üfuqi və şaquli

*5. Ekskursantların estetik yöndən tərbiyə olunması hansı tematikalı ekskursiyanın vəzifəsidir?*

A) incəsənət
B) istehsal
C) tarixi
D) təbiətşünasliq
E) tanışlıq



## §12. Ekskursiyalarda təqdimat

Təqdimat əyaniliyin reallaşma prinsipi olub bir və ya bir neçə ekskursiya obyekti ilə üzbəüz tanış olmaq imkanı deməkdir. Təqdimat eyni zamanda bələdçinin predmetin mahiyyətini açması prosesidir.

Ekskursiyalardakı təqdimat çoxmərhələli bir prosesdir. Bəzi hallarda təqdimat obyektin nümayişi kimi başa düşülsə də bir çox xüsusiyyətlərinə görə onları eyniləşdirmək çətindir. Belə ki, nümayiş dedikdə, müəyyən qrup insanların diqqətinə çatdırılmaq üçün predmet və ya hadisənin kütləvi göstərişi başa düşülür. Ekskursiya təqdimatı isə ixtisaslı mütəxəssisin (bələdçinin) rəhbərliyi ilə konkret bir obyektin ekskursantlara məqsədli şəkildə tanış edilməsi başa düşülür. Başqa sözlə, **təqdimat** dedikdə, nümayişdən fərqli olaraq hadisənin və ya obyektin xüsusiyyətini, qabiliyyətini və keyfiyyətini açıb göstərmək, nümayiş zamanı ilk baxışda görünməyən tərəflərini ekskursantlara izah etməkdir.

Təqdimat predmetlə tanış olan ekskursantlara onun mahiyyətinin izah olunması, onun daha yaxşı başa düşülməsi prosesidir. Bu, başqa sözlə, ilk baxışda nəzərə çarpmayan, amma dərin məna və əhəmiyyət daşıyan xüsusiyyətlərin üzə çıxarılması, onların əyani olaraq dərk olunması deməkdir. Əyaniliyin effektli təsiri isə təqdimatın təşkili səviyyəsindən, ekskursantların onu düzgün qavramasından asılıdır. Məhz təqdimat zamanı insan lazımı qaydada baxmağı, müşahidə etməyi, öyrənməyi mənimsəyir. Bu da öz növbəsində təqdimatın əsas vəzifəsidir. Ekskursiyasının təşkilatçıları bu mənada mövzunun seçilməsi zamanı təqdimatın məqsədinə uyğun qərar qəbul etməlidirlər.

Təqdimat ekskursantların predmeti seyretmə və baxışından ibarətdir. Əgər bu proeseslər zamanı heç kim onu nümayiş etdirmir və ya bunun üçün rəhbərlik etmirsə o zaman burada iştirak edən kütlə tərəfindən passiv qavrama baş verəcəkdir.

Baxış və təqdimatın fərqi isə bundan ibarətdir ki, baxış zamanı insan təkcə predmetin, məsələn, abidənin xarici görünüşünü izləyəcəkdir. Ancaq, təqdimat baş verdikdə, o həm də seyr etdiyi predmetin müxtəlif cəhətlərinə görə mahiyyətini başa düşməyə, onu təhlil etməyə nail olur.

Əgər nümayiş zamanı ekskursant ötəri informasiya alırsa, təqdimat zamanı ekskursanta verilən informasiya sayəsində o kamilləşir. Ekskursiyalar zamanı təqdimat **üç elementdən** ibarət olur:

- ekskursantın görməli yer üzrə müstəqil müşahidələri;
- ekskursantlar üçün nəzərdə tutulan bələdçinin hazırladığı materiallar üzrə təqdimat;
- bələdçinin rəhbərliyi ilə digər kənar obyektlərin təqdimatı (məsələn, hansısa bir ərazi, burada yaşayan xalqların adət-ənənəsi, qayda-qanunları, buradakı nəhəng binalar, yollar, körpülər, maraq doğuran infrastruktur obyektləri və s.).

Təqdimat **süjetli** və **süjetsiz** olaraq iki yerə bölünür. Süjetli təqdimatlar adətən tarixi və məişət mövzulu ekskursiyalarda təşkil olunur. Süjet xətti olan ekskursiyalarda hökmən bir aparıcı şəxs vardır. Onun üçün hər hansı bir hərəkət xarakterik olub ekskursiyanın canlanması, ekskursantların tarixi faktı daha yaxşı yadda saxlaması, hadisələrin əsl mahiyyətini mənimsəməsi mümkün olur.

Ekskursiyalar zamanı təqdimatın aşağıdakı vəzifələri vardır:

Ekskursantlar qarşısında olan obyektin onlara göstərilməsi;

Artıq özü olmayan və ancaq şəkil və fotoda olan obyektlərin təqdim olunması;

Hadisə olmuş həmin yerdə həmin hadisənin təsəvvürünü yaratmaqla onu təqdim etmək;

Tarixdə yaşamış görkəmli şəxsin həmin yerdəki tarixi işlərini canlandırıb təqdim etmək;



Obyektin təsvir olunduğu perioda uyğun vəziyyətini təsdiq edən əvvəlki halını göstərən təqdimat.

**Təqdimatın şərtləri**. Ekskursiya obyektinin səmərəli təqdimatını keçirmək üçün aşağıdakı şərtlər ödənilməlidir:

- təqdimat nöqtəsinin düzgün seçilməsi;
- təqdimatın ən sərfəli vaxtının seçilməsi;
- ekskursantların mövzudan uzaq səslənən bütün predmet və hadisələrdən uzaq tutulması;
- ekskursantlarin hərəkətinin onun göstərilmə metodikası kimi istifadə olunması;
- bələdçilərin bu sahə üzrə həm bilik, həm də vərdişlərinin olması;
- ekskursantların əvvəlcədən bu təqdimata hazırlanması.

Təqdimatın səmərəliliyi təkcə bələdçinin bilik və bacarıqlarından asılı deyildir. O həm də ekskursantların obyekti necə mənimsəməsinə edilən köməkdən asılıdır. Belə ki, bir çox hallarda ekskursantlara çox mürəkkəb bina və qurğu, tarixi arxitektura abidəsi, bağ, park, döyüş meydanı kimi yerlər təqdim olunur ki, onların da asan qavranılması üçün çertyoj, model, maneken formalarında əvvəlcədən izah edilməsi gərəkdir. Bu baxımdan bələdçinin vəzifəsi ekskursantlara ən yaxşı tanıtım nöqtəsinin tapılmasına kömək etməkdir. Obyektin ölçüləri, onun miqyası haqqında əyani təsəvvür yaratmaq üçün ağac, bina, insan, zəng kimi müqayisə predmetləri istifadə oluna bilər.

Ekskursiyalar zamanı təqdimatın aktivliyi ikitərəfli bir proses kimi nəzərə çarpır. Bunlar, bələdçinin təqdim olunan obyektin tanıdılmasına yönəlmiş aktivliyi və ekskursantın ona təqdim olunan obyekti öyrənmək üçün göstərdiyi aktivlikdir. Belə ki, bələdçi öz izahatları ilə ekskursantların izlədikləri obyektə daha fərqli bir mövqedən nəzər salmağa çalışır. Bu baxımdan bələçinin göstərişlərini bir neçə qrupa bölmək mümkündür:

- ekskursantların təqdim olunan oybektin müəyyən hissəsinə diqqət yetirməsini təmin edən oriyentasiya yönləndirməsi;

- ekskursantların diqqətinin müəyyən obyektə yönəlildilməsi;

- təqdim olunan obyektin digərləri ilə müqayisəsinin tövsiyəsi;

- təqdim olunan obyektin daha yaxşı başa düşülməsi üçün onun izahı;

- təqdim olunan obyektin ətrafda onunla eynilik təşkil edənlərdən ayrılması;

- öz müşahidələri əsasında nəticəyə gəlinməsi təklifinin yerilməsi.

İnsan öz maraq dairəsi etibarı ilə ətrafdakı predmet və obyektlərə qarşı həssasdır. Bu baxımdan, ekskursiyalardan kənarda da insanın maraq obyektlərinə münasibəti vardır. Bunlara bir neçə variantda baxaq:

- ilk olaraq, baxışın ötəri olduğu variantda bir yerə səyahət edən şəxsin, misal üçün iş və ya digər məqsədlərlə gəldiyi yerdə çox qısa müddətdə hər hansı bir görməli yerlə qısa müddətli tanışlığını qeyd etmək olar. Burada vaxt və təcrübə azlığı özünü göstərən əsas amillərdəndir.

- ikinci halda, baxış nisbətən daha genişdir. Belə ki, həftəsonu günündə şəhərə və ya şəhərətrafı bir yerə çıxmış şəxs (ekskursant deyil) şəhərdəki abidələr, onların yerləşməsi, xarici görünüşü haqqında təsəvvür əldə edə bilir. Bu halda ona baxdığı yerlər haqqında tarixi faktların verilməməsi, onunla birgə ixtisaslı insanların olmaması çətinlik yaradır.

- üçüncü halda isə qrup halında tanışılıq üçün çıxmış insanların arasında bir və ya bir neçə nəfərin öz üstün biliklərindən istifadə etməklə bir növ bələdçi funksiyasını yerinə yetirərək qismən də olsa onlara müəyyən məlumatları çatdırmasıdır. Burada bələdçi rolunu oynayan şəxsin yalnız sorğu xarakterli informasiya çatdırması mümkündür.



Ekskursiya zamanı isə baxış əvvəlcədən seçilmiş obyektlər əsasında aparılır. Burada əsas rolu təqdimatın metodiki qaydaları və təqdimat obyektinin təhlili tutur. Ekskursiyanı aparan mütəxəssis — bələdçi bu prosesdə bütün lazımi tələblər çərçivəsində ekskursantlarla ünsiyyət qurur. Təqdimat müəyyən plan əsasında qurulur və bələdçi bu zaman qeyri-nitq formalı üsullardan istifadə edir. Bundan əlavə, obyektin ekskursiya yolu ilə təqdimatından başqa müxtəlif növlü təhlillərdən də istifadə olunur ki, bu zaman da ekskursiyanın kulminasiya nöqtəsinə çatılması mümkün olur.

Təqdimat ekskursiya fəaliyyətinin mühüm bir hissəsi kimi özünəməxsus xüsusiyyətlərə malikdir. İlk olaraq, onlardan **təqdimatın aktivliyini** qeyd etmək mümkündür. Belə ki, təqdimat hər hansı bir təbii və ya tarixi əsərin seyrinə dalınması deyil, onun məqsədyönlü şəkildə müşahidəsi deməkdir. Bu da öz növbəsində həm bələdçi, həm də ekskursantlarda kifayət qədər fəallığın olmasını tələb edən bir cəhətdir.

İkinci xüsusiyyət kimi təqdimat zamanı məntiqi ardıcıllığı göstərmək olar. Belə ki, ekskursiyada hər bir növbəti obyekt mövzunun açılmasında bir pillə rolunu oynayır. Bu da öz növbəsində seçilmiş obyektin digərləri arasında yerini müəyyən edir. Təqdimatın məntiqiliyi və obyektlər arasındakı əlaqələr ardıcıllığı müəyyən edir.

Üçüncü mühüm cəhət kimi təqdimatın üstün mövqeyini qeyd etmək olar. Təqdimatsız ekskursiya yoxdur. Əksər ekskursiyalar zamanı təqdimat obyekti arqumentlər qarşısında sübut vasitəsi hesab olunur.

Növbəti xüsusiyyət kimi təqdimatın müəyyənedici rolunu göstərmək olar. Belə ki, əksəriyyət ekskursiyalar zamanı təqdimat ekskursiyanın hekayəsindən əvvəl baş verir. Bu da öz növbəsində təqdim olunan obyektin hekayə ilə ekskursantlar tərəfindən qavranılması üçün stimul yaradır. Bir çox hallarda isə təqdimat və hekayə eyni anda baş verir.

Təqdimatın süjeti onun növbəti bir xüsusiyyətidir. Belə ki, ekskursiya süjeti hər hansı bir sənət əsərinin süjet xəttindən daha mürəkkəbdir. Belə ki, onun tərkibində hər hansı bir dövlət xadimi, mədəniyyət və ya incəsənət ustası yaxud hər hansı bir tarixi hadisəyə aid hadisələr öz əksini tapır. Xüsusən, tematik ekskursiyalar zamanı dəqiq süjet xətti ilə müəyyən olunmuş ekskursiya təqdimatı baş verir.

Təqdimatların sonuncu xüsusiyyəti onun paradoksallığıdır. Bu ondan ibarətdir ki, təqdimat zamanı ekskursantın onun görə bilmədiyi fakt və hadisələr haqqında təsəvvür əldə etməsi üçün də informasiya verilir. Təkcə gördüyü obyekt haqqında deyil, onun adi gözlə görünməyən cəhətləri haqqında da məlumat alan ekskursant üçün bu, müəyyən mənada paradoksal təsəvvür yarada bilir.

***Yoxlama üçün suallar***

- Ekskursiyalardakı təqdimat necə bir prosesdir?
- Ekskursiyalar zamanı təqdimat neçə elementdən ibarət olur?
- Süjetli təqdimatlar nədir?
- Ekskursiyalar zamanı təqdimatın hansı vəzifələri vardır?
- Təqdimatın şərtləri hansıdır?
- Təqdimatın səmərəliliyinə nə təsir edir?
- Təqdimatın hansı xüsusiyyətləri vardır?

***Testlər***

*1. Əyaniliyin reallaşma prinsipi olub ekskursiya obyektləri ilə üzbəüz tanış olmaq imkanı deməkdir.*

A) təqdimat
B) nümayiş
C) baxış



D) dərketmə
E) animasiya

*2. Ekskursiyalar zamanı təqdimat neçə elementdən ibarət olur?*

A) 1
B) 2
C) 3
D) 4
E) 5

*3. Ekskursiyalar zamanı təqdimat hansı formalarda olur?*

A) sadə və mürəkkəb
B) süjetli və süjetsiz
C) açıq və qapalı
D) çoxpilləli və sadə
E) məntiqi və elmi

*4. Ekskursiya obyektinin səmərəli təqdimatını keçirmək üçün lazım olan şərtlərə aid deyil.*

A) təqdimat nöqtəsi
B) təqdimat vaxtı
C) təqdimatın mövzusu
D) turistin fikirləri
E) bələdçinin bilik səviyyəsi

*5. Təqdimatın xüsusiyyətləri sırasına daxil deyil.*

A) aktivlik
B) məntiqi ardıcıllıq
C) təqdimatin üstün mövqeyi
D) süjet
E) komfort

### *§13. Ekskursiya təqdimatında çıxış*

Ekskursiya əyaniliyin qavranılması üçün unikal bir vasitədir. Bu zaman onun keçirildiyi dildə ifadə olunan təqdimat nitqi predmetlərin və onun xarici görünüşünün təsvir olunması üçün əsas təsir vasitəsidir. **Təqdimat nitqi** ekskursiya işinin mühüm bir mərhələsi olub, ekskursiya zamanı təqdim olunan obyekt — abidə, tarixi hadisə və konkret tarixi şəxsiyyət haqqındakı obrazlı informasiyadır. Başqa sözlə, çıxış və ya ekskursiya hekayəsi təqdimat prosesinə olan mühüm bir əlavə kimi tamaşaçı marağını artıran və onu daha da dərinləşdirən bir amildir. Lakin qeyd edək ki, bu heç də ekskursiyanın bir mühazirə səviyyəsində geniş olması mənasına gəlmir.

Bələdçi çıxışı iki mühüm **vəzifəni** yerinə yetirir. Bunlar:

- müşahidə olunan obyektə dair rəyin verilməsi, onun izah olunması;
- həmin anda ekskursantın görə bilmədiyi məlumatların onun yaddaşına ötürülməsi, onların bərpa olunması.

Ekskursiya şərhindən başqa bələdçinin sözlü girişi, ekskursiya zamanı ekskursantların sual və replikaları, habelə bələdçinin həmin replikalara cavabları və yekun nitqi də təqdim olunan obyekt haqqında öz ifadəsini tapır. Beləliklə, təqdimat çıxışı bələdçi tərəfindən şifahi nitq qanunlarının tələblərinə uyğun olaraq icra olunaraq səslənən individual bir mətndir. Bu mətn ekskursiya zamanı tamaşaçı təəssüratını formalaşdırmaq baxımında mühüm əhəmiyyətlidir.

Ekskursiya zamanı təqdim olunacaq çıxış əvvəlcədən hazırlıq mərhələsi keçir. Bu baxımdan heç bir ekskursiyada bələdçinin çıxışına təqdimat zamanı rast gəlinə bilən improvizasiya kimi yanaşmaq düzgün deyildir. Belə ki, təqdimat zamanı dilin tərkibi, onun xüsusiyyətləri bu zaman üzə çıxa bilən keyfiyyət hesab olunmur.



Bu baxımdan təqdimat çıxışına aşağıdakı **tələblər** vardır. Bunlar çıxışın tematikliyi, onun konkretliyi, bir-biri ilə əlaqəliyi, məntiqiliyi, qısalığı, əminediciliyi, izah edilə bilinməsi, mühakimə baxımından bitkinliyi, təqdimatla bağlılığı və elmiliyi hesab olunur.

Təqdimat çıxışının əsas xüsusiyyətlərindən biri onun monoloq xarakteri daşımasıdır. Bununla yanaşı müasir təcrübədə bir çox bələdçilər təqdimat çıxışını bəzən gizli və ya açıq dialoq formasında da keçirməyə çalışırlar. Məhz bu cür dialoqlar vasitəsilə bələdçi və ekskursantlar arasında obyektin qavranılmasında fəallıq baş verir.

Təqdimat zamanı bələdçinin ekskursantların replikalarına cavab verməsi bu dialoqda mühüm yer tutur. Bu mənada replika, heç də həmişə düzgün olmayan, ancaq bələdçinin buna qarşı etinasız olmamasını tələb edən bir ekskursant fikridir. Bu baxımdan, bələdçinin ekskursant replikaları ilə işləməsinin bir metodikası vardır. Belə ki, eksursantların replikalarına verilən cavablar çox bacarıqlı bir şəkildə təqdimat çıxışına bağlanmalıdır. Təqdimatla əlaqəsi olmayan mənasız replikalara qarşı əsəbi olmadan bu fikrin əsassız olduğunu göstərmək bu baxımdan bələdçinin əsas vəzifələrindəndir.

Ekskursiyalar zamanı iki **formada** təqdimat çıxışı istifadə olunur. Bunlar:

- ekskursantlara hər hansı hadisənin necə baş verdiyi təsəvvürü yaradan rəvayət;
- ekskursantların təxəyyülündə hansısa maddi obyektin — abidənin, binanın, qurğunun yenidən canlanmasına imkan yaradan qurucu hekayə kimi təsnif olunur.

Təqdimat çıxışının aşağıdakı **altı mühüm xüsusiyyəti** vardır:

1. Təqdimat çıxışının ekskursiya qrupunun hərəkət sürətindən asılılığı. Burada ekskursantların yaş qrupu, onların

hansı nəqliyyat vasitəsi ilə hərəkət etmələri və ya piyada hərəkəti nəzərdə tutulur.

2. Təqdimat çıxışının təqdimatdan asılılığı. Belə ki, təqdimat çıxışı turmarşrut boyu obyektlərdən kənar halda, yəni mücərrədləşdirilmiş şəkildə ola bilməz. Bu mənada, şərhin məzmunu obyektlərin müşahidə məqsədinə tabe olmalıdır. Bu məzmun təbiət, muzey ekspozisiyası, tarixi abidə, görkəmli hadisə yeri kimi maraq kəsb edən yerlərlə müəyyən olunur.

3. Təqdimat çıxışında tamaşaçı təsdiqindən istifadə olunması. Təqdimat çıxışının xüsusiyyətlərindən biri odur ki, onun məzmununda şifahi sübut yoxdur. Belə ki, bu rolu tamaşaçı kütləsi özü yerinə yetirir. Bu zaman bələdçi təqdimatı elə qurur ki, obyekt sanki özü ekskursantların görmək istədiklərini onlara ifadə edir. Tamaşaçı kütləsinin reaksiyası ilə öz təsdiqini tapmayan təqdimat çıxışı təfərrüat naminə uzadıldıqda mühazirə xarakteri ala bilər.

4. Təqdimat çıxışının ünvanlılığı. Bu, təqdim olunan obyektə və onun müəyyən bir hissəsinə qarşı daha çox maraqlı olan ekskursantların diqqətinin onlara yönəldilməsidir. Məhz bu metodika ilə bələdçi ekskursantların çox qısa bir zamanda təqdimatın mahiyyətindən xəbərdar olmalarına nail olur.

5. Təqdimat çıxışının konkretliyi. Konkretlik təkcə mövzunun formalaşdırılmasına deyil, eyni zamanda gətirilən faktlara, onların izahına da aiddir. Bu baxımdan, təqdimat zamanı gətirilən konkret fakt, rəqəm, tarix, nümunə mövzunun tam açılmasına imkan yaradır.

6. Təqdimat çıxışının təsdiqedici xarakteri. Bu, xüsusən tarixi hadisələrin təqdimatı zamanı onların məhz həmin yerdə, həmin vəziyyətdə baş verdiyini təsdiq edən bir xarakterdir. Müəyyən bir hadisədən danışan bələdçi həmin hadisənin sanki indiki zamanda baş verdiyini konkret faktlar, şəxslər timsalında təsdiq etməyə çalışır, ekskursantlarda buna inanc formalaşdırır.



Təqdimatla olan qarşılıqlı münasibətinə görə çıxış təqdimata qədər, onun gedişində və təqdimatdan sonra səslənə bilər. Belə ki, tematik ekskursiyalar zamanı bir mövzu üzərində hər üç variantda təqdimat çıxışı danışılır. İlk olaraq obyekt haqqında qısa arayış verilir. Daha sonra tamaşaçı kütləsinin replika və fikirləri, izahlar, üçüncü halda isə yekunlaşdırıcı nitq səslənir.

Beləliklə, ekskursiyanın səslənən hissəsi olan çıxış və ya hekayə əslində ekskursantların tam olaraq aldığı informativ-analitik xarakterli məlumatdır. Hekayə formasında olan bu nitq ekskursiya bələdçisi çıxışının bir hissəsidir. Belə ki, istənilən ekskursiya onun təqdimatı ilə bələdçi çıxışının uyğunlaşması ilə formalaşır. Bu uyğunlaşma nisbi olub, həmişə müəyyən dəyişikliyə məruz qalır. Bu da təbiidir. Belə ki, bir ekskursiyanın mövzusu və zamanı digər ilə həmişə fərqlidir. Bu dəyişikliklər də öz növbəsində təqdimat nitqində özünü göstərə bilər. Bu mənada təqdimat çıxışının daha az təfərrüatlı və ya daha çox obrazlı olması mümkündür. Bütün bunların əsasında isə ekskursiyanın məzmunu, onun auditoriyası, ekskursiya mövzusuna dair məlumatların təmini, nümayiş olunan obyektlərin xarakteri, onların mühafizə olunub saxlanılma dərəcəsi, bələdçinin faktiki olaraq malik olduğu materialın həcmi, müşahidənin mürəkkəbliyi və ekskursantların obyekti başa düşməsi səviyyəsi dayanır.

***Yoxlama üçün suallar***

- Ekskursiyada təqdimat çıxışının rolu nədir?
- Bələdçinin çıxışı neçə vəzifəni yerinə yetirir?
- Təqdimat çıxışına hansı tələblər vardır?
- Təqdimat çıxışının tematikliyi nədir?
- Təqdimat çıxışının hansı formaları vardır?
- Təqdimat çıxışının hansı mühüm xüsusiyyətləri vardır?

***Testlər***

*1. Ekskursiya zamanı təqdim olunan obyekt haqqındakı obrazlı informasiyadır.*

A) bələdçi mətni
B) baxış
C) nümayiş
D) təqdimat
E) təqdimat çıxışı

*2. Təqdimat çıxışının xüsusiyyətləri neçədir?*

A) 6
B) 5
C) 4
D) 3
E) 2

*3. Ekskursiyalar zamanı təqdimat çıxışı hansı formalarda istifadə olunur?*

A) ilkin və təkmilləşdirilmiş
B) rəvayət və qurucu hekayə
C) sadə və mürəkkəb
D) açıq və qapalı
E) qrafik və şifahi

*4. Təqdimatla olan qarşılıqlı münasibətinə görə təqdimat çıxışı necədir?*

A) 6
B) 5
C) 4
D) 3
E) 1



*5. Təqdimat çıxışının məzmununda şifahi sübut olmaması onun məhz bu xüsusiyyətini səciyyələndirir?*

A) ünvanlılıq
B) təqdimatdan asılılıq
C) tamaşaçı təsdiqi
D) konkretlik
E) qrupun hərəkət sürətindən asılılıq

## *§14. Bələdçi və onun çıxışına olan tələblər*

Ekskursiyaların keçirilməsi zamanı insan amilinə olan tələb ən yüksək səviyyədə özünü göstərir. Buna görə də müxtəlif xalqların nümayəndələri olan, mədəniyyət, dil, yaş, cins, dünyaya baxış və sair xüsusiyyətlərinə görə müxtəlif xarakterlər ifadə edən ekskursantlarla işləyən bələdçinin buradakı funksional rolu və şəxsi keyfiyyətləri, öz işinə bağlılığı və vətəninə sevgisi əsas amil kimi ortaya çıxır. Bu baxımdan, turizm və ekskursiya fəaliyyətində açar mövqeyə malik olan **bələdçiyə** qarşı qoyulan tələblər çox yüksək olub, bir çox keyfiyyətləri özündə birləşdirməsini şərtləndirir.

Bələdçi dərin nəzəri biliklərlə yanaşı, təcrübi vərdişlərə və bacarıqlara, şəxsiyyət kimi isə bir sıra üstün keyfiyyətlərə də malik olmalıdır. O, dərin intellektual səviyyəli, işinə məsuliyyətli, yüksək insani ləyaqətə, fəal həyat tərzinə alışmış bir insan olmalıdr. Hər halda müasir turistlərin nəzərində onlara rəhbərlik edəcək bələdçinin imici başqa cür ola da bilməz. Bələdçinin nə qədər təəssürat gücünə malik olması isə onun yuxarıda göstərilən keyfiyyətləri ilə şərtlənir. Deməli, ekskursiya yaradıcı bir ünsiyyət vasitəsidirsə, bələdçi də bu ünsiyyəti yaradan yaradıcı bir şəxsdir. Bu isə bələdçi kimi ekskursiya mütəxəssisinin məntiq, psixologiya, pedaqogika, hətta texnika və təbiət elmlərindən də baş çıxarması deməkdir. Yada salmaq lazımdır ki, ekskursantlar olan turistlər kifayət qədər mədəni və savadlı olub, yüksək maddi təminatlı və dinamik həyat tərzi keçirən insanlardırlar. Ona görə də, belə tələbkar səviyyəli insanlarla işləyəcək olan mütəxəssis də eyni dərəcədə yetişkin və özünə qarşı tələbkar olmalıdır.

Ekskursiyanın uğurlu keçməsi, onun mövzusunun qəbul edilməsi onun həm təsvir, həm də səsli ifadə ilə necə çatdırılmasından asılıdır. Səsli ifadə kimi ekskursiyanı çatdıran bələdçi müxtəlif məqamlarda aşağıdakı **vəzifələri** daşıyır:



- bələdçi informator vəzifəsində turistlərə hər hansı bir hadisə və ya predmet haqqında danışaraq ona öz fikrini, rəyini bildirmədən, burada baş verən hadisələrin səbəb-nəticə əlaqələrini izah etmədən sadəcə informasiya verir;
- bələdçi şərhçi kimi müşahidə edilən obyekt və ya hadisə, onu törədən səbəblər haqqında izah verir, bunların mahiyyətini çatdırmaq üçün geniş şərh aparır;
- bələdçi həm də həmsöhbətdir. Belə ki, təqdimat zamanı yaranan situasiyaya uyğun olaraq ekskursantların verdiyi reaksiyalara müvafiq sürətdə onlarla fikir mübadiləsinə qoşular, sual və replikalarına cavab verə bilər;
- bələdçi məsləhətçi kimi ekskursantlara təqdim olunan obyekti necə izləməli, daha yaxşı təəssürat əldə olunması üçün hansı ümumiləşdirmələr aparmalı olduğunu göstərir;
- ekskursiya zamanı bələdçi həm də emosional liderdir. Bu zaman o, hadisə və obyektlə tanış olan ekskursantlara onlarda dərin təəssürat yaradan emosiyaların gerçəkliyinə, onların inandırıcılığına şərait yaradır.

Ekskursiyanın gedişi zamanı bələdçinin nitqi aşağıdakı formada tətbiq oluna bilər:

- hər hansı bir mövzu üzərində bir neçə kəlmə və nitqdən ibarət qısa danışıq;
- müəyyən mövzunun, onun analitik tərkibini əhatə edən və ictimai auditoriya üçün nəzərdə tutulan məruzə;
- hər hansı bir elm sahəsi, bədii arxiv və digər mənbələr üzrə sualları cavablandıran yığcam referat;
- bu mövzunu təfərrüatı ilə qarşı tərəfə çatdıran mühazirə;

Bunlardan başqa bələdçinin istifadə etdiyi şifahi nitqin replika, sözönü və sözardı kimi kiçik formaları da vardır. Belə nitq forması bələdçinin təqdimatı zamanı bəzi hadisələrə arayış verməsi, kimlərə isə ritorik suallar verməsi və ya birbaşa qısa cavablarla söhbəti yekunlaşdırmasından ibarətdir.

Təcrübədə ekskursiya rəhbəri olan bələdçinin bir sıra vacib məqamlarda öz üzərinə düşən vəzifələri yerinə yetirməsi tələb olunur. Belə ki, ekskursiya rəhbərindən asılı olmayaraq bir çox hallarda ekskursiya qrupunda müəyyən gərginlik doğuran hadisələr baş verə bilər. Ekskursantları aparacaq nəqliyyat vasitəsinin gecikməsi, turistləri qıcıqlandıra biləcək hallar, hansısa səbəbdən marşrutun dəyişməsi və ya havanın gözlənilmədən pozulması onların əhvali-ruhiyyəsinə mənfi təsir edə, kiçik narazılıqlar yarada bilər. Ola biləcək belə hadisələr zamanı gərgin mühitin yumşaldılması üçün bələdçinin ekskursantlarla qurduğu səmimi münasibət, onun peşəkarlıq dərəcəsi, xoş psixoloji mühitin yaranmasına kömək etmiş olur.

Ekskursiya rəhbərinin **peşəkarlığı** mücərrəd bir anlayış deyildir. Peşəkarlıq konkret mövzu üzərində qurulmuş və konkret qrup üçün hazırlanmış ekskursiyaların keçirilməsində özünü göstərir. Yaranmış bəzi situasiyalarda məhz ekskursiya rəhbərinin peşəkar ustalığı tez və düzgün çıxış yolu tapmağa kömək edir.

Ekskursiya zamanı bələdçi bütün turistlərə qarşı daim diqqətli olmalıdır. Onun davranış tərzi də peşəkarlıq anlayışına təsir edir. Belə ki, bələdçi ekskursantlarla söhbət edərkən özünü necə aparması, xarici görünüşü və geyimi ilə diqqəti cəlb edir. Bələdçinin lazım gəlmədiyi halda ucadan danışması, ifrat dərəcədə jestlərdən istifadə etməsi, həmsöhbətinin sözünü kəsməsi, sərt ifadələr işlətməsi, kiməsə kobud şəkildə irad tutması, lazımsız şəkildə ifrat kosmetikadan istifadəsi yolverilməzdir. Bütövlükdə, bələdçinin davranışı onun ümumi mədəniyyətinin bir təzahürüdür.

Bələdçi ekskursiya zamanı qarşıya çıxan problemləri səbr və təmkinlə qarşılamalıdır. Belə ki, ekskursiyanın əvvəlində bələdçi onu bürüyən həyəcanı dəf etməyi bacarmalıdır. Həyəcanı doğuran səbəblər isə müxtəlif ola bilər. Bu, bələdçinin öz gücünə inamsızlığı, mövzunu zəif bilməsi,



ekskursiyaya hazır olmaması və digər amillərdən yarana bilər. Çox zaman da məsuliyyət hissi bələdçidə həyəcan doğurur. Bu isə əslində müsbət haldır və ekskursiya rəhbərinin hazırlığından, peşəkarlığından xəbər verir. Bələdçi ekskursiyanın mövzusu üzərində həyəcan keçirdiyi üçün qısamüddətli problemlə qarşılaşa bilər.

Digər tərəfdən, bələdçidən asılı olmayaraq mövcud olan bəzi maneələr, məsələn, ekskursiya avtobusundakı bəzi problemlər, sürücünün marşrutu yaxşı bilməməsi, səs-küy bələdçinin işinə təsir edə bilər. Ümumiyyətlə, bu və digər maneələr ekskursiya rəhbərinə ekskursiyanı yüksək səviyyədə keçirməyə mane olur, ekskursantların diqqətini yayındırır.

Davranış normaları hər bir insanda, xüsusilə, bələdçidə daha çox dəyərləndirilir. Bələdçinin yüksək mənəvi dəyərlərə malik olması, ekskursiya zamanı verilə bilən mövzuya aid olmayan suallara kəskin reaksiya verməməsi, özünün üstünlüyünü nümayiş etdirməməsi, suallara təmkinlə, səbirlə cavab verməsi tələb olunur.

Bələdçinin temperamenti onun xarici aləmin təsirlərinə həssaslığını ifadə edir. Yüksək temperamentli bələdçi emosional təsir gücünə malik ekskursiya keçirə bilər. Bələdçi öz təqdimatında bunları həyəcanla, obrazlı ifadə edə və turistlərin diqqətini daha çox cəlb edə bilər. Məsələn, Naxçıvan şəhərindəki Xatirə muzeyində aparılan ekskursiya zamanı, xüsusən, əcnəbi turistlərə 1990-cı ildə Sədərəyin erməni təcavüzündən müdafiəsi zamanı şəhid olmuş Azərbaycan vətəndaşlarına aid eksponatlar təqdim olunarkən bələdçinin ortaya qoyduğu hiss və həyəcan onlara güclü təsir edə bilər.

Və nəhayət, ekskursiyalar zamanı bələdçinin xarici görünüşü mühüm rol oynayır. Təmiz, səliqəli və zövqlə geyinmiş bələdçi, bir şəxsiyyət kimi turistləri cəlb edir, onun nüfuzunu artırır və ona hörmətlə yanaşılmasını təmin edir.

Bələdçinin keyfiyyətlərindən biri də onun çıxışına olan tələblərdir. **Bələdçinin çıxışı**, birbaşa olaraq təqdim

edilən obyektlə bağlı olmalıdır. Bələdçi öz peşəkarlığını təkmilləşdirmək və nitq mədəniyyətini artırmaq üçün şifahi nitqin xüsusiyyətlərini bilməlidir. Bu da öz növbəsində nitq mədəniyyətinə yiyələnmək, natiqlik sənətinin əsaslarına yiyələnməklə mümkündür. Natiq kimi bələdçi, ilk olaraq daxili nitqdən, yəni hər hansı məsələnin qoyuluşunda onun həlli üçün özü ilə ünsiyyətdən istifadə etməlidir. **Daxili nitq** insanın əvvəllər aldığı biliklərə əsaslanır və onun köməyilə düşünmə prosesi həyata keçirilir. Yeni mövzuya hazırlaşma prosesində daxili nitqdən istifadə edilir.

Xarici isə nitq iki formada — **dialoq və monoloq** şəklində özünü büruzə verir. İki, yaxud bir neçə adamın söhbəti, fikir mübadiləsi kimi dialoq ən sadə ünsiyyət formasıdır. Ekskursiya zamanı belə dialoqlar da baş verə bilər. Monoloq isə materialın bir nəfər tərəfindən, yəni ekskursiyalar zamanı əsasən bələdçi tərəfindən ifadə olunmasıdır. Monoloq istənilən ekskursiyada aparıcı yer tutur. Odur ki, bələdçi ekskursiyaya hazırlaşarkən və onu həyata keçirərkən hər iki formadan istifadə edir.

Canlı **şifahi nitq** təkrarolunmaz resursdur. Onun inandırıcılığı ekskursiya zamanı daha çox görünür. Bələdçi dinləyici auditoriyası ilə işləyərkən onun şifahi nitqi daha çox təsir gücünə malikdir. Odur ki, canlı ekskursiya aparan bələdçinin şifahi nitqinin əsas xüsusiyyətləri, onun səlisliyi və gözəlliyi turistlər tərəfindən yüksək zövqlə qiymətləndirilir. Şifahi nitq zamanı bələdçi xüsusi olaraq öz intonasiyasını düzgün ifadə etməlidir. Şifahi nitq zamanı məntiqi vurğudan yerində istifadə olunmalıdır. Məntiqi vurğu ekskursiya zamanı nitqin gözəlliyini artırır.

Ekskursiya zamanı məntiqi və psixoloji fasilələr, mimika və jestlər ekskursiyanın quruluşuna dəqiqlik verir, qavramanı asanlaşdırır və nitqi daha aydın edir. Odur ki, fasilələrin yerində olması, mimika və jestlərin süni yox, təbii olmasına çalışılmalıdır.



Bələdçi ekskursiya apararkən, onun **duruş tərzi** mühüm bir elementdir. Ekskursiya zamanı turistlər qarşısında oturmaqdansa ayaq üstə durmaq tövsiyə olunur. Belə ki, ekskursantlar qarşısında ayaq üstə cıxış edən bələdçi, dinləyicilərə öz hörmətini nümayiş etdirir. Bu, həm də yaxşı çıxış etmək üçün ona lazım olan şərait yaradır. Çünki ayaqüstdə çıxış edən bələdçi jestlərdən, mimikalardan daha asan istifadə edə bilər.

Beləliklə, bələdçi ekskursiyalar zamanı öz natiqlik məharətindən düzgün və dolğun istifadə etməli, ekskursiyaların inandırıcı və tərbiyəedici vasitə olmasını düzgün qiymətləndirməlidir.

***Yoxlama üçün suallar***

- Ekskursiyaların keçirilməsi zamanı insan amili nə səviyyədə özünü göstərir?
- Turizm və ekskursiya fəaliyyətində bələdçiyə qarşı qoyulan tələblər nə üçün yüksəkdir?
- Bələdçinin hansı nəzəri bilikləri olmalıdır?
- Bələdçinin şəxsi keyfiyyətləri necə olmalıdır?
- Bələdçi hansı vəzifələri daşıyır?
- Ekskursiya rəhbəri kimi bələdçinin peşəkarlığı necə ölçülür?
- Bələdçinin çıxışına olan tələblər nədir?

***Testlər***

*1. Bələdçi aşağıdakı vəzifələrdən hansını yerinə yetirmir?*

A) informator
B) şərhçi
C) həmsöhbət
D) emosional lider
E) təchizatçı

*2. Bələdçi çıxışının tətbiq olunma formalarından biri deyil.*

A) referat
B) məruzə
C) çıxış
D) mühazirə
E) qısa danışıq

*3. Bələdçinin istifadə etdiyi məhz bu nitq insanın əvvəllər aldığı biliklərə əsaslanır.*

A) xarici nitq
B) şifahi nitq
C) kompleks nitq
D) daxili nitq
E) yaradıcı nitq

*4. Xarici nitqin neçə forması mövcuddur?*

A) 2
B) 3
C) 5
D) 6
E) 7

*5. Hadisə və ya predmet haqqında bələdçinin öz rəyini bildirmədən danışması onun hansı vəzifəsinə aiddir?*

A) şərhçi
B) informator
C) məsləhətçi
D) həmsöhbət
E) emosional lider



## §15. Turqrup üzvlərinin hüquq və vəzifəri. Ekskursiyalarda təhlükəsizlik

Müəyyən sayda və müxtəlif xarakterli insanlardan ibarət olan turist qrupu mürəkkəb idarəetmə obyektidir. Tursəfərlər boyunca yarana bilən hər cür adi və gözlənilməz hallara qarşı müvafiq reaksiyanın verilməsi baxımından belə bir qrupun üzvləri olan bələdçi, sürücü və ekskursantların hər birinin öz hüquq və vəzifələrini yaxşı bilməsi tələb olunur.

İlk olaraq, turqrup rəhbəri olan **bələdçinin** hansı hüquq və vəzifələri oluğuna nəzər salaq. Belə ki, ekskursiya rəhbəri:

- turqrup üzvlərini onların fiziki imkanları, bacarıq və vərdişləri, texniki imkanlardan istifadə bacarıqları və habelə onların qrup üzvləri ilə psixoloji uyğunluğu əsasında tərtib etməyə;
- lazım gəldikdə qrup üzvlərini tibbi baxışdan keçirməyə;
- marşrutu, onun yürüş üçün ehtimal olunan mürəkkəb yerlərini və aşılma yollarını öyrənməyə, müvafiq kartoqrafik materialları hazırlamağa;
- lazım gəldikdə qrupun məşqlərini keçirməyə borcludur.

Ekskursiya zamanı ən mühüm tələblərdən biri ekskursantların təhlükəsizliyinin təmin edilməsidir. Ümumiyyətlə, turizmdə **təhlükəsizlik** geniş anlayışdır. Təhlükəsizilk turistləri qəbul edən ölkənin milli maraqlarının və turistlərin şəxsi təhlükəsizliyinin təmin olunması ilə sıx bağlı olub, eyni zamanda ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunmasını da özündə ehtiva etdirir. Tur səfərlər zamanı təhlükəsizliyi təmin etmək, bu sahə ilə məşğul olan bütün firmaların və məsul şəxslərin, habelə yerli icra hakimiyyətləri, milli və beynəlxalq təşkilatların diqqətində olmalıdır.

Səyahətlərin təhlükəsizliyi turizmin tənzimlənməsi üzrə beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Turizm

Xartiyasının, "Turizmin Əxlaq Kodeksinin", Turizm üzrə Haaqa parlamentlərarası konfransının bəyannaməsində bunlar dəqiq ifadə olunmuşdur. Bundan əlavə, turizmdə təhlükəsizlik məsələləri Turizm haqqında Azərbaycan Respublikası Qanununda da öz əksini tapmışdır. Təhlükəsizliyin təminatı ölkə ərazisində səyahətçilərin, turistlərin və ekskursantların gəlişi, mehmanxanada yerləşdirilməsi, onların sağlamlığı, həyatı və mülkiyyətinin toxunulmazlığına təminat verən milli qanunvericilik çərçivəsində bütöv bir tədbirləri əhatə edir.

Ekskursiya zamanı turistlərin zədələnməsi, ətraf mühitin onlara təsiri, səs-küy, toz, yanğın təhlükəsi, kimyəvi, radioaktiv, bioloji təsirlər, təbii hadisələr, kriminoqen vəziyyət, yol hərəkəti qaydalarının pozulması onların təhlükəsizliyinin təmin olunmasını tələb edən şərtlərdəndir. Təhlükəsizliyin təmin olunması üçün səyahətlərin və turistlərin qaldığı yerlərdə təhlükəsizlik normalarının işlənib həyata keçirilməsi, bu məsələnin vacibliyində ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi, ekstremal vəziyyətlərlə bağlı problemlərin həlli məqsədilə ikitərəfli, regional və ümumdünya səviyyəsində beynəlxalq əməkdaşlığın yaradılması bu baxımdan vacib məsələlərdəndir.

Turistlərin təhlükəsizliyinin təmin olunması üçün ilk olaraq turizm firmaları zəruri tədbirlər görməlidirlər. Öz müştərilərinin təhlükəsizliyi barədə düşünən turizm firmaları, xüsusən, ekskursiyalar təşkil etdikdə hərbi əməliyyatlar, terror, kəskin yoluxucu xəstəliklərə tutulma təhlükəsi olan yerlərdə bunu hökmən nəzərə almalıdırlar.

Ekskursiya fəaliyyəti əksər hallarda turistlərin müxtəlif nəqliyyat vasitələrindən istifadəsi ilə müşayiət olunur. Firmalar nəqliyyat vasitələrinin seçimi zamanı təhlükəsizliyin təmin olunmasını ön planda tutmalı, bunun üçün texniki cəhətdən saz vəziyyətdə olan nəqliyyat vasitələri, ekskursantlarla işləyə bilən sürücü seçməli, ekskursant qrupunun hərəkəti zamanı zəruri olarsa yol polisinin müşayiətini təmin



etməlidir. Belə ki, daşınma səyahətin ən təhlükəli mərhələlərindən hesab olunur. Hər nə qədər önləyici və tənzimləmə tədbirləri alınsa da nəqliyyat vasitələri yüksək təhlükə mənbəyi hesab olunur, arzuedilməz halların çoxu da məhz nəqliyyat vasitələri ilə daşınma mərhələsində baş verir. Bu baxımdan baş verə bilən gözlənilməz riskli halların vurduğu zərərlərin sığorta vasitəsilə ödənilməsi üçün ekskursantların hər birinin sığortalı olması tələb olunur.

Ancaq bütün bunlar baş verməsin deyə, ekskursiyalar zamanı təhlükəsizlik qaydaları çərçivəsində ekskursantlar avtobusun salonunda hərəkət başlanmazdan əvvəl öz yerlərini tutmalı, hərəkət bitdikdən sonra avtobusun tam dayanmasına qədər ekskursiya iştirakçıları öz yerlərindən qalxmamalı, sürücüyə mane olmamalıdırlar. Ekskursiya zamanı intizamsızlıq edən ekskursantlara qarşı əvvəlcə xəbərdarlıq olunub, daha sonra isə ekskursiyanın davam etdirilməsi və digər ekskursantların rahatlığının pozulmaması üçün müvafiq tədbir görülməlidir.

Ekskursantlar yolda, xüsusən turist avtobusu ilə səyahət edərkən nəqliyyat vasitəsinin sürücüsü ilə sıx münasibətdə olurlar. Bələdçi və sürücünün birgə əməkdaşlığı ekskursiyaların uğurlu keçməsində az rol oynamır. Bu baxımdan, sürücü avtobusun ekskursiya rəhbərinin, yəni bələdçinin sərəncamında olmasını bilməlidir. Başqa sözlə, ekskursiya rəhbəri marşrut boyunca avtobusun işini təsdiq olunmuş hərəkət qrafikinə uyğun olaraq təmin edir.

Sürücü bələdçinin Yol hərəkəti qaydalarına zidd olmayan bütün göstərişlərini yerinə yetirməlidir. Bu baxımdan, həm bələdçi, həm də sürücünün hərəkətin təhlükəsizliyini təhlükə altına alan, planlaşdırılmış marşrutu dəyişmək və ya uzatmaq, turistləri marşrutun pasportunda nəzərdə tutulan tədbirlərdə iştirak etmək fikrindən daşındırmaq, turistlərlə marşrutun pasportunda nəzərdə tutulmayan əlavə səfərləri təşkil etmək və həyata keçirmək, avtobusda turist

qrupuna daxil olmayan şəxslərin getməsinə icazə vermək səlahiyyətləri yoxdur. Bunlardan əlavə, bələdçi tur avtobusundan istifadə etmək üçün ümumi qəbul edilmiş qaydaların ekskursiya iştirakçıları tərəfindən pozulmamasına, salonda siqaret çəkilməməsinə, onların hərəkət zamanı avtobusun içində bir yerdən başqa yerə gəzməməsinə, pəncərələrdən boylanmamasına, pəncərələrdən əşyaların atılmamasına və bunun kimi digər qayda pozuntularına da qarşı nəzarət etməlidir. Ekskursiyaya başlamamışdan əvvəl qrupun tərkibində sərxoş vəziyyətdə olan şəxslər aşkar olunduqda bələdçi onları avtobusdan çıxarmaq hüququna malikdir.

Marşrut üzrə hərəkət edən ekskursiya qrupunda bələdçinin **vəzifələri** aşağıdakı kimidir:

- bələdçi turistlərin sorğu və istəklərinə vaxtında cavab verməli və bu cür sorğu və istəklər ekskursiya proqramının çərçivəsindən kənara çıxmadığı və yol marşrutunda nəzərdə tutulduğu halda onları təmin etməlidir;
- bələdçi tur avtobusunu idarə edən sürücünün marşrutla kifayət qədər tanış olmadığı halda ona kömək etməli, saxlama, dayanacaq və döngə yerlərini qabaqcadan ona bildirməlidir;
- bələdçi və sürücü arasında olan münasibətlər qarşılıqlı şəkildə nəzakətli olmalıdır.

Ekskursiya zamanı tur avtobusunu idarə edən **sürücü** isə aşağıdakılara əməl etməlidir:

- obyektlərin göstərilməsi və onlar haqqında məlumatların verilməsi üçün ən rahat olan hərəkət rejiminin seçilməsi;
- müəyyən sahələrdə hərəkət sürətinin azaldılması və ya avtobusun saxlanması;
- turistlərin rahatlığı üçün lazım olduqda istilik və ventilyasiya sistemlərinin işə salınması;
- avtobusa yanacağın nə vaxt doldurulması, hər hansı texniki nasazlıq baş verərsə bunun səbəblərinin və dayanmanın təxmini müddətinin bələdçiyə və ya ekskursiya üzvlərinə bildirilməsi;
- salonun təmiz saxlanılması;
- ekskursiya üçün bələdçinin istifadə etdiyi səs sistemlərinin saz vəziyyətdə olmasını təmin etməli, təcili tibbi yardım qutusunun tam şəkildə olması qayğısına qalmalıdır.

Sürücü tərəfindən ekskursiyanın aparılmasına müdaxilə edilməsi, ekskursiya rəhbərinin verdiyi məlumatlara əlavə etmək səyləri, hərəkət zamanı turistlərlə söhbət aparılması qəti şəkildə yolverilməzdir.

Ekskursiya başlanmamışdan əvvəl bələdçi siyahı üzrə iştirak edəcək turistlərin sayı ilə tanış olmalı, onların avtobusda öz yerlərini tutması üçün sonuncu nəfərədək gəlib çıxmasını gözləməl期ri və gecikməmələri üçün xəbərdarlıq etməlidir.

Ekskursiya zamanı ətraf mühitin təsiri ekskursantların əhvali-ruhiyyəsinə və sağlamlığına ciddi təsir edən amillərdəndir. Havanın yüksək və ya aşağı temperaturu, hava rütubətliliyi, yağış, atmosfer təzyiqi turistlərə təsir etdiyindən turun proqramı hazırlanarkən bələdçi bunları diqqətdə saxlamalıdır.

Ekskursiyada iştirak edən turstlər müxtəlif dərəcədə fiziki imkanlara malik ola bilər. Odur ki, ekskursiyalar zamanı yüksəkliyə qalxmaq, çətin yerlərdən keçmək və uzun müddət avtobusda yol getmək fiziki baxımdan gərginliyə tab gətirə bilən insanlar üçün nəzərdə tutulmalıdır.

Turistlərin səyahəti zamanı bioloji amillər də onların həyat və sağlamlığına təsir edə bilər. Ekskursiya zamanı infeksion xəstəliklər, qida zəhərlənmələri turistlər üçün təhlükəlidir. Buna görə də, ekskursantların çiy qida, qaynanmamış su, yuyulmamış meyvə istifadə etmələri tövsiyə olunmur. Ayrıca olaraq, yüksək dağlıq zonalara, məsələn, Batabat yaylağına və yaxud Əlincəqalaya ekskursiya zamanı turistlərin ultrabənövşəyi şüalanma təhlükəsinə qarşı məlumatlandırılması,

fərdi qorunma vasitələrinin — gün eynəkləri, qoruyucu kremlər və paltarların istifadəsini tövsiyə etmək lazımdır. Belə tövsiyələr həmçinin dağ, xizək və su marşrutlarına da şamil edilir.

Yanğın insan həyatının hər yerində, o cümlədən ekskursiyalar zamanı da özünü göstərən ciddi təhlükələrdəndir. Turistləri belə riskli amillərin təsirindən mühafizə etmək məqsədilə zəruri olan yerlərdə onların yanğın təhlükəsinə qarşı xəbərdar olunmaları, obyektlərin və ərazilərin yanğın təhlükəsi təlimatı ilə təmin edilməsinə sössüz əməl olunması tələb olunur. Ekskursiya avtobusunda yanğınsöndürən qurğunun olması bu baxımdan əsas şərtlərdən biridir.

Hər bir turistin şəxsi təhlükəsizliyi ilə bərabər əmlakının da qorunması həm turistin özünün, həm də bələdçi və sürücünün əsas vəzifələrindəndir. Belə ki, turistlər pullarını və qiymətli fərdi əşyalarının (foto və videokamera, bahalı telefon, bəzək və geyim əşyaları və s.) itməməsi üçün xəbərdar olunmalı, onlar bunun üçün diqqətli olmalıdırlar. Lakin turistlərin əşyalarının yox olması ilə bağlı hər hansı bir xoşagəlməz hadisə baş verərsə, bu zaman dərhal turist qəbul edən şirkətin rəhbərliyinə və lazım gəldikdə polisə məlumat verilməlidir. Bütün bunlar baş verməsin deyə, turistlərin mehmanxana nömrəsində deyil, seyfdə pul saxlaması, fotoaparat və videokameraları özləri ilə gəzdirməsi, ekskursiya zamanı özləri ilə lazım olandan artıq pul götürməmələri və s. barədə tövsiyələr verilməlidir.

Bunlardan başqa, ekskursiyalar zamanı, xüsusən, muzeylərdə və tarixi məkanlarda turistlərin təması halında tez korlanan, orjinallığı itirilən eksponatlara toxunmaması, onların qorunub saxlanılması üçün də əvvəlcədən xəbərdarlıq edilməsi tələb olunur. Ümumilikdə isə ekskursiyalar zamanı bələdçi və digər qrup üzvlərinin mövcud qayda-qanunlara əməl olunmasını həmişə diqqətdə saxlamaq lazımdır.



***Yoxlama üçün suallar***

- Turqrup rəhbəri olan bələdçinin hansı hüquq və vəzifələri vardır?
- Ekskursantların təhlükəsizliyinin təmin edilməsi nə üçün zəruridir?
- Səyahətlərin təhlükəsizliyi turizmin tənzimlənməsi üzrə hansı beynəlxalq sənədlərdə öz əksini tapıb?
- Ekskursiya zamanı turistləri hansı təhlükələr gözləyir?
- Ekskursiya zamanı təhlükəsizliyin təmin olunması üçün nə kimi tədbirlər görülməlidir?
- Ekskursiya zamanı təhlükəsizliyin təmin olunması üçün bələdçinin vəzifələri nədir?
- Ekskursiya zamanı tur avtobusunu idarə edən sürücünün vəzifələri nədir?
- Ekskursiya zamanı turistlərin şəxsi təhlükəsizliyi necə təmin olunur?

***Testlər***

*1. Sürücü tərəfindən qəti yol verilməzdir.*

A) hərəkət zamanı turistlərlə söhbət
B) hərəkət rejiminin seçilməsi
C) hərəkət sürətinin tənzimlənməsi
D) turitlərin nəqliyyatda rahatlığının təmini
E) salonun təmiz saxlanılması

*2. Hansı özündə turizmdə təhlükəsizlik məsələlərini də ehtiva edən milli sənəddir?*

A) Turizmin Osaka Bəyannaməsi
B) Azərbaycan Respublikasının Turizm haqqında Qanunu

C) Haaqa bəyannaməsi
D) Turizmin Əxlaq Kodeksi
E) Turizm Xartiyası

*3. Səyahət zamanı turistlərin təhlükəsizliyinin təmini üçün zəruridir.*
A) vergi
B) viza
C) sığorta
D) pasport
E) turizm yollayışı

*4. Bələdçinin vəzifələrinə aid deyil.*
A) turistlərin suallarını cavablandırmaq
B) lazım olduqda sürücüyə yardım etmək
C) sürücüylə nəzakətli olmaq
D) turistlərin sığortalanması
E) turistlərə qarşı hörmətlə yanaşmaq

*5. Təhlükəsizlik üçün turistlərin öz pulunu saxlaması tövsiyə olunur.*
A) nömrədə
B) bankda
C) turagentlikdə
D) gömrük məntəqəsində
E) seyfdə



# III FƏSİL. MÜXTƏLİF TURLAR ÜZRƏ MARŞRUT NÜMUNƏLƏRİ

## *1. Ekoturizm marşrutları*

Dünyada mövcud olan təbii relyef şəraiti və bir sıra müalicəvi əhəmiyyətli yerlər ilk növbədə ekoturizmin müxtəlif formalarının təşkili üçün əlverişli imkanlar yaradır.

Ekoturizm öz motivlərinə görə təbiətlə canlı ünsiyyətdə olub, təbii gözəlliklərlə tanışlıq, habelə, sağlamlıq, maariflənmə kimi məqsədlər daşıyır. Ekoturizm üzrə turistlərin səyahətlərinin təşkil oluna biləcəyi bütün istiqamətlərdə turizm marşrutlarının işlənib hazırlanması, onların bütün tələblərə uyğun şəkildə əsaslandırılması qarşıda duran vacib məsələlərdəndir. Yaradılacaq marşrutların davamlılığı, onların texniki və iqtisadi cəhətdən əsaslandırılması, burada ekoloji maraqların və yerli əhalinin mənafelərinin ödənilməsi, təhlükəsizlik məsələləri bu istiqamətdə görüləcək işlərin ən mühümləridir.



Naxçıvan Muxtar Respublikası timsalında ekoturizm marşrutlarına baxdıqda ilk olaraq Şahbuz, Ordubad və Culfa rayonlarında mövcud olan təbii şəraitin yaratdığı imkanlar qiymətləndirilə bilər. Bu ərazilərin sənaye tullantıları ilə çox az çirklənmiş olması, təmiz hava, su, o cümlədən yüksək keyfiyyətli ərzaq məhsulları bölgənin ekoturizm potensialını artıran amillərdəndir. Bundan əlavə, həmin ərazilərin ekoloji

təmiz şəraiti, təmiz suları, bol meyvəli bağları, iti axan dağ çayları, zəngin fauna və florası onlardan turizm məqsədilə istifadə olunmasına imkan yaradır.

Şahbuzda Batabat, Qanlıgöl kimi ərazilərin geniş ekoturizm potensialı vardır. Naxçıvan şəhərindən başlayaraq Naxçıvançay boyunca Heydər Əliyev Su Anbarı, habelə Badamlı mineral suyu mənbəyi ekoturizm inkişafı



üçün ideal məkanlardan hesab oluna bilər. İllik yağıntı miqdarına və temperatur fərqinə görə bura rekreantların tələbatlarına uyğun sayılır. Məşhur Batabat meşəsində və onun ətrafındakı Biçənək aşırımı ilə Dərələyəz silsiləsinin ən yüksək zirvəsi olan Kükü dağının cənub yamacları olan Dərəboğazında 100-dən artıq dərman bitkisinə təbii halda rast gəlmək olar. Ümumiyyətlə, Şahbuz rayonu dərman bitkilərinin növünə görə təkcə Qafqazda yox bütün Avropada unikal bir yer sayılır. Bir-biri ilə növbələşən yaşıl yaylalar və sərt sıldırımlı qayalıqlar burada ekoturizmin müxtəlif növləri olan ov, dağ, macəra turizminin inkişafı üçün geniş perspektivlər açır. Heydər Əliyev adına su anbarından açılan iri suvarma kanalları bölgədəki ekoturizm destinasiyalarının daha da genişlənərək, Cəhri və Sirab kəndlərini də əhatə edə bilər. Naxçıvan şəhərinə və beynəlxalq hava limanına yaxın olan bu ərazilər də ekoturizmin inkişafı üçün perspektiv istiqamətdir.

Ordubad Azərbaycanın ən gözəl guşələrindən biridir. Zəngəzur silsiləsinin ən yüksək zirvəsi olan Qapıcıq dağından başlayaraq Ordubad şəhərinə qədər yerləşən kəndlər meyvə bağları ilə bütün regionda məşhurdur. Özünün dadı və



şəkərliliyi ilə seçilən armud, alma, ərik, üzüm və s. sortları ilə zəngin olan Ordubad bağları rekreantların mənalı istirahət mərkəzinə çevrilə bilər. Yayın orta ayında, dörd fəslin gözəlliklərini eyni vaxta özündə əks etdirən təbiət möcüzəsi Ordubadın Göy-Gölünü isə istirahət, əyləncə və macəra turizminin təşkili üçün ideal məkan saymaq olar.

Ekoturizmin təşkili baxımından mövcud imkanların qiymətləndirilməsi üçün konkret nümunə kimi **Naxçıvan-Şahbuz turizm marşrutuna** nəzər salaq.

Şahbuz rayonuna gəlmiş turistlərin fəal istirahətini təşkil edə bilmək üçün müxtəlif istiqamətlərdə turlar təşkil etmək mümkündür. Rayonun təbii şəraiti, hava, su, mineral ehtiyatları, dəniz səviyyəsindən hündürlüyü, habelə bitki örtüyü və canlı aləmi ərazinin hər kvadratkilometrində müxtəlif məzmunlu istirahət proqramları təşkil etməyə imkan verir. Rayon ərazisində aparılmış geniş infrastruktur yenilənməsi işləri yerli əhalinin rahat yaşayışı ilə bərabər buraya gəlmiş turistlərin də mənalı istirahətinə şərait yaradır. Ona görə də Şahbuzun girişindən, yəni Heydər Əliyev Su Anbarı ətrafı ərazilərindən başlayaraq rayonun Batabat, Ağbulaq, Kükü, Badamlı, habelə Keçili və Nursu istiqamətlərində yay və qış turizmi üçün geniş imkanlar olduğunu deyə bilərik. Şahbuz-Ağbulaq istiqamətində isə müxtəlif yaş və məşğuliyyət kateqoriyasından olan turistlərimizə bir-birindən maraqlı istirahət günləri təşkil etmək olar.

Batabat yaylağı Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yerləşir. Bu yerlər Şahbuzun təbiətinə, onun bənzərsiz landşaftına xas olan unikal təbiət gözəllikləri ilə zəngindir. Odur ki, Heydər Əliyev Su Anbarını mənzərəsini doyunca seyr edən turistlər Şahbuza ayaq basar-basmaz bir-birindən ecazkar görüntülərin təsiri altına düşürlər. Bu zaman alınmaz qala bürcləri kimi şahanə yalçın qayalar, iti axan dağ çayları, yolüstündə qaynayan buz bulaqlar, hardasa qaqqıldaşıb öz nəğmələrini oxuyan kəkliklər və dağ küləklərinin sanki sığal

çəkib daradığı süsənlərlə dolu Plov- təpə və digər təbiət mənzərələri turistlərə təqdim olunur. Yayda Biçənək meşəsinə yaxınlaşdıqca oksigenlə zəngin olan havanın sərinliyi şəhərin 40 dərəcə istisində yorulmuş insanları məst etsə də, qarşıdakı yaşıl mənzərə turistləri özünə çəkir.

Batabat füsunkar bir təbiət abidəsidir. Qədim Naxçıvan torpağı təbiət abidələri ilə çox məşhurdur. Amma Batabat özünün qalın meşəsi, buranın bitki və canlılarla zəngin biomüxtəlifliyi, bir-biri ilə növbələşən landşaft mənzərələri, 10 saniyədən sonra adamın barmaqlarını donduran Zorbulağı, dünyada bəlkə də bənzəri olmayan üzən adası və Naxçıvanın qədim mədəniyyətlərin kəsişmə nöqtəsi olduğunu sübut edən və dünyanın ən qədim mehmanxanası olma dəyərinə malik Fərhad evi ilə bambaqşa bir kimliyə sahibdir. Batabatın bu xüsusiyyətlərinin, burada insana şəfaverici xüsusiyyətlərə malik olan otların, çiçəklərin, ağac və kolların hər birinin turistlər üçün ayrıca bir dəyəri vardır. Burada müxtəlif məzmunda ekskursiyalar, yürüş və əyləncə xarakterli tədbirlərlə turistlər öz asudə vaxtlarını mənalı keçirə bilərlər. Batabat ekoloqların, təbiət dostlarının, yürüş və xizəksürmə, velosiped həvəskarlarının, məktəblilərin, fotoovçuların, herbari həvəskarlarının və ya sadəcə gəzib-dolaşmaq istəyən turistlərin sevimli məkanı kimi təqdim oluna bilər. Bu ərazinin təbii quruluşu və yaradılmış müasir yol infrastrukturu Batabatda ciddi elmi araşdırmalara da şərait yaradır. Odur ki, Batabat həvəskar turistlərlə bərabər artıq dünyanın hər yerindən gələcək peşəkar turistləri də cəlb edə bilər. Batabat Astrofizika Rəsədxanasının burada yerləşməsi təsadüfi deyildir. Buranın coğrafi mövqeyi və havanın son dərəcə təmizliyi günün istənilən saatında aparılan astronomik araşdırmalar üçün çox əlverişlidir. Buna maraqlı olan turistlər üçün kommersiya şərtləri ilə səma cisimlərinin müşahidəsi turları təşkil oluna bilər. Dünyada belə xidmətlər təklif edən yerlər az deyil. Batabat kamp turizmi üçün də ideal şərtlərə malikdir. Təkcə xarici



turistlər üçün deyil, həm də yerli turistlərimiz, naxçıvanlı gənclər, tələbə və yuxarı sinif şagirdləri üçün burada çadır kamplar təşkil etmək mümkündür. Bu, həm mənalı istirahət, həm də ekoloji tərbiyə baxımından çox səmərəli bir turizm növüdür. Səliqə ilə yaradılmış və minimum, ancaq bütün zəruri şəraiti olan belə kamplar gələcəkdə bir nümunə kimi təbiəti sevənlərin yaddaşında qalacaqdır.

Naxçıvan-Şahbuz turizm marşrutunun Şahbuz-Ağbulaq istiqamətini seçmiş turistlərə göstərilən kompleks xidmətlər, onlara nəqliyyat və yemək servislərinin göstərilməsi bu rayonun turizm ehtiyatlarından səmərəli istifadəyə şərait yaradan mühüm amil kimi qiymətləndirmək olar.

Ağbulaq İstirahət Kompleksi füsunkar bir dağ kəndində təşkil oluna biləcək hər cür xidmətləri özündə əks etdirir. Yay günlərində səhər erkəndən, Günəş doğmadan Ağbulağa doğru hərəkət edən turistlər Şahbuz şəhərindən çox da uzaqda olmayan, cəmi 20-25



dəqiqəlik rahat bir yolun ardından rayonun geniş panoramasını canlandıran bir təbiət mənzərəsi ilə üzbəüz qalırlar. Xüsusən, belə bir səyahət yay fəslinin tam ortasına təsadüf edərsə, şəhərdən gəlmiş qonaqları təəcübləndirərək, onlarda dərin təəssürat yaratmaq çox da çətin deyildir. Hələ Ağbulaq kəndinə çatmamış, yolboyu qaynayan kənd həyatı, müxtəlif təsərrüfat işləri, dağ yamaclarındakı arı ailələri, diş qamaşdıran buz bulaqlar və bir də sübh vaxtı dağın zirvəsinə doğru çəkilən ağappaq çən turistlərdə qeyri-adi təəssürat yaradır. Belə bir seyir təbiətə qarşı həssas insanları, foto-video

həvəskarlarını saatlarca məşğul edə bilər. Pillə-pillə dolanan Ağbulaq yolunda hərəkət edərkən belə mənzərəyə tamaşa edən turistlərə istirahət kompleksinə çatmamış yolüstü bulaq komplekslərinin birində fasilə verməyə dəyər. Hər keçən dəqiqədə onlarla metr yüksəkliyə qalxan turistlərin bu yüksəkliyə uyğunlaşması və "ikinci mərtəbədən" gəldikləri yola doyunca tamaşa etmələri üçün onlara vaxt verilməlidir.

Ağbulaq kəndi və ətrafı çox cazibədardır. Buraya gələn turistlər ilk olaraq ərazinin ekoloji cəhətdən çox təmiz, heç bir tullantıya rast gəlinmədiyini görməlidirlər. Belə ki, son illər Naxçıvan Muxtar Respublikasında hətta ən ucqar dağ kəndlərinin təmizliyinə verilən diqqət hər yerdə özünü göstərməkdədir. Kənd yerlərində sənaye tullantılarının demək olar ki, olmaması, məişət tullantılarının da mərkəzləşdirilmiş qaydada toplanması ekoturizm baxımından burada arzuedilən nəticəni yaratmışdır. Bu da müasir ekoturizm qarşısında qoyulmuş ən mühüm şərtlərdəndir. Təmiz olduğu qədər primitiv və sadə kənd həyatı da buranı seçmiş turistlərin görmək istədikləri arasındadır. Ağbulağa qalxarkən yol boyu təmizlik turistlərin diqqətindən qaçmamalıdır.

Ağbulaq İstirahət Kompleksi eyni adlı kəndin kənarında panorama mənzərəli geniş bir ərazidə yerləşir. Kompleksə gəlmiş turistlər lazımi qeydiyyat və yerləşdirmə işlərindən sonra qısamüddətli dincəlmə keçməlidirlər. Bu, dəniz səviyyəsindən iki min metrə qədər hündürlüyü olan belə bir yerə gəlmiş, xüsusən, nisbətən yaşlı insanlar üçün çox vacibdir. Sərin havanın ideal təmizliyi, oksigen bolluğu və yolboyu izlənən yaşıl mənzərələr insanlarda günün istənilən saatında belə şirin yuxu ehtiyacı yaradır. Odur ki, günortaya qədər turistlər onlar üçün ayrılmış lüks otaqlarda yolun yorğunluğunu çıxara bilərlər.

Nahar yeməyindən sonra turistlər Ağbulaqda keçirəcəkləri günlərin sayına görə turun proqramı və burada istifadə edəcəkləri şəraitlə tanış olacaqlar. Yuxarıda qeyd et-



diyimiz kimi bu, gələn turistlərin əsasən yaş qrupların görə dəyişdiyindən uşaq və gənclər üçün təklif olunan proqram yaşlı insanlar üçün təklif olunan proqramdan fərqlənir. Həm də belə proqramların müxtəlif məzmunlu olması və tərkibinin tez-tez dəyişdirilməsi də müasir turizmin tələbləri arasındadır. Ancaq istənilən halda, təbiətlə sıx ünsiyyəti əsas tələbatları kimi qiymətləndirən insanlarda dolğun təəssürat yaratmaq üçün Ağbulaqda hər cür imkanlar vardır. Əl dəyməmiş təbiət guşələri, zümzüməli bulaqlar, təbii qazlı mineral su mənbələri, bir-birinə qaynayıb qovuşmuş meşə və kolluqlar buraya gəlmiş turistlər üçün əvəzedilməz təəssürat mənbələridirlər.

## 2. Kənd turizmi marşrutu

Kənddə istirahəti hamı sevir. Xüsusən, ilin on bir ayını şəhərdə daimi işlə məşğul olub, dincəlməyə macal tapmayan işgüzar insanlar şəhərdən xeyli uzaqda, yaşıllıqlar içərisində havası, suyu sərin kənd həyatını çox sevirlər.



Kənd turizmi, adından da göründüyü kimi təbiəti, insanlarının həyat tərzi, məişəti və məşğuliyyəti şəhərdən xeyli dərəcədə fərqlənən kənd ərazilərində təşkil olunan fəal istirahət növüdür. Bəzi xüsusiyyətlərinə görə, ekoturizmin də bir yarımnövü olmaqla kənd turizmi zamanı turistlərə çox geniş reseptli istirahət, əyləncə, gəzinti, milli mətbəx və hətta təsərrüfat fəaliyyəti ilə bilavasitə məşğul olmaq kimi pullu xidmətlər təklf oluna bilir. Kənd turizminə meyl edənlər şəhər əhalisi olduğundan onların belə xidmətlərə qarşı səxavətli olması da artıq dünya təc-

rübəsində sübut olunmuşdur. Bu turizm növünün təşkili üçün çox ciddi turopreator fəaliyyətinə və vaxt bölgüsünə ehtiyac yoxdur. Yəni turistlər otel kimi məskunlaşdıqları evin bağçasındakı kottecdə və ya kənd evinin onlar üçün ayrılmış bölümündə bütün yayı da qala bilərlər.

Bu müddətdə şəhərdən gəlmiş turistlər kəndlinin öz təsərrüfatından səhər-səhər bişirilmiş isti lavaşı, təzə sağılmış südün qaymağını, yenicə süzülmüş ətirli beçə balını, üç aylıq cücələrin qızartmasını, beş ayılq quzuların kababını, həyətlərin aşıb-daşan mer-meyvəsini böyük qonaqpərvərliklə və ucuz qiymətlərlə alıb istifadə edə bilərlər. Kənddəki gənclər bu tətil günlərində kənd ətrafı dağ-dərələri, meşə və kolluqları, buz bulaqları və şəlalələri şəhərli qonaqlara göstərib, onlara təbiəti sevdirilər. Turistlər atla gəzinti istəsələr onlar üçün bu imkan da vardır. Bir sözlə, evindən təkcə fərdi əşyalarını götürüb kəndə istirahət üçün gedən turistlər öz yaşadığı şəhərin səs-küyündən, gur maşın və insan axınından başqa burada hər şey tapa bilərlər.

Kənd turizmi sadə görünsə də özünün bir sıra cəhətlərinə görə turizmin çox mühüm iqtisadi və sosial-humanitar funksiyalarına malikdir. Kəndliyə öz evində iş, istehsal etdiyi məhsulları yerindəcə reallaşdırmaq imkanları yaratmasından başqa o eyni zamanda şəhərlə kənd arasında gəlir hamarlaşdırma vəzifəsini daşıyır. Kənd turizmi inkişaf etdikcə kəndliyə nisbətən daha çox qazanc imkanları olan şəhərlinin çəkdiyi turizm xərcləri kəndlinin gəlirlərinə çevrilir ki, bu da dövlətin regional inkişafa verdiyi diqqətlə birbaşa üst-üstə düşür. Kəndin həyat tərzini yerində görmək isə şəhərli üçün rekreasiyadan başqa daha çox milli dəyərlərimizin əks olunduğu adət-ənənələrlə də tanışlıq imkanları yaradır. Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasındakı çox sayda belə kənd həm rekreasiya, həm də tanışlıq baxımından çox cəlbedicidir.



Kəndə turist getmək kimi kənd turizmini təşkil etmək də çox çətin deyil. Kənd turizminə çəkilmiş çox da olmayan xərclər cəmisi bir neçə mövsümə geri qayıdaraq, kəndlini ağır iqtisadi risklərə də atmır. İndi əksər kəndlərimizdə mövcud olan normal lüks yaşayış-məişət standartları bu turizmin təşkili üçün kifayət edir. Ancaq hər iki halda əhalinin gəlir səviyyəsi və rifahına təsir edən sosial infrastruktur şəraitinin dövlət tərəfindən təmini əsas şərtlərdən biridir. Kəndin təbii-iqlim şəraiti də buna müvafiq olduqda, işin müvəffəqiyyəti kəndlinin xidmətlər təklif edib pul qazanma bacarığından asılı olur. Doğrudan da, yüzlərlə fakt göstərmək olar ki, xaricdə iki nəfər üçün bir həftəlik turun qiymətinə kənd turizmi kimi daxili turlarda dörd nəfərə bir aylıq xidmətləri almaq mümkündür. Xaricə səfərlər zamanı yola, vizalara itirilən vaxt, qeyri-müəyyən mədəni mühitin yaratdığı gərginlik, kifayət qədər riskli iqtisadi və sosial münasibətlər, xarici dil bilmək problemləri və sair buna əlavə olunduqda bu kənd turizminin üstünlüklərini göstərir. Kənd turizmi insanın rekreasiya ehtiyacını ödəyən ən sadə və ən ucuz istirahət növüdür.

Kənd turizmi mövsümi turizmdir. Onun təşkil olunması üçün çox ciddi tanıtım və ya reklam işləri tələb olunmur. İndi Naxçıvan kəndlərində yaradılmış şərait özü ən güclü reklamdır. Kəndlərdəki milli qonaqpərvərliyi də tanıtmağa ehtiyac yoxdur. Amma buradakı digər təşkilatçılıq işlərinin peşəkarcasına həll olunması tələb olunur. Başqa sözlə, kənddə turistlərin almaq istədiyi və kəndlinin onlara göstərə biləcəyi yataq, yemək və sair kimi zəruri xidmətlərin peşəkar qonaqpərvərliyin tələblərinə uyğun şəkildə göstərilməsi vacib məsələdir. Yəni, kəndə gəlmiş qonaqdan pul almaq sanki qeyri-qonaqpərvərlik imiş kimi düşüncənin əksinə olaraq, kənd turistlərinə onların tələbatlarına görə xidmətlər göstərib, əvəzində bazar qiymətlərinə də uyğun haqq alınmalıdır. Bu isə kənddəki yerli əhalinin iqtisadi maraqlarını ödəyən, onun təsərrüfatını genişləndirən, kəndin turizm ehtiyatlarından isti-

fadənin dayanqlılığını təmin edən və xidmət sektorunda keyfiyyət amilini ön plana çəkən ən mühüm amildir. Yəqin ki, bu yerdə heç kimin onlara göstərilən pulsuz xidmətlərin səviyyəsinin artırılmasını tələb etməyə haqqı olmadığını yada salmağa lüzum yoxdur. Məhz buna görə də kənd turizminə təsadüfi gəlmiş qonağa tələm-tələsik manqal çatıb xoşgəldin etmək deyil, kəndə hələ iki-üç ay sonra gələcək şəhərli turistlərə lazım olacaq bütün kompleks xidmətləri göstərə bilmək üçün planlı, məqsədli şəkildə aparılan bütün hazırlıq işlərinin yekun nəticəsi kimi baxmaq lazımdır. Bu işlərə isə hamının — kənddə ödədiyi pula görə keyfiyyətlə dincəlmək istəyən turistlərin və kəndin inkişafını, onun əhalisinin bütün təbəqələrini, buradakı hər cür məşğuliyyət sahibi olan insanların mənafelərini düşünən dövlətin də marağı vardır. Çünki turizm və xüsusən, kənd turizmi bu maraqların ödənilməsinin ən yaxşı üsullarından biridir.

Kənd turizmi əksər hallarda daxili turizm tipinə aid olunur. Müştərilərin əksəriyyətinin ölkəmizin və Naxçıvan Muxtar Respublikasının müxtəlif şəhərlərindən olduğu belə turizm növünün inkişafı yollarını mənimsəmək əslində gələcəkdə beynəlxalq turizmi inkişaf etdirmək üçün də bir hazırlıq mərhələsidir. Yuxarıda qeyd etdyimiz kimi kənd turizmi zamanı güclü reklama və geniş təşkilatçılıq tədbirlərinə ehtiyac yoxdur. Turistlərin gəlişinə qədər tələb olunan hər şey — saf, təmiz iqlim və su ehtiyatları, yaşıllıq, abad kənd şəraiti, ecazkar mənzərələr, şəhərdəki kimi bütün sosial infrastruktur təminatı və qonaqpərvər kənd əhalisi hazır resrurslardır. Ona görə də kənd turizmi növü vasitəsilə daxili turizmin inkişafı ilə gələcəkdə əcnəbi turistlərin də bu məkanlara meyl etməsinə nail olmaq, keçən bu müddət ərzində müasir servis standartlarına da nail olmaq mümkündür. Çünki bu dövrdə bir çatışmazlıq olsa da bu ölkə imicinə zərər vuran antireklam olmayacaqdır. Məhz buna görə də turizmdən xeyli miqdarda valyuta gəlirləri əldə edən ölkələr



bir zamanlar kənd turizmi kimi daxili turizm təcrübəsi keçmiş və hazırda turizmin bütün növləri üzrə güclü bir potensial əldə etmişlər.

Kənd turizmi geniş resurslara malikdir. Müasir şəhər həyatının intensivliyi, hər gün rejimlə yaşamağın stresi, çox sayda maşınların törətdiyi səs-küy, beton və asfaltın, rəngli reklamların yaratdığı yorucu mühit bir-iki saat yol keçəndən sonra hərtərəfi yamyaşıl təbii bir mühitlə əvəz olunduqda turizmin ən güclü rekreasiya təsiri özünü göstərməyə başlayır. Kənd əhalisinin, xüsusən, yay aylarındakı gündəlik qayğıları, buradakı bağçalarda aşıb-daşan mer-meyvə, nənələrdən qalma respetlərlə hazırlanan saf yeməklər şəhərdən gəlmiş turistlərə çox maraqlı gəlir. Hələ axşam qaranlıq düşənə yaxın kənd həyatı şəhərli balacalar üçün əsl nağıllardakı kimidir.

Kənd turizminin Naxçıvan Muxtar Respublikasında böyük potensialı vardır. Yay turizm mövsümünün qaynar çağında öz istirahətini muxtar respublikanın müxtəlif guşələrində keçirmək istəyən turistlər üçün Ordubad rayonunun Çənnəb kəndi timsalında görüləcək təşkilatı işlərə nəzər salaq.



Bu kənd öz bən-zərsizliyi ilə seçilir. Ölkəmizin müxtəlif şəhərlərindən, həmçinin Naxçıvan Muxtar Respublikasının Naxçıvan, Şərur, Culfa şəhərlərindən, habelə Nehrəm kimi iri kəndlərində yaşayanlar yayın istisində özünə sərin-səfalı yer axtarmaq istəsələr digər kəndlərimizlə bərabər Çənnəbə gələ bilərlər.

Çənnəb Düylün-Məzrə istiqamətində Üstüpü ilə bitişik olan ikinci kənddir. Naxçıvan şəhərindən təqribən 60, rayon

mərkəzi Ordubaddan 15 kilometr məsafədə yerləşir. Öz yolunu ilk dəfə bu kəndə, ümumiyyətlə bu istiqamətə salan səyahətçini ilk baxışda inandıranmazsan ki, Xarabagilandan üzüyuxarı ucalan dağların arasında bu qədər yaşıllığa qərq olmuş bir kənd vardır. Bağ-bağata, meyvəçiliyə bu qədər bağlı olan Ordubada belə yaşıllıqlara rast gəlməkdə isə qeyri-adi heç nə yoxdur. Ordubadlılar lap qayada da olsa meyvə ağacı ərsəyə gətirməkdə çox səriştəlidirlər. Bu rayonda hansı kəndlə, hansı həyətlə tanış olsan hökmən nəsə qeyri-adi bir meyvə ağacı, yeni bir meyvə sortu, yaxud meyvəçilik adət-ənənəsi ilə tanış olmaq mümkündür.

Çənnəblilər çox qonaqpərvərdilər. Şübhəsiz, turizm üçün qonaqpərvərlik çox üstün keyfiyyətdir. Çənnəbdə də bunun şahidi olmaq mümkündür. Qonağa ilk rast gələn yerli sakin istər tanıdığı, istərsə də tanımadığı olsun israrla onu evinə, nəfis Ordubad limonu ilə çay süfrəsinə dəvət edəcək. Ordubad limonu isə təkcə muxtar respublikamızda deyil, ölkəmizdə və onun hüdudlarından kənarda brendləşmiş bir nemətdir. Bu mənada, Ordubad limonu özünün qeyri-mövsümiliyi və xüsusi çəkisinə görə Naxçıvan göycəsinə bərabərdir. Çənnəbdə də demək olar ki, hər iki həyətdən birində limon ağacları yetişdirilir və çay süfrəsində onların ətrindən doymaq olmur.

Çənnəblə ilk təəssürat, bir vaxtlar çoxlarının istirahət məkanı olmuş Şəfa bulağı ilə tanışlıqdan başlayır. Kəndin girəcəyindəki Şəfa bulağının başında, göy üzünü qapamış ağacların altında bircə saat əyləşib suyun zümzüməsinə baxmaq kifayətdir ki, on bir ay şəhərin səs-küyündə yığılıb qalmış neqativ enerji yox olsun. Uzaq yoldan gələnlər sərin bulağın zümzüməsinə qulaq asıb dincəldikdən sonra uzun hörük kimi qıvrılan kənd yolu ilə davam edib Çənnəbə çatırlar. Şimal tərəfdən Üstüpü, cənubdan Düylün, qərbdən Ülüs dağı, şərqdən Qarovulgədik dağları ilə əhatə olunan Çənnəb kəndi, dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşir. Kəndin



min ildən artıq məskunlaşma tarixi vardır. Yerli sakinlərin dediyinə görə Çənnəbdəki Kəreyil və Piləpan qalalarının yaşı eramızın əvvəllərinədək gedib çatır. Ümumiyyətlə, turizm həvəskarlarına bu yerlərin tarixi, yerli sakinlərin adət-ənənələri haqqında danışmağa çox mövzu var. Amma yay fəslində insanları ən çox özünə çəkən təbiət güşələri bu gözəl diyarın bənzərsiz gözəlliklərinə qarşı heç kimi biganə qoymur.

Çənnəb kəndi ərazisi, onun relyefi panoramik quruluşa malikdir. Kənd haqqında ümumi təsəvvür almaq üçün ətrafdakı uca təpələrin birinin zirvəsinə dırmanıb ətrafı seyr etmək kifayətdir. Yeri gəlmişkən, bu, kəndə gələn ekoturizm həvəskarları üçün də yaxış bir əyləncədir. Bu, müasir turizmdə yaxşı təəssürat almaq üçün çox vacibdir. Misal üçün, Çənnəbdəki yaşını heç kimin bilmədiyi qocaman çinar ağacının kölgəsində oturub çay içməyin bir ləzzəti olduğu kimi bu çinarın uzaqdan necə göründüyünü seyr etməyin ayrı ləzzəti vardır. Xülasə, Çənnəbə gəlmiş şəhərli turistləri Şəfa bulağı ilə yanaşı İpli çeşmə, Bədərək çeşməsi və Yağlıdərənin ecazkar mənzərələri ilə tanış etdikdə onlar Naxçıvanın hələ nə qədər kəşf olunmamış gözəllikləri olduğuna öz gözləri ilə şahid olacaqlar.

Kənd həyatı elədir ki, burada iş günü, xüsusən yaz və yay fəsillərində, səhər günəşin çıxması ilə başlayır. Əgər Çənnəbə gəlmiş turistləri bu ab-hava ilə tanış edib, onlarda kənd işgüzarlığı haqqında bir təsəvvür formalaşdırmaq istəyiriksə, onda kənddən xeyli aralıdakı Köydərə və Sərinçeşmə şəlalələrinə tamaşa etmək üçün səhər sübh 6-dan yola çıxmağına dəyər. Bu təbiət inciləri ilə tanışlıq turistlərdə həmişəlik bir təəssürat yaradacaqdır. Bununla yanaşı, səhər erkəndən örüşə çıxan qoyun-quzunu, su suvaran, ot biçən, kəndlilərin təsərrüfat işlərini canlı görməyin özü də bir rekreasiya yaradan amildir. Şəhərli turistlər görəcəklər ki, Naxçıvan bazarında ucuzluq yaradan ekoloji təmiz, ziyansız Ordubad nemətləri hansı torpaqlarda yetişib, hansı bulağın suyundan içirmiş.

Təsərrüfata gəldikdə, Çənnəblilər çox qoçaqdırlar. Kənd evlərinin həyətində çoxlu meyvə ağacı vardır. Mövsümdə alma, armud, cəviz, ərik, göycə, gilas ağaclarının barını yığıb-yışdırmaq olmur. Kənddə bostan məhsulları da boldur. Əgər turistlər kirayə edib dincəldiyi evin isti təndir lavaşlı, bal-qaymaqlı səhər yeməyindən sonra bir də bulaq başında samovar çayı dəmləməyi arzu edərlərsə, Çənnəbdə hər ağacın kölgəsi bir tamaşadır. Kənd turizminin mühüm atributlarından olan dağ və yüksəkliklərə yürüş üçün də Çənnəbdə imkanlar vardır. Ordubadlılara xas qoçaq və səmimi cavanlar bələdçi kimi turistlərin xidmətindədir. Dağlara çıxmağına isə dəyər. Çənnəb və Üstüpü kəndlərinə məxsus Rumus yaylağında rast gəlinən nadir Jenşen otunu tapmaq üçün hər il çox həvəskar buraya gəlir. Yayda öz tətillərini Çənnəbdə keçirənlər bunu bilirlər.

### 3. *İnanc turizmi*

İnanc və dərketmə tələbatı baxımından uzaq səfərlərə yollanmaq tarixən ən qədim səyahət növlərindən biri olmuşdur. İnsanlar min illərdən bəri yaddaşlarında əbədiləşən müqəddəs ziyarətgahlara etdikləri səfərlərlə dünyadakı ən savab işlərdən onlara da pay düşdüyünə inanmışlar. Bu baxımdan, cəmiyyətin iqtisadi və mədəni tərəqqisinin, xalqlar arasında humanitar əlaqələrin və tolerantlığın bir göstəricisi olan turizmin inkişafı zamanı dini turizmin əhəmiyyəti böyükdür. Çünki, dünyada inanclarla yaşayan tək varlıq kimi hər bir insanın Yaradana və yaradılmışa sevgi, mədəniyyətə qovuşmaq, insanların hörmətini və məhəbbətini qazanmaq kimi ülvi duyğulara müqqədəs yerləri ziyarət etmək və bu inancları daha da dərinləşdirmək istəyi vardır.

Hazırda dünya üzrə müxtəlif din və inanc sahibləri olan insanlar bir çox dini-ziyarət mərkəzlərinə səyahətlər edirlər. Bu səyahətlərin həyata keçirilməsində inanc turizmi üçün



zəruri olan bütün minimum şərait, dini etiqadları baxımından zəvvarları maraqlandıran bütün tələblər ödənilməyə çalışılır. Bu da təsadüfi deyildir. Belə ki, müasir dövrdə inanc turizmi kruiz və konfrans turizmindən sonra ən bahalı turizm növlərindən biridir. Başqa sözlə, misal üçün, ekoturizmdə iştirak edən uşaq və gənclərdə əsas motiv təbiətlə ünsiyyət və ekoloji tərbiyə olduğundan, bu zaman gəlir əldə olunması ehtimalı da azalır. Tanışlıq və inanc turizmində iştirak edənlər isə yaşlı nəslin nümayəndələri olduğundan onların bu səfərləri zamanı xərcləri də yüksəkdir. Qədimdəki zəvvarlar at və dəvələrlə səyahətlərə çıxan varlı adamlar olduğu kimi, hazırda da onların böyük əksəriyyəti hava yolu və digər bahalı marşrutları seçən insanlardırlar. Müasir dünyada ziyarət turizmi üçün gələn xeyli sayda zəvvarı hava, quru, dəniz və dəmir yolu ilə qarşılayıb yola salmaq imkanları vardır.

İnanc turizminin təşkili üçün ümumi şərtlər olsa da bu turizm növünün təşkilinin özünəməxsus tələbləri vardır. Dindarlar və ya zəvvarlar üçün yaradılması zəruri olan ibadət yerləri, mehmanxanalarda ayrıca olaraq qadınlar, kişilər və uşaqlar üçün tələb olunan müvafiq şərait, müxtəlif zərf xidmətlərindən ibarət olan turların yaradılması, onların texniki və iqtisadi cəhətdən qiymətləndirilməsi, bu turlar üzrə müxtəlif turist seqmentini maraqlandıran qiymətlərin müəyyənləşdirilməsi spesifik tələblərdən biridir.

Dini turizmdə əsas motiv uca Yaradana sitayiş, ali qüvvələrdən kömək və imdad istəmək, şəfqətə çatmaq və mərtəbə əldə etməkdir. İnanc və ya zəvvari turizmi bütün xalqlar arasında geniş yayılıb. XX əsrin 50-ci illərindən başlayaraq genişlənib kütləvi hal almışdır. Müasir dövrdə inanc turizmi kimi zəvvarlar səmavi dinlərlə (İslam, musəvilik, xristianlıq) bağlı olan və planetin bir çox yerlərində hamı tərəfindən tanınan və qəbul edilən ilin müəyyən mövsümlərində və ya bütün dövrlərdə çox sayda insanın səyahət edib ziyarət etdiyi dini mərkəzlər və bir çox xalqların, qəbilələrin möhkəmləmiş və

müəyyən simvolik elemenlərlə təmsil olunan çox müxtəif obyektlərinə səfərlər vardır.

Avropada katoliklərin, Şərqi Avropada protestant və ya provaslavların, Yaxın Şərqdə, Şimali Afrikada, Orta Asiyada, Qafqazda, Cənub-Şərqi Asiyada müsəlmanların, Hind-Çin yarımadasında buddistlərin, Yəhudilərin iudizm kimi dinlərinin yayıldığı məkanlarda hər il çox sayda zəvvar öz dininin mərkəzinə səfər edir və ziyarətlərini təmin edirlər. Beləliklə, inanc və ya zəvvarlıq turizmi deyəndə, ilk olaraq, fiziki və mənəvi sağlamlıq həyat tərzi, o cümlədən öz dərin dini inanclarını, arzularını reallaşdıra bilmək üçün dini və inanc mərkəzlərinə edilən səfərlər və bu məkanlarda edilən ayinlər başa düşülür.

Dini turizmin öyrənilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verir:

1) Dinin cəmiyyətdə insan həyatında onun sosial həyatındakı rolunu müəyyənləşdirmək;

2) Dünyada daha çox yayılmış dinlərin, mənəvi cərəyanların əsası ilə tanış olmaq;

3) Bu dinlərin yayılma ərazisini bilmək;

4) Dini mərkəzlərin, zəvvarlıq üzrə səyahətlərin, marşrutların, müqəddəs yerlərin təsvirini vermək;

5) Dini turizmin praktiki məsələlərini tapmaq.

Dini turizmin öyrənilməsi zamanı onun nəzəriyyəsi yəni inkişafına təsir edən amillər, yaranma səbəbləri kimi məsələlər aydınlaşdırılmalı, bu turizm növü üzrə səyahətlərin təşkili məsələləri həll olunmalıdır. Dini turizmdən səyyah və zəvvarlar yüksək emosional təsir alıb insanları, normal həyatda rast gəldikləri münaqişə və ziddiyətləri, onları yaradan səbəblərin həll olunması, dərin məzmunlu fiziki və zehni rekreasiya əldə olunması mümkündür. Belə hesab olunur ki, vaxtaşırı olaraq öz adi yaşayış mühitindən kənara çıxıb mənəvi zənginlik təəssüratı alan insanların sayı artdıqca dini turizm də kütləvi hal alıb həm turizm sənayesində gəlirli sahəyə çevrilir,



həm də xalqlararası tolerantlığın və dünyəvi sülhün yaranmasına öz töhvəsini verir.

İlk inanc məzmunlu səyahətlər çox qədimdə olub. bu dövrlərdə insanların iman gətirdikləri dağ zirvələri, daş, qayalar, çaylar, göllər, meşə talaları olmuşdur. Bundan əlavə antik dövrdən başlayaraq qədim insanlar müqəddəs torpaqlar hesab etdikləri yerləri heç olmazsa bir dəfə gedib görmək və öz ibadətlərini yerinə yetirməyə çalışmışlar. Bu insanların məqsədləri arasında fiziki və mənəvi əzablardan qurtarmaq, qohum və yaxınları üçün dua etmək, təşəkkür borcunu ödəmək və ziyarət mərkəzində hər hansı əvəzsiz xidmətləri etmək olmuşdur.

Qədimdə Hindistan, Yunanıstan, Budda və Qüds kimi yerlərdə mövcud olan ziyarət yerlərini görmək və zəruri olan ayinləri yerinə yetirmək üçün insanlar səyahət etmişlər. Zəvvarların müqəddəs torpaqlara olan maraqları orta əsrlərdən başlayaraq daha da artmışdır. Müsəlmanların Məkkə və Mədinəyə, xristianların Qüds, Vatikan və Efesə olan səfərləri, Qədim Hindistandakı çox saylı müqəddəs məkanlar, Şimali və Cənubi Amerikanın yerli xalqlarının bu məzmundakı səfərləri hazırda ümumi sayı təqribən 200 milyonu aşan ziyarət turizmini formalaşdırmışdır.

Hazırda dini ziyarət turizminin dünya üzrə coğrafiyası aşağıdakı kimidir:

1) Rusiya, Ukrayna, Belarus, Moldova, Rumıniya kimi ölkələri əhatə edən provaslav dünyası;

2) Qərbi Avropanın əsas hissəsini təşkil etdiyi Balkanlardakı katoliklər;

3) Xristianların təşkil etdiyi Şimali Amerika;

4) Latın Amerikası ölkələrini əhatə edən xristanlıq və yerli əhalinin ənənəvi dinləri;

5) Şimali Afrikanın İslam dini;

6) Qərbi Afrikanın əsasən İslam və anklav dinləri;

7) Şərqi Afrikanın İslam, xristianlıq və digər ənənəvi dinləri;

8) Cənubi Asiyanın buddizm, İslam, xristian və digər ənənəvi dinləri;

9) Cənub-Şərqi Asiyanın buddizm, İslam, xristian, anklav, iudizm;

10) Şərqi Asiyanın konfuizm, buddizm, xristian, İslam dinləri;

11) Orta Asiyanın İslam və Tibetin budda inancına sahib olan əraziləri.

Formalarına görə dini turizmin 2 forması vardır:

1) Təşkilati forma

2) Qeyri-təşkilati forma

Təşkilati formada əvvəlcədən razılaşdırılmış turlar və qiymət çərçivəsində müəyyən marşrut üzrə səyahətlər təşkil olunur. Bu zaman zəvvarlar tam və ya qismən olaraq xidmətlər alır, öz ayinlərini yerinə yetirirlər.

Qeyri-təşkilati turlar zamanı zəvvarlar heç bir vasitəçinin köməyi olmadan səyahətə çıxır və konkret bir proqram olmadan öz marşrutlarını seçirlər. Qeyri-təşkilati turlara bir sıra daxili və xarici amillər təsir edir.

Xarici amillər kimi turistin maddi vəziyyəti, obyektlər haqqında daxil olan informasiya, həmçinin hava və təqvim şərtləri, daxili amillər isə hər hansı bir yerə səyahət etmək üçün psixoloji hazırlıq, turisti səyahətə cəlb edən motivasiya hesab olunur.

İnanc turizmində iştirak edən səyyarlar fərdi və qrup halında səyahət edirlər. Fərdi turlara çıxan zəvvarlar adətən 1-5 nəfərdən ibarət kiçik qruplarla hərəkət edirlər. Qrup turlar isə bu zaman 6 nəfərdən yuxarı qruplar şəklində olur. Bir çox zəvvarlar öz daxili emosiyalarını, düşüncələrini, konkret situasiyalarını inanclarının gücü ilə reallaşdırmaq məqsədi ilə bir çox halda ziyarətlərə tək yollanırlar.



İnanc turizmində səyahətlər bir günlük, bir neçə günlük və çox günlük olur. Bir günlük ziyarətlər 12 saata qədər, bir neçə günlük ziyarətlər 7 günə qədər, çox günlük isə 4 həftəyə qədər olan müddətdəki səfərlərdir.

Yaşa görə zəvvarları 4 qrupa ayırırlar:

1)15-24 yaşlı gənclər;

2) 24-44 yaşlı gənclər və fəal əhali;

3) 45-65 yaşlı fəal əhali;

4) 65 yaş və yuxarı təqaüdçülər.

Nəqliyyat vasitələrindən istifadəyə görə zəvvarlar hava, dəmir yolu, avtomobil nəqliyyatı, dəniz və çay nəqliyyatından istifadə edirlər. Əgər ziyarət məkanları çox uzaqdadırsa, bu zaman daha sürətli nəqliyyat vasitələrindən istifadə edirlər.

İnanc turizminin maddi texniki bazası geniş olmalıdır. Digər turizm növləri kimi inanc turizmində də yerləşmə, nəqliyyat, ictimai qidalanma müəssisələri habelə bələdçi xidmətləri daxildir.

İnanc turizmi üçün ən mühüm şərt göstərilən standart şəraitlə bərabər turistləri həmin əraziyə çəkə bilən hansısa müqəddəs məkanın mövcudluğudur.

"Müqəddəs yer" anlayışı inanc turizmi üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif dini etiqadlar daşıyan və ziyarət turizmi üçün əhəmiyyətli ola biləcək çox sayda insanın səyahət etdiyi müxtəlif məzmunlu yerlər belə cəzbetmə qüvvəsinə malikdir. İnsanlar inancına görə müxtəlif möcüzələr yarada bilərlər. İnsanlara onların psixoloji vəziyyətinə kütləvi təsir edə bilən hansısa hadisənin, tarixdə yaşamış şəxsiyyətin, mifoloji rəvayətin adı ilə bağlı olub bunlarla birlikdə insanların yaddaşında və inancında kök salmış çox sayda yer, tarixi abidə, məzarlıq, təbiət abidələri vardır.

Zəvvarlar üçün qida servisləri özünəməxsusdur. Ziyarətə çıxan zəvvarlar həm ictimai, həm də fərdi qaydada öz qida təminatını ödəyə bilərlər. Bir çox inancların sahibləri olan

insanlar üçün kəskin pəhrizlər, vegetariyanlar, xüsusən, müsəlmanlar üçün qadağan olunmuş yeməklər servislər zamanı nəzərə alınır. Zəvvarlar üçün fərdi qida təminatı verilməlidir ki, onların son məqsədi olan ziyarətlərdən gözlədikləri nəticə alınsın.

Zəvvarlar üçün çox mühüm əhəmiyyət daşıyan yerləşmə obyektləri, onların müvafiq şəraitidir. Müxtəlif inanc sahibi olan insanlar, xüsusən, dini səyahətlər zamanı öz vərdişlərini icra etmək üçün müvafiq şəraiti olan yerləşmə obyektlərindən istifadə edilir.

Ölkəmiz özünün zəngin tarixi, mədəni ehtiyatları və multikultural ənənələri ilə güclü dini turizm potensialına malikdir. Azərbaycan müsəlman ölkəsi olmaqla və əhalisinin əksər hissəsinin İslam dininə inanması ilə yanaşı burada xristianlıq və iudaizm kimi digər səmavi dinlərə inanan çox sayda millətlər yaşamaqdadır.

Ölkəmizin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında inanc turizminin inkişafı üçün mövcud olan ziyarətgahlar haqqında danışarkən ənənəvi olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahını, qədim tarixi məscidlərimizi, Möminə Xatun türbəsini, Nuh Peyğəmbərin türbəsini, Gəmiqaya təsvirlərini, imamzadələri, müxtəlif pirləri sadalaya bilərik. Naxçıvanda inanc turizmindən danışdıqda onun inkişafı üçün tələb olunanların öyrənilməsi, bunun üçün lazım olan turist seqmentinin düzgün seçilməsi, müvafiq turist marşrutlarının hazırlanması və onların pasportlaşdırılması, burada töhfə verə biləcək kadrlara yer verilməsi və onların gücündən istifadə olunması məsələlərinə diqqət yetirilməlidir.

Naxçıvanın turizm ehtiyatları arasında Əshabi-Kəhf ziyarətgahının öz yeri vardır. Çünki, bu müqəddəs məkan dünyanın elə bir nöqtəsində yerləşir ki, o sanki bütün inanc sahiblərini həyatın əbədi olaraq var oluşuna bir daha inandıra biləcək gücdədir. Daş mağarada uca Haqqın ədalətinə sığınıb, ondan mərhəmət gözləyənlər kimi, sonsuzluq qavramını da



kainatın dərinliklərində deyil, şəhərin lap yaxınlığındakı təbiət möcüzəsində axtaranlar üçün Naxçıvanın müqəddəs məkanları, onun Əshabi-Kəhf ziyarətgahı hamının axtardığı bir yerdir.

Əshabi-Kəhf ziyarətgahı haqqında dini-tarixi mənbələr, elmi araşdırmalar kifayət qədərdir. Bu müqəddəs məkan Naxçıvanın Batabatı və Ordubadı ilə birgə hələ çox onillər öncəsindən tanımış, indiki anlyışlarla brend halına gələrək Naxçıvanı dünyada tanıdan simvollardan birinə çevrilmişdir. Keçmişdəki Sovet rejiminin qadağalarına da baxmayraq Əshabi-Kəhfə ziyarətlər heç kəsilməmiş, insanlar ürəyinin hökmü ilə paklığına inandığı nə əməl varsa onu yerinə yetirmək inadından dönməmişdir. İndi isə müqəddəs Əshabi-Kəhf ziyarətgahı da müstəqil Azərbaycanın azad inanc sahibi olan insanları ilə bərabər bütün dünyanın zəvvarlarının və muxtar respublikamıza səfər edən qonaqların ziyarətinə tam açıqdır.

***Əshabi-Kəhf ziyarətgahı üçün təşkil oluna biləcək tur nümunəsi.***

Əshabi-Kəhf ziyarətgahı Naxçıvan şəhərindən təxminən 21 kilometr məsafədə yerləşir. Mövcud təcrübə əsasında bu ziyarətgaha turzərflərin təşkili mümkündür. Əshabi-Kəhf ziyarətgahı Naxçıvan şəhərinə çox yaxın və oraya gediş-gəliş şəraiti çox rahat olduğundan buraya təşkil olunacaq ziyarəti bir neçə saatda da tamamlamaq mümkündür. Ancaq söz yox ki, yüzlərlə və hətta minlərlə kilometr yol



qət edərək Naxçıvana gəlmiş zəvvarın bu diyarda heç olmasa bir neçə günlüyə qalması niyyətləri vardır.

"Naxçıvan-Əshabi-Kəhf" turizm marşrutu üzrə hərəkət edən turistlərin ilk qarşılanacağı yer muxtar respublikanın giriş qapılarıdır. Bu, istər Naxçıvan Beynəlxalq Hava Limanı, istərsə də muxtar respublikanın Sədərək və ya Culfa gömrük-keçid məntəqələrindən biri ola bilər. Ümumiyyətlə, əgər təkcə hava yolu seçilərsə, ölkəmizin paytaxtı Bakıdan və Gəncə şəhərindən başqa Naxçıvana bir saatlıq uçuşla 4-5 ölkədən, iki saatlıq çarter uçuşları ilə 20-dən artıq ölkədən zəvvar cəlb etmək mümkündür. Bu zaman zəvvarların qarşılanması və onların əvvəlcədən rezervasiya olunmuş otelə transfer edilməsi turun ilk gününün vəzifəsidir. Ancaq, əslində, bu proses yaxşı turoperator üçün çətin bir iş deyil, turistlərə Naxçıvanı tanıtmaq üçün əlverişli bir fürsətdir. Gömrük-keçid məntəqələrində və hava limanındakı sürətli və dəqiq xidmət burada işini yerinə yetirən personalın gülərüzlüyü ilə həmahəng olduqda bu iş daha da asanlaşır. Daha sonra isə oteldə yerləşdirilmiş turistlərə "şəhər turu" təqdim olunmalıdır. Müasir Naxçıvan görüntüləri ilə yanaşı, Naxçıvanqala, Nuh peyğəmbərin məzarüstü abidəsi, Möminə Xatun məqbərəsi, Açıq Səma altındakı muzey kimi tarixi zənginliklər müasir şəhərsalma və arxitektura ansamblında turun növbəti günlərində zəvvar turistlərə təqdim





olunacaqdır. İlk günün sonunda turistlərə milli mətbəximizi tanıtmaq üçün Buzxana kompleksindəki milli yeməklərdən sifarişlər etmək mümkündür.

Turun ikinci günü zəvvarların proqramında əsas motiv, yəni Əshabi-Kəhfə səfər vardır. Qeyd edək ki, bu, turistlərin seçiminə görə bir, yaxud iki günlük bir vaxt apara bilər. Əgər qrupda ahıllar və uşaqlar da varsa onda ilin fəslinə görə səfər günortaya qədər, yaxud günortadan sonra yarım gün müddətinə planlaşdırılmalıdır. Bu məqamda Əshabi-Kəhfə özü müstəqil səfər edən insanları və yerli əhalinin də axınını hökmən nəzərə almaq lazımdır. Çünki bu ziyarətgaha ilboyu və günün bütün saatlarında yerli əhali axın edir. Ziyarətgahda insanlara lazım olan tələbatlar normal səviyyədə ödənilsə də hər halda adamların ziyarət əsnasında daha çox sıxlıqdan əziyyət çəkdiyi də nəzərə alınmalıdır. Orta yaşlı insanlara isə bütün gün ərzində ziyarətgahda qalıb istəklərinə görə ziyarət əməllərini yerinə yetirmələri təklif oluna bilər.

"Naxçıvan — Əshabi-Kəhf" turizm marşrutu üzrə üçüncü gün turistlər üşün sərbəst gündür. Bu qayda bir çox yerdə də belədir. Sərbəst gün çərçivəsində zəvvar turistlərimiz Naxçıvanın muzey və kitabxanalarına, hədiyyəlik əşya mağazalarına, bazar və dükanlarına baş çəkmək, Araz çayı mənzərəsini seyr etmək, müxtəlif sosial-mədəni xidmətlərdən istifadə etmək imkanı qazanacaqlar. Qeyd edək ki, müşahidələrimizdə Araz mənzərəsinin turistlər tərəfindən daha çox maraqla qarşılandığını görmək olar.

Və nəhayət səyahətin dördüncü günü turistlərimizə ziyarətlərini yaddaşlarında möhkəmləndirmək üçün Əshabi-Kəhfə xidmət haqqı turfirma tərəfindən ödənilən vida səfəri təşkil olunur. Belə ki, bütün turların sonunda turizm firması qarşıladığı turistlərə öz hədiyyəsini təklif edir. Dini ziyarət turizmində belə bir hədiyyənin inanc mərkəzinə edilən ikinci bir ziyarət olması fikrimcə daha yaddaqalan olar.

### *4. Tanışlıq turları üzrə marşrutlar*

Tanışlıq turları zamanı təqdim olunan məlumatlar turistlərin yaddaşında əsas təəssüratları formalaşdırır. Bu baxımdan, belə turların təşkili zamanı turistlərə təqdim olunması zəruri hesab olunan obyekt və informasiyalar haqqında yaxşı bilik və peşəkarlıq tələb olunur. Tanışlıq turlarının təşkili üçün Naxçıvan şəhəri və Naxçıvan-Əlincə turizm marşrutu üzrə misallara baxaq.

Müasir Naxçıvanın turizm cazibədarlığı xeyli yüksəkdir. Naxçıvan şəhərinin tarixiliyinin qorunub saxlanılması ilə yanaşı, onun müasirliyə qovuşması ilə muxtar respublikaya səyahət edən əcnəbi turistlərin də sayı artmaqdadır. Bölgəyə gəlmiş bu turistlər maraqlı yerlər görmək, naxçıvanlıların həyat tərzi, məşğuliyyəti, mədəniyyəti ilə tanış olmaq istəyi ilə gəzintiyə çıxır və ya onlar üçün xüsusi şəhər ekskursiyaları təşkil olunur. Buna görə də əsas səyahət məqsədi tanışlıq və rekreasiya olan turistlərə təqdim olunan bütün əlavə xidmət və informasiya bu təəssüratları daha da dərinləşdirən amillərdəndir.

Turizm real tələbatlar üzərində yaranıb inkişaf edən və buna görə də turistlərlə iş zamanı reallıqların nəzərə alınmasını tələb edən bir fəaliyyət növüdür. Məsələn, Naxçıvana gəlmiş turislərə Mömünə Xatun türbəsini təqdim edərkən onun Səmərqənddəki Teymurləng dövrünə aid olan abidələrdən iki yüz əvvəl ucaldıldığını çatdırsaq, bu istənilən turistdə böyük təəccüb yaradar. Başqa sözlə, turistlərimiz Naxçıvanın Şərq memarlığının məktəbi olduğunu hökmən bilməlidir.

Naxçıvana gəlmiş qonaqları çox maraqlı tanışlıqlar gözləyir. Turistlərin maraq dairəsi və boş vaxtlarını nəzərə alaraq onlara təklif olunan belə turların planlaşdırılması zamanı buradakı elm, mədəniyyət, təhsil, istehsal, xidmət və əyləncə müəssisələrinin sırasını müvafiq qaydada tərtib elmək olar.



Söz yox ki, mədəni səviyyəsi yüksək olan istənilən qonaq Naxçıvanın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ana vətəni olması faktına böyük maraq göstərir. Müxtəlif məqamlarda şəhərimizə gəlmiş əcnəbi turistlərlə söhbətlərdə Naxçıvanın Azərbaycan tarixində, xalqımızın mədəniyyətindəki yeri ilə bərabər həm də milli müs-təqilliyimizin əldə olunmasındakı rolunun da çox maraqla dinlənildiyni görürük. Odur ki, Naxçıvan şəhəri ilə tanış olmaq istəyən turistlərin ekskursiya proqramında Heydər Əliyev Muzeyi ilə tanışlıq çox maraq kəsb edir.



Naxçıvan şəhəri üzrə tanışlıq turunun birinci günündə Heydər Əliyev Muzeyinə ziyarətdən sonra təşkil olunan ekskursiya şəhərin cənub-şərq hissəsində yerləşən "Koroğlu" heykəlinə baxış və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi üzrə davam etdirilir. Şübhəsiz "Naxçıvan" toponominin Nuh Peyğəmbərin adı ilə bağlı olması və buranın qədim şəhər mədəniyyəti haqqında danışmaq üçün bu kom-pleksdə kifayət qədər çox maddi-mədəniyyət nümunəsi var. Naxçıvanqala cənub-şərq istiqamətdən şəhərin mərkəzinə girəcəkdə yerləşir.



Qalaya daxil oduqda buradakı tarix izləri turistlərə özü hər şeyi deyir.

Naxçıvanqalada və ona yaxın Nuh Peyğəmbərin məzarüstü türbəsində təşkil olunmuş ekskursiya və peşəkar təqdimat turistlərin asudə vaxtının səmərəli keçməsinə imkan yaradır. Əgər nahar fasiləsi də yaxınlıqdakı Nuh yurdu restoranında sifariş olunmuşsa, bu, ekskursiya təşkili baxımından uğurlu olacaqdır. Daha sonra, "Buzxana" tarix-memarlıq abidəsində turistlərə təklif olunan çay süfrəsi, buranın ab-havası qonaqların yaddaşında uzun müddət yaşayacaqdır.

Turun ilk gününün ikinci yarısı turistlərin Naxçıvanın Duzdağı ilə tanış olması üçün əla vaxtdır. Təqribən saat 6-ya qədər, yəni burada müalicə olunan pasientlərin gəlişinə qədər tur qrupuna Duzdağın tarixi, onun müalicəvi əhəmiyyəti və imkanları haqda geniş informasiya vermək mümkündür. Bu zaman fasiləsində Duzdağın sərin və oksigenlə zəngin havasında yaxşıca



dincəlmiş turistlər axşama yaxın Qıvraq şəhərindəki milli yeməklər üzrə servis göstərən restorana, təndir kababına qonaq ediləcək.

Naxçıvan şəhəri üzrə turun ikinci günü daha mənalıdır. İlk olaraq, şəhərin cənub hissəsində ucaldılmış xalq qəhrəmanı Babəkin atlı heykəli ilə tanışlıq yerinə düşər. Ümumiyyətlə, Naxçıvan şəhərinin meydanları özünün atlı heykəlləri ilə diqqəti cəlb edir. Şəhərə doğru dönüşdə "Naxçıvan" Universitetinin müasir kampusu ilə tanışlıq qonaqların təəssüratlarında tarix və müasirlik anlayışının necə sintez olunduğunu möhkəmləndirəcək. Nahara qədər Xan Sarayı,



Möminə Xatun türbəsi və Açıq Səma Altında Muzey Kompleksində keçirilən bir neçə saat vaxt ərzində turistlər Naxçıvanın qədim tarixinə bir daha şahidlik etmək imkanı qazanacaqlar. XII əsr Azərbaycan memarlıq məktəbinin görkəmli nümayəndəsi Memar Əcəminin yaratdığı bu möhtəşəm əsər və onun yaxınlığındakı Açıq Səma Altında Muzey bu bölgədə analoqu olmayan bir tarixi zənginlikdən xəbər verir. Nahar yeməyindən sonra Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanışlığı şəhərin ümumi panoraması ilə tanışlıq üçün yaxşı imkandır. Bundan sonra şam yeməyinə qədər turistlərə ənənəvi olaraq sərbəst vaxt vermək mümkündür.

**Naxçıvan-Əlincə turizm marşrutu**

Tanışlıq-dərketmə əksər turizm növləri üçün əsas motivlərdən hesab olunur. Ona görə də Əlincə marşrutu boyunca yol və zaman seçimi düzgün hesablanmalıdır. Ümumiyyətlə, Əlincəyə istər Naxçıvan şəhərindən, istərsə də muxtar respublikamızın giriş qapılarından biri olan Culfa şəhərindən olan məsafə çox da uzaq olmadığından bir günlük ekskursiya zamanı kifayət qədər rekreasiya ehtiyatları ilə tanışlıq mümkündür. Cəmi 30 kilometr məsafədə yerləşən unikal təbiət və insan əli abidələri, landşaft-rekreasiya məkanları planlı və düzgün tərtib olunmuş marşrutda şübhəsiz, dərhal öz qiymətini tapacaqdır.



Naxçıvan-Əlincə turizm marşrutunun mühüm bir hissəsi Əlincə çayı boyu uzanır. Bu çay yatağı boyunca yerləşən yaşayış məntəqələri, tarixi insan məskənləri öz unikal

zənginlikləri ilə təkcə Naxçıvanın deyil, eyni zamanda ölkəmizin tanınmış yerlərindəndir. Bu marşrutda hərəkət edərkən bir-birindən çox uzaq olmayan Çeşməbasar, Güznüt, Ərəzin, Qızılca, Əbrəqunus, Bəbəniyar, Kırna, Saltaq, Göydərə, Əlincə, Xoşkeşin, Xanəgah kimi kəndlər və onların müasir sosial-iqtisadi inkişafı qonaqlara təqdim oluna bilər. Bu marşrut boyunca üz-üzə dayanmış iki möhtəşəm təbiət abidəsi — Haçadağ və Əlincə qalası öz cazibə gücünü ortaya qoyur.

Naxçıvan-Əlincə turizm marşrutu üzrə səyahətin əsas motivləri turistlərin Naxçıvana gəlişindən xeyli əvvəl formalaşır. Başqa sözlə, indiki informasiya bolluğu şəraitində Əlincə qalası haqqında kifayət qədər virtual məlumat alan turistlərin bu yerlərə gəlməsiylə bu təsəvvürlərin real da olması mümkün olur. Bu baxımdan, Əlincə istiqamətində yola çıxarkən ümumilikdə Naxçıvnın tarixi haqqında qısa da olsa ümumi bir giriş verilməsi tələb olunur. Bu mənada turistlər bilməlidirlər ki, tarixi İpək Yolu üzərindəki Naxçıvan öz coğrafi mövqeyi, qədim şəhər mədəniyyəti və yadelli basqınlardan müdafiə olunmaq bacarığı ilə ad çıxarmışdır. Əlincə yolu ilə səyahət edən turistlər də bilməlidirlər ki,



Naxçıvanın qədim tarixi Azərbaycan tarixinin mühüm bir hissəsidir. Naxçıvan cəmisi yüz il əvvəl tarixi ədalətsizlik nəticəsində Azərbaycandan aralı düşsə də bu şəhər Atabəylər dövlətinin paytaxtı kimi dünyada tanınırdı. Əlincə qalasına çatan turistlər bir daha inanacaqlar ki, necə olub ki,



Səmərqənddən Bağdada qədər dünyanın az qala yarısını tutmuş bir fateh 14 il ərzində Əlincə qalasına bata bilməyib.

Əlincəqala təkcə müdafiə məqsədli bir istehkam olmayıb. Bu qala, xüsusən, orta əsrlərin feodal dövlətləri dövründə bir xalqın yaratdığı mədəniyyət incisi, dövlətçiliyin, iqtisadiyyatın güc simvoludur. Buraya gələn turistlər bilməlidir ki, təkcə dünyada deyil, Azərbaycanın, eləcə də Naxçıvanın müxtəlif yerlərində Əlincədən daha yüksəkdə yerləşən sərt sıldırımlı qayalıqlar vardır. Amma tarixi zaman ərzində bunların bir qala kimi istifadə olunaraq starteji əhəmiyyət kəsb etməsi və müəyyən çətin dövrlərdə dövlətin alınmaz qalası olması üçün müəyyən şərtlər tələb olunurdu. Odur ki, turistlərə Əlincəqalanın tarixi haqqında danışarkən onun müdafiə məqsədli xüsusiyyətləri ilə yanaşı strateji mövqeyi və orta əsrlərdə təkcə Naxçıvanda mövcud olmuş feodal dövlətləri üçün deyil, həm də o dövrdə Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq ölkələri üçün nə dərəcədə əhəmiyyətli olduğu vurğulanmalıdır. Misal üçün, tarixi mənbələrə görə, paytaxtı Naxçıvan şəhəri olmuş Atabəylər dövlətində, Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlərin məhz Əlincəqaladakı xəzinədə toplanması, o dövrlərdə məhz buradakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizələr getdiyi, bir çox Eldəniz hökmdarlarının ən çətin vaxtlarda məhz Naxçıvana sığınması tarix həvəskarları olan turistlər üçün çox qiymətli məlumatlardır. Yaxud, sonuncu Atabəy hökmdarı Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından qorunmaq üçün onun Naxçıvanda məskunlaşması Əlincəqala kimi möhkəm müdafiə oluna bilən bir qalanın yaratdığı inamdan doğur. Turistlər hiss etməlidir ki, Əlincənin zirvəsinə qalxmaq sadəcə dəniz səviyyəsindən təqribən 1500 metr yüksəklikdəki bir zirvəyə dırmanmaq deyildir. Bura elə bir zirvədir ki, XIV əsrin sonlarında tam 14 il ərzidə yadelli ordular onun zirvəsinə

həsədlə baxıblar. Ancaq, mədəniyyətin, səbir və inamın nəticəsidir ki, indi Əlincə qalası hər gün çox sayda yerli və xarici turisti özünə çağırır.



Əlincənin zirvəsinə qədər gəlib çatmış turistlərdə qeyri-adi təsəvvürlər formalaşır. Bir çox hallarda əcnəbilərlə, ümumiyyətlə Naxçıvana ilk dəfə gələn turistlərlə ünsiyyət zamanı belə hal müşahidə olunur. Şübhəsiz, Əlincənin əzəməti, nəhəng qayalar üzərində şahların səltənətinə meydan oxumuş qəhrəman qala müdafiəçilərinin ayaq izləri buraya gələn hər bir kəs üçün dərin maraq obyektidir. Tarixi mənbələrə görə bu müdafiəçilərin sayı altı yüzdən artıq olub. Əgər qala ilə tanışlıq zamanı qanadlarını gərərək Əlincə səmalarında süzülən dağ qartalları peyda olarsa, bu, həmin ekskursiyada iştirak edən turistlər üçün bir də əla fotoovçuluq fürsəti olacaqdır.

Əlincəqalanın qədim hekayəsini danışan bələdçi üçün ilk olaraq qalanın təkcə bir müdafiə istehkamı deyil, həm də Naxçıvan memarlıq məktəbinin ən gözəl nümunələrindən biri olduğunu qeyd etməlidir. 2014-2015-ci illərdə Əlincəqala bərpa olunarkən onun ərazisindən tapılmış maddi-mədəniyyət nümunələri, məişət əşyaları burada uzun müddət ərzində formalaşmış insan məskənlərindən xəbər verir. Əlincəqaladan tapılmış VII əsrə aid mis və gümüş sikkələr bu barədə maddi sübutlar kimi təqdim olunmalıdır.

Qalanın quruluşu ilə tanışlıq turistlərin buraya daxil olduğu qərb girişindən başlayır. Tarixi mənbələrə görə,



qalanın iki, bəzən isə üç giriş qapısı olması barədə fikirlər vardır. Tarixi mənbələrə görə Xanəgah kəndi tərəfdə yerləşən şərq girişi qalanın əsas giriş yollarından biri olsa da qərb yamacı boyunca çəkilmiş müdafiə divarları, onların bərpadan sonrakı görünüşü turistlərdə böyük maraq oyadacaqdır. Qalanın mərkəz hissəsinə daxil olan turistlər bir anda özlərini qədim bir şərq şəhərindəymiş kimi hiss edəcəklər. Xüsusən qalanın gecə işıqlandırması zamanı bu daha möhtəşəm görünür. Qalanın ən böyük sahəsini tutan bu hissədə qədim qala sakinlərinin istifadə etdikləri yaşayış binaları və ictimai binaların quruluşu və əhəmiyyəti təqdimat zamanı xüsusilə, diqqətə çatdırılmalıdır. Belə ki, çox geniş olmasa da qalanın mərkəzi hissəsində insanların yaşaya bilməsi üçün mövcud yerlərdən maksimum dərəcədə səmərəli istifadəyə çalışılıb. Xüsusən, ekskursiya zamanı turisitlərə yaşayış sahəsi kimi istifadə olunmuş yerlər, burada üzə çıxarılmış qədim təndirlər, həvənglər, əl dəyirmanları maddi mədəniyyət nümunələri kimi təqdim olunmalıdır. Xüsusən, yaşayış sahəsi kimi istifadə olunmuş birotaqlı mənzillər əcənəbi turistlərə xalqımızın min il öncəsindəki həyat tərzini, yüksək mədəniyyətini göstərən mühüm maraq obyektidir. Turistlər bilməlidirlər ki, burada müdafiə olunmuş insanlar nə qədər ağır və ekstremal bir şəraitdə yaşasalar da ümumi mədəniyyətdən kənara çıxmamışlar.

Əlincəqalanın turistlərdə maraq doğuran digər mühüm hissəsi yerli əhali arasında "Şahtaxtı" da adlandırılan Əlincənin iç qalasıdır. Bura dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir və çətin keçilə bilən sıldırım qayadan keçilir. Odur ki, buraya qalxmaq ekstremal yürüş həvəskarları üçün əsl fürsətdir. Şahtaxtına qalxmaq istəyən turistlər bilməlidir ki, bir zamanlar qalaya hökmranlıq etmiş şahların iqamətgahları məhz burada yerləşib. Şahtaxtında turistlərin görmək istədiyi çox maraqlı yerlər arasında bir-biri ilə dar keçidlə əlaqələndirilmiş kiçik otaqlar və hövuzlar vardır. Bu

hovuzlardan da biri həcminə görə Əlincəqalada mövcud olan ən böyük hovuzdur.

Əlincəqalada uzun illər müdafiə olunaraq ad-san çıxarmış insanların qəhrəmanlığı və onların bu sərt qayalıq şəraitində ərzaq və su təminatı istənilən səyahətçidə böyük maraq yaradır. Bələdçi məhz bu motivlər üzərində təqdimat quraraq Əlincəqalaya səfər edən turistləri dərin təəssüratla yola sala bilər. Doğurdan da, çətin şərtlər altında yaşayan insanların sözün əsl mənasında necə daşdan çörək və su çıxara bildiyini göstərmək üçün Əlincəqaladan daha əyani nümunə ola bilməz. Ona görə də Əlincəqaladakı tarixi hidrotexniki qurğularla tanış olan turistlərin nəzərində "mübarizə" anlayışı haqqında tamamilə başqa bir təsəvvür yaranır. Əlincəqalada, habelə, qalanın yuxarı hissəsindəki Şahtaxtında inşa olunmuş su hovuzları və bunları doldurmaq üçün qayada çəkilmiş kanallar turistlərdə böyük maraq doğurur. Şübhəsiz, Əlincəqalanın sərt qayalarında primitiv baltalarla böyük səbir və zəhmətlə çapılmış su hovuzlarına, bunlara su gətirən və bəzilərinin uzunluğu 200 metrə çatan kanallara tamaşa etdikdə bunun arxasında nə nədər böyük yurd sevgisi gücünün dayandığını görməmək mümkün deyil. Bu hidrotexniki qurğulara baxan turistlərə bildirilməlidr ki, bunlar Naxçıvana səyahətləri zamanı onlara təqdim olunacaq müasir derivasiya tipli iri su elektrik stansiyalarının əslində qədim əcdadıdırlar. Beləliklə, Əlincəqalaya səyahət zamanı buradakı hovuzlar və kəhrizlərlə tanış olan turistlər tarixin müəyyən dövrlərində qalanın uzun müddət ərzində necə müdafiə olunduğunun sirləri ilə canlı tanış ola bilərlər.

Turizm təşkilatçılığı zamanı turistlərin motivlərinə görə onların səyahət marşrutlarının seçilməsi əsas məqamlardandır. Odur ki, Əlincəyə səyahət edən turistlər üçün əsas motiv tarix və mədəniyyət olduğundan buraya səfər edən hər bir kəs qalanın Azərbaycan xalqının, onun milli dövlətçilik tarixindəki əhəmiyyəti haqqında məlumatları böyük maraqla



dinləyəcəklər. Belə ki, Əlincəqala haqqında XIV əsr sonları, XV əsrin əvvəllərinə aid dövrləri əhatə edən tarixi hadisələr geniş yayılsa da, daha qədim mənbələrdə qalanın yaranma tarixinin eramızın ilk yüzilliklərinə qədər olduğu sübut edilib. Bu baxımdan qala ərazisində tapılmış və hazırda buradakı muzeydə nümayiş etdirilən VII əsrə aid gümüş sikkə böyük maraq obyektidir. Şübhəsiz, Əlincənin Azərbaycan Atabəyləri—Eldənizlərin hakimiyyəti dövründəki hərbi-strateji və iqtisadi-siyasi əhəmiyyəti ilə yanaşı, Cəlairlər, Qaraqoyunlular, Səfəvilər və hətta Osmanlı dövründə də mühüm əhəmiyyəti də qeyd olunmalıdır. Məhz bu yolla, orta əsrlər dövründə Səmərqənddən Bağdada, İstanbuldan Təbrizə qədər geniş bir ərazidə baş vermiş hərbi-siyasi və iqtisadi proseslərdə Əlincənin rolu izah olunduqca turistlərin Azərbaycan, Naxçıvan haqqındakı təsəvvürləri birə-beş artacaq, dünyagörüşləri dərinləşəcək.



Əlincəqala Azərbaycan xalqının milli sərvəti, dünya mədəni mirasının mühüm xəzinəsidir. Yüzillər boyu bu möhtəşəm təbiət və insan əli möcüzəsi müxtəlif məqsədli maraq obyekti olub. Bu mənada turistlər bilməlidir ki, Əlincə qalası və bütövlükdə qalanın ətraf Əlincəçay vadisi müxtəlif tarixi yer, hadisə və şəxsiyyətlərin həyatı ilə bağlı çox maraqlı faktlarla zəngindir. Turizm cazibədarlığı baxımından bunlara bir ehtiyat kimi yanaşılması və hər birinin ayrıca bir ekskursiya proqramı şəklində tanıdılması mümkündür. Odur ki, Əlincəyə gəlmiş turistlərə qalanın və "Əlincəqala" Tarix-Mədəniyyət Mu-

zeyinin təqdimatından sonra ümumi proqramın son bölümü kimi həmin ehtiyatlarla da tanış etmək mümkündür.

Əlincəqala ilə tanışlıqdan sonra turistlərin təəssüratlarını daha da dərinləşdirəcək mühüm obyektlərdən biri Əlincəqalanın şərq tərəfində yerləşən, hazırda Xanəgah kəndinin əhalisi tərəfindən məscid kimi istifadə olunan türbə mühüm əhəmiyyət kəsb edir. Qala və onun ətrafı haqqında mühüm yazılı mənbə kimi bu kitabə turistlərdə böyük maraq doğuracaq. Bu kitabədə əks olunan faktlar heyrət doğurucudur. Kitabə üzərində ərəb dilindəki yazılara əsasən, bu türbə XV əsrdə "Həqiqi" təxəllüsü ilə şeirlər yazmış Qaraqoyunlu hökmdarı Bahadır xan Cahanşahın dövründə Əlincəqalanın yadelli işğalçılardan müdafiəçilərinin xatirəsinə tikilib. Şübhəsiz, əsrlərin sınağından keçib gələn bu mədəniyyət abidəsi ilə tanışlıq hər kəsdə olduğu kimi tarix həvəskarları olan turistlər üçün də maraqlıdır.

Naxçıvan Şərqin mühüm düşüncə mərkəzlərindən biridir. Qədim dövrlərdən burada yaşamış insanların haqqədalət mübarizəsi və dini-fəlsəfi cərəyanların təsiri ilə dünyaya baxışları əsasında formalaşmış Naxçıvan məktəbi keçmişdə olduğu kimi bu gün də bəşəriyyətə və Yaradana sevgi, insana tolerantlıq hissləri ilə bütün dünyaya nümunə olmaqdadır. Bu baxımdan Əlincəqalanın ətrafındakı yaşayış məntəqələrində, xüsusən Xanəgah və Saltaq kəndləri ərazisində mövcud olmuş sufizmin izlərini özündə yaşadan kitabələr, habelə Xanəgah kəndindən bir kilometr şərqdə yerləşən kompleksdəki yazılı mənbələr mühüm epiqrafik abidələr kimi turistlərdə də böyük maraq doğurur.

Əlincəçay vadisi orta əsrlərdə mühüm ticarət yollarının keçdiyi məkan olub. Əlincəyə gələn turistlər qədim tarixi mənbələrlə üzbəüz tanış olduqca Əlincəqala və ətrafındakı zənginliklərin mədəniyyətlərarası dialoq üçün nə qədər zəngin əhəmiyyət daşıdığına şahid olacaqdır. Şübhəsiz, burada minillik yaşı olan insan izləri, bizə miras qalmış maddi-



mədəniyyət nümunələri, daş kitabələr, hidrotexniki qurğular və məişət əşyaları bugünkü nailiyyətlərmizin tarixi kökü və qədim əcdadı kimi hər birimiz üçün qiymətlidir. Bu baxımdan, Əlincə Xanəgahı ilə tanış olan turistlər görəcəklər ki, Xanəgah kompleksindəki türbə-məscid o dövrlərdə hansısa bir hökmdarın şöhrəti üçün tikilmiş sadə bir abidə deyildir. Qədim Şərqin təfəkkür mərkəzi kimi Naxçıvanda yaşamış fəzilət sahibi insanlara verilən qiymət hələ o vaxtlar cəmiyyətdəki sosial münasibətlərin əsas vektoru olub və dünya əhəmiyyətli bu abidənin də mühüm tarixi şəxsiyyətlərin adı ilə bağlı olması təsadüfi deyildir. O dövrə görə dərin dini-fəlsəfi fikirlərə əsaslanan hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi olmuş Fəzlullah Nəiminin burada dəfn olunması, sonradan buranın onun ardıcılları tərəfindən bir ziyarətgaha çevrilməsi turistlər üçün olduqca maraqlı faktlardır. Xanəgahdakı təqdimat zamanı orta əsrlərdə bu torpaqlarda meydana gəlmiş hürufiliyə insanın Yaradana məxsus ən ali, ən kamil bir məxluq olduğunu və dolayısı ilə insan qanı tökən hər bir kəsin də Allaha qarşı günah işlətdiyini bildirən bir təlim kimi yanaşılması buraya gəlmiş turistlər üçün çox düşündürücü olacaq.

Azərbaycan hələ qədim dövrlərdən özünün elm adamları ilə tanınıb. Elmə və elm adamlarına olan dərin hörmət isə hələ orta əsrlərdə də xalqımızın iqtisadi-mədəni həyatında mühüm münasibətlərdən biri olub. Xanəgahdakı abidələrlə, xüsusilə burada dəfn olunmuş Şeyx Hacı Lələ Məliyin qəbirüstü xatirə abidəsi ilə tanışlıq zamanı bu xüsusa diqqətləri cəlb olunan turistlər biləcəklər ki, hələ XV əsrdə Avropa cəmiyyətində qadının ən sadə insan hüquqları olmadığı bir vaxtda, həmin dövrdə burada yaşamış qadınlar cəmiyyətin tamhüquqlu üzvü olublar. Yuxarıda adı çəkilən sufi şeyxinin xanımı olmuş və ərinin xatirəsinə möhtəşəm türbə-məscid inşa etdirmiş Həvva Bədr Bikə xanım haqqında

əcnəbi turistlərə danışdıqa, şübhəsiz, onların əksəriyyəti dünyanı yenidən kəşf etmiş kimi dərin təəssürat alacaqlar.

Əlincəqala eyni zamanda xalqımızın dövlətçilik tarixində mühüm yer tutan, onun qəhrəmanlıq mübarizəsini, bütün çətinliklərə qarşı elbirliyi ilə necə sinə gərməyin və keçmişə sahib çıxmağın canlı örnəyini göstərən dünya əhəmiyyətli bir abidədir. Bu baxımdan Əlincəqala haqqında qonaqlara məlumat verərkən onun müasir dövrdəki bərpasının təsadüfi bir iş olmadığınnı, bunun Azərbaycan xalqının dövlətçilik tarixindəki müsbət ənənələrin uğurlu davamı olduğu diqqətçəkici məqamdır. Belə ki, XVI əsrin əvvəlində yaranıb və 235 il davam etmiş Səfəvilər dövlətinin ilk illərində də Əlincəqalada bərpa və abadlıq işləri aparılmış, bir sıra memarlıq abidələri — bürc, darvaza, müdafiə istehkamları inşa edilmişdir. Əlincəqalanın cənub tərəfindəki Saltaq kənd məscidində bu mühüm tarixi faktı sübut edən və xalqımızın tarixində mühüm yer tutan I Şah İsmayılın da adının çəkildiyi kitabə ilə tanışlıq bir daha sübut edir ki, Naxçıvan ərazisi tarix, mədəniyyət və tanışlıq-dərektmə məqsədilə səyahət edən hər bir turist üçün nə qədər cazibədar və əlverişli bir məkandır.

## 5. Naxçıvan şəhər Xatirə muzeyinə ekskursiya

Muzeylərlə tanışlıq turist və ekskursantlarda həmişə zəngin təəssürat yaradan turizm fəaliyyətlərindəndir. Muzeylər mədəni irsin qorunması və təbliğində, gənc nəslin bədii və estetik tərbiyəsinin yüksəldilməsində, elmi dünyagörüşünün zənginləşdirilməsində böyük əhəmiyyətə malik turizm obyekilərindəndir. Konkret bir ərazinin turizm potensialının artırılmasına xidmət edən muzeylər eyni zamanda elm, maarif müəssisəsi olmaqla da keçmişlə bu günümüz arasında körpü rolunu oynayır.



Naxçıvan özünün tarixi keçmişi və zəngin mədəniyyəti ilə həmişə tanınıb. Bu baxımdan muxtar respublika ərazisində fəaliyyət göstərən muzeylər Naxçıvanın keçmişi və bu günü haqqında ziyarətçilərə, o cümlədən turist və ekskursantlara geniş informasiya verən mühüm mədəniyyət müəssisələri hesab olunurlar.

Hazırda muxtar respublikada 23 müxtəlif profilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Bunlardan 12-si paytaxt Naxçıvan şəhərindədir. Bu muzeylərdən biri də Xatirə muzeyidir. Buraya gələn turistlərə ilk olaraq bildirilməlidir ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə 14 yanvar 1997-ci il tarixində Şəhidlər muzeyi adı altında fəaliyyətə başlayıb. 2000-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 8 avqust tarixli əmrinə əsasən adı dəyişdirilərək Xatirə muzeyi olub. Muzeyin təqdimatında turistlər ilk olaraq bilməlidirlər ki, Xatirə muzeyində hazırda 2000-ə yaxın eksponat vardır və burada XIX əsrin sonlarından XXI əsrin əvvəlinədək erməni daşnaklarının Azərbaycan torpaqlarında törətdiyi qanlı cinayətləri, soyqırımları əks etdirən sənəd və materiallar, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş azərbaycanlıların fotoşəkilləri, şəxsi əşyaları qorunub saxlanılır.

Muzeyin ekspozisiyası xronoloji ardıcıllıqla qurulub. Ona görə də muzeylə tanış olan ekskursantlar 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı cinayətlər, 1937-1938-ci illərin repressiyası, 20 Yanvar faciəsi, Xocalı soyqırımı qurbanları, Sədərək döyüşləri şəhidləri və habelə 1941-1945-ci illər müharibəsinin iştirakçılarına haqqında xronoloji qayadada məlumat ala bilərlər.

Muzeydəki eksponatların təqdimatına başlamazdan turistlərə əvvəlcə Azərbaycan xalqı və dövlətinin öz şəhidlərinə necə hörmətlə yanaşdığı, onların xatirəsinin əbədiləşdirilməsi üçün görülən tədbirlər haqqında məlumat

verilməldir. Bu məqsədlə, ilk olaraq ümummilli lider Heydər Əliyevin 1918-ci il 31 mart azərbaycanlıların soyqırımı ilə bağlı 26 mart 1998-ci ildə verdiyi fərmanın süräti, "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında 31 mart 1998-ci ildə verdiyi fərmanın süräti, "20 Yanvar şəhidi" fəxri adı haqqında əsasnamənin təsdiq edilməsi barədə 29 dekabr 1998-ci ildə verdiyi fərmanın surəti, 1948-1953-cü illərdə baş vermiş deportasiyaya hüquqi-siyasi qiymət verilməsi haqqında 18 dekabr 1997-ci ildə verdiyi fərmanın surəti, "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında 17 yanvar 2000-ci ildə verdiyi fərmanın surəti, Ümummilli lider Naxçıvanda Şəhidər xiyabanını ziyarət edən zaman çəkilmiş fotoşəkilləri və şəhidlər haqqında dediyi sözlər barədə məlumat verilir.

Xatirə muzeyinə gələn turistlərə azərbaycanlıların məruz qaldığı soyqırımı haqqında danışarkən bildirilməlidir ki, çar Rusiyası Qafqazdakı öz mövqeyini gücləndirmək üçün hələ XIX əsrin ortalarından başlayaraq ermənilərin Azərbaycanın müxtəlif bölgələrinə köçürülməsi siyasətini yeridib. Çar Rusiyası ilə İran arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra İrandan və Türkiyədən Naxçıvan, İrəvan və Qarabağ xanlıqları ərazisinə yüz minlərlə erməni köçürüldü. Nəticədə, XIX əsrin sonları etibarilə ermənilər bu yerlərdə azərbaycanlılara qarşı silahlı basqın və quldurluq hərəkətlərinə başladılar. 1905-1907-ci illərdə ermənilər Azərbaycanın müxtəlif bölgələrində, Bakıda, Zəngəzurda, İrəvanda, Qazaxda, Naxçıvanda, Ordubadda azərbaycanlılara qarşı kütləvi qırğınlar, talanlar törədiblər. Vurğulanmalıdır ki, həmin illərdə ermənilər təkcə Gəncə-Qazax quberniyalarında 200 kənd, Şuşa-Cəbrayıl qəzalarında 75 kəndi yandırıb, əhalini kütləvi şəkildə qırıblar. Bu məlumatlar muzeydəki güşədə 1905-1907-ci illər soyqırımı haqqında məlumat və o dövr hadisələrini özündə əks etdirən xəritə və fotoşəkillərin müşayiəti ilə turistlərə təqdim olunmalıdır.



1905-1907-ci illərdə törədilən qanlı cinayətlərin davamı kimi 1918-ci ilin mart hadisələrində ermənilər üç gün ərzində təkcə paytaxt Bakı şəhərində 12 min soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. Sonrakı günlərdə, 1918-ci ilin mart, aprel və may aylarında ermənilər Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Göyçayda, Salyanda və Lənkəranda kütləvi qırğınlar törədib, 50 mindən çox soydaşımızı qətlə yetiriblər. Qırğınlar İrəvan quberniyası ərazisində, Qarabağda, Zəngəzurda və Naxçıvanda daha amansız şəkildə törədilib. Rus ordusundan aldıqları döyüş sursatı ilə silahlanmış erməni quldur dəstələri 1918-ci ilin mart ayında Naxçıvan bölgəsinin müxtəlif yerlərində dəhşətli qırğınlar törədiblər. Onlar Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kəndlərinə basqınlar edib, əhaliyə divan tutub, qadınları, uşaqları, qocaları belə öldürüblər. Turist və ekskursantlara bu hadisələr haqqındakı məlumatlar bununla bağlı muzeydə nümayiş etdirilən fotoşəkillər və xəritə ilə təqdim olunur.

Muzeydəki növbəti guşədə həmin dövrdəki hadisələrdə ermənilərin Naxçıvanda törətdiyi hadisələrə dair faktlar təqdim olunur. Belə ki, erməni Andronikin başçılıq etdiyi silahlı dəstə 1918-ci ilin avqust ayında Naxçıvana daxil olaraq Naxçıvanın dinc əhalisinə divan tutublar. Ermənilər, xüsusən, Yaycı kəndində və Ordubadda on minlərlə azərbaycanlını qətlə yetirmişlər.

Xatirə muzeyini ziyarət edənlər üçün 1948-1953-cü illərdə baş vermiş köçürmə siyasətindən danışarkən izah olunmalıdır ki, 1947-ci il 23 dekabrında İ.V.Stalinin imzaladığı qərara əsasən azərbaycanlilar öz ata-baba torpaqlarından Kür-Araz ovalığına köçürülməli, yerinə isə erməni milləti yerləşdirilməli idi. Qərara əsasən 1948-ci ildə 10 min nəfər, 1949-ci ildə 40 min nəfər, 1950-ci ildə 50 min nəfər olmaqla, ümumən, 100 min nəfər azərbaycanlı öz ata-baba torpaqlarından didərgin salındılar. Onların yerinə isə Sudandan, Liviyadan, Almaniyadan, Amerikadan gətirilmiş 10 min

ermәni yerlәşdirildi. Muzeyin bu güşәsindә hәmin dövrdәki köçürmә zamanı çәkilmiş foto şәkillәr, köçürmә siyasәti haqqında mәlumat vә Stalinin imzaladığı qәrarın Azәrbaycan vә rus dillәrindә nüsxәlәri nümayiş olunur.

Xatirә muzeyindә 1941-1945-ci illәr müharibәşi haqqındakı guşә ekskursantlarda böyük maraq doğurur. Belә ki, bu müharibәyә Azәrbaycandan 700 mindәn çox döyüşçü getmiş, bunlardan 300 minә yaxını hәlak olmuş, 2000-ә yaxını orden vә medallarla tәltif olunmuşdur. Naxçıvandan isә bu müharibәyә 29 min 500 nәfәr getmiş, 15 min 500 nәfәr müharibәdә hәlak olmuş, 3691 nәfәr itkin düşmüşdür. Cәbhәdә göstәrdiklәri qәhrәmanlıqlara görә 130 nәfәr azәrbaycanlı Sovet İttifaqı Qәhrәmanı adına layiq görülmüşdür. Bu qәhrәmanlardan 3 nәfәri — Qәzәnfәr Әkbәrov, Abbas Ouliyev vә Nәcәfqulu Rәfiyev naxçıvanlıdır. muzeydә qәhrәmanlarımızın foto şәkillәri vә tәrcümeyi-halları nümayiş olunur.

1990-cı ilin 20 yanvar faciәsi Azәrbaycan xalqının tarixinә hәm faciә, hәm dә qәhrәmanlıq sәhifәsi kimi daxil olub. Xatirә muzeyindәki tanışlıq zamanı bu haqda mәlumat verәn bәlәdçi 1990-cı il yanvarın 19-dan 20-nә keçәn gecә Sovet ordusunun Bakı şәhәrinә hücum edәrәk, qanlı qırğın törәtmәsi barәdә geniş mәlumat verir. Bu faciәdә Bakı vә әtraf rayonlarda 134 nәfәrin şәhid oldu, 600-dәn artıq insan yaralandı, 841 nәfәr isә qanunsuz olaraq hәbs edildi. Bu haqda turistlәrә mәlumat verәn bәlәdçi ekskursantların diqqәtini 20 Yanvar faciәsinә dair çәkilmiş foto şәkillәrә vә ermәni işğalının qısa xronologiyasına yönәltmәlidir. Burada turistlәrә izah olunmalıdır ki, bu hadisәlәr tәkcә Sovet qoşunlarının Bakıda törәtdiyi qanlı cinayәtlәrlә tamamlanmayıb. Hәmin әrәfәdә Azәrbaycanın ayrılmaz tәrkib hissәsi olan Naxçıvan Muxtar Respublikasının sәrhәd kәndlәrinә dә ermәni silahlılarının işğalçı hücumları olub. 1990-cı il yanvarın 15-dә Şәrur rayonunun Kәrki kәndi sovet ordusunun kömәyi ilә ermәnilәr tәrәfindәn işğal edilib. Qanlı Yanvar hadisәlәrinin



törәdilmәsindәn 8 saat әvvәl Sәdәrәyә, muxtar respublikanın digәr sәrhәd kәndlәrinә ermәni silahlı dәstәlәrinin hücumları başlayıb. Burada vurğulanmalıdır ki, әrazi bütövlüyümüz uğrunda döyüşlәrdә naxçıvanlılar düşmәnә qarşı mәrdliklә, qәhrәmancasına mübarizә aparıblar, şәhidlәr verib, Naxçıvanı qoruyub saxlayıblar. Sәdәrәyin müdafiәsi zamanı Naxçıvan ilk şәhidlәrini verdi. Turistlәrin diqqәtinә çatdırılmalıdır ki, bu tarixdәn 1993-cü il avqust ayının 13-dәk Sәdәrәk 14 dәfә ermәnilәrin ağır zirehli texnikası vә güclü hücumlarına mәruz qalmış, bu hücumlar nәticәsindә Sәdәrәkdә 109 mәrd oğlumuz şәhid olmuşdur. Muzeyin әn dәyәrli eksponatlardan biri olan, Sәdәrәyin könüllülәrdәn ibarәt özünümüdafiә dәstәsinin 1990-cı ildә çәkilmiş foto-şәklinin qarşısında turistlәrin diqqәti yurdumuzu qәhrәmanlıqla müdafiә etmiş döyüşçülәrә yönәldilmәli, onlar öz tәrcümeyi-halları ilә tanıdılmalıdır.



Xocalı faciәsi Azәrbaycan xalqının tarixinә әn qanlı vә dәhşәtli günlәrdәn biri kimi daxil olmuşdur. XX әsrdә baş verәn bu hadisә tәkcә Azәrbaycan xalqına qarşı deyil bütün bәşәriyyәtә qarşı yönәdilmiş soyqırımdır. Odur ki, Xatirә muzeyinә gәlmiş әcnәbi ziyarәtçilәrә Xocalı soyqırımının Xatın, Xirosima soyqırımları ilә eyni dәrәcәdә dәhşәtli bir akt olduğunu göstәrmәk lazımdır. Bildirilmәlidir ki, 1992-ci il fevralın 25-dәn 26-na keçәn gecә ermәni qoşunları, Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilә Xocalı şәhәrinә basqın edib lәr. Nәticәdә 26-sı sәhәr saat 5 radәlәrindә şәhәr tamamilә yandırıldı, 613 nәfәr bu qәtliamın qurbanı oldu, 8 ailә tamamilә mәhv edildi, 25 uşaq hәr iki valideynini, 130 uşaq isә valideynlәrindәn

birini itirdi, 150 Xocalı sakini itkin düşdü, 1275 nəfər əsir götürüldü. Muzeydə Xocalı faciəsini özündə əks etdirən, xüsusən, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin çəkdiyi fotoşəkillər ekskursantlara təqdim olunakən, bu faciənin miqyası haqqında onlarda təsəvvürlər formalaşır, ermənilərin nə qədər barbar olduqlarını bir daha oyrənirlər.

Muzeydə xalqımızın milli qəhrəmanları haqqında olan guşə ekskursantlar üçün xüsusilə maraqlıdır. Bu guşədə bildirilməlidir ki, torpalarımız uğrunda gedən döyüşlərdə şəhid olan 22 mindən artıq qəhrəman oğullarımız vardır. Onlardan 213 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Milli Qəhrəmanlar içərisində 8 nəfər naxçıvanlı da vardır. Onlar təkcə Naxçıvanın müdafiəsində deyil, Azərbaycanın müxtəlif bölgələrində düşmənlə döyüşlərdə şəhidlik zirvəsinə ucalmış vətən oğullarıdır. Bunlar Kərim Kərimov, Əmiraslan Əliyev, Səyavuş Həsənov, Əli Məmmədov, İbrahim Məmmədov, Yusif Mirzəyev, Mirəsgər Seyidov və Məhərrəm Seyidovdur. Guşədə həmin Milli Qəhrəmanlarımızın foto şəkilləri, tərcümeyi-halları və ailələri tərəfindən muzeyə hədiyyə edilmiş şəxsi əşyalar nümayiş olunur.

Beləliklə, Xatirə muzeyinə edilən ekskursiyalar zamanı Azərbaycan xalqının ərazi bütövlüyü uğrunda müxtəlif dövrlərdə şəhid olan insanlar haqqında ətraflı məlumatlar verilməklə, ziyarətçilərdə geniş təsəvvür və təəssürat yaradılması mümkündür.



## Turizm və ekskursiya fəaliyyətinə dair izahlı lüğət

1. ***Bələdçi*** – turistlərə peşəkar tanıtım xidmətləri göstərmək üzrə ölkə, region, məşhur yer, tanıtım obyekti haqqında yüksək səviyyədə informasiyaya malik olan, turist qəbul edən ölkənin, yaxud gələn turistlərin və ya da ümumi qəbul olunmuş dildə təqdimat apara bilən, turistlərə müqavilə əsasında fəaliyyət göstərib, tur iştirakçılarına ixtisaslı təşkilati xidmətlər göstərən şəxs
2. ***Check in*** – turistlərin otelə qəbul edilmə işləri
3. ***Check out*** – turistlərin qaldıqları oteldən çıxarılma işləri
4. ***Ekskursiya*** – ekskursantların 12 saatdan çox olmayan müddətdə müəyyən elmi, təhsi, mədəni, idman obyektlərinin ziyarət edilməsi ilə həyata keçirilən və mənəvi, estetik və informasiya tələbatının ödənilməsi məqsədi daşıyan fərdi və kollektiv ziyarəti
5. ***Ekskursiya təqdimatı*** – ixtisaslı mütəxəssisin (bələdçinin) rəhbərliyi ilə konkret bir obyektin ekskursantlara məqsədli şəkildə tanış edilməsi
6. ***Ekskursiya mətni*** – bələdçinin öz çıxışını qura bilməsi üçün tərbit etdiyi müstəqil mətn
7. ***Ekskursiyanın texnoloji xəritəsi*** – konkret martrutdakı təqdimatın məntiqi ardıcıllığını əks etdirən sənəd
8. ***Ölkəşünaslıq*** – ərazinin (kənd, şəhər, diyar, muxtar respublika) əhalisinin yaşayış yeri, onların məişəti, tarixi, mədəniyyəti, insan və ekologiya münasibətləri, konkret ərazilərdə təbii ehtiyatlardan istifadə vəziyyəti, landşaft xüsusiyyətləri haqqında hərtərəfli tədqiqat sahəsi və müstəqil fəaliyyət növü
9. ***Qrup rəhbəri*** – turqrup üzvləri arasında seçilən və daha təcrübəli iştirakçı
10. ***Tematik ekskursiya*** – hər hansı bir mövzunun tamamilə açılması ilə həyata keçirilən ekskursiya
11. ***Təəssürat*** – turizm səfərindən turistin aldığı əsas nəticə
12. ***Turizm xidmətlərinin təsviri*** – əsas turizm xidmətləri və onların göstərilməsi şərtləri barədə informasiya

13. ***Turizm xidmətlərinin proqramı*** – turistlərə görməli yerlər və tarixi hadisələrlə bağlı müəyyən ardıcıllıq, vaxt, yer və şəraitdə təqdim olunan xidmətlərin siyahısı
14. ***Turist gəzintisi*** – çox da ağır olmayan fiziki yük altında müəyyən turist vərdişləri qazanmaq, orqanizmi möhkəmlətmək, tanışlıq və sağlamlıq məqsədilə geniş sayda insanların ərazidə hərəkəti
15. ***Turqrup rəhbəri*** – turizm fəaliyyəti subyektinin turdakı təmsilçisi
16. ***Turist səyahətinin texnoloji xəritəsi*** – konkret marşrut üzrə göstərilən xidmətlərin tərkibini əks etdirən texnoloji sənəd
17. ***Tur*** – konkret başlanğıcı və sonu olan satışa hazır xidmətlər toplusu
18. ***Turizm xidmətləri*** – turistlərin tələbatlarının ödənilməsi üzrə fəaliyyət göstərən müəssislərin işinin nəticəsi
19. ***Turizm marşrutu*** – turistlərin hərəkətini təmin edən, əvvəlcədən müəyyən coğrafi məntəqələr istiqamətində seçilmiş yol
20. ***Turizm xidmətlərinin istehsalçısı*** – turizm xidmətləri göstərən müəssisə, təşkilat, sahibkar və ya fərdi şəxs
21. ***Turizm xidmətlərinin istehlakçısı*** – turizm xidmətlərini alan turist, ekskursant və ya müəssisə
22. ***Turist ekspedisiyası*** – bir-birinə bağlı olan marşrutlar boyunca turizm üçün perspektivli, az tədqiq olunmuş ərazilərin öyrənilməsi, ölkəşünalıq, etnoqrafik araşdırmaların aparılması məqsədilə həyata keçirilən yürüş və ya yürüşlər
23. ***Transfer (pick-up service) xidmətləri*** – turistlərin gəldikləri son nəqliyyat dayanacağından qalacaqları otelə və əksinə daşınması
24. ***Yürüş*** – turistlərin marşrut üzrə aktiv hərəkəti ilə onların sağlamlıq və dərketmə tələbatlarını ödəyən turizm xidməti
25. ***Zərf turlar*** – əvvəlcədən ciddi şəkildə planlaşdırılmış xidmətlər dəsti



## ƏDƏBİYYAT


1. Babayev S.Y. "Əfsanələr diyarı". Bakı: Elm, 2001, 288 s.
2. Cabbarov Ə.X. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2015. ADPU-nəşriyyatı. 267 səh.
3. Cabbarov Ə.X. Kənd turizmi: inkişaf istiqamətləri və perspektivləri // "İqtisadiyyat və Audit", aylıq elmi-praktik jurnal, № 11(65), Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, s. 14-17
4. Cabbarov Ə.X. Milli-mədəni turizm ehtiyatları və onlardan istifadə. "Azərbaycan turizm yenilikləri" qəz., Bakı, 2006, №4.
5. Cabbarov Ə.X. Naxçıvan Muxtar Respublikasında turizm-ekskursiya fəaliyyətinin təşkili məsələləri. Naxçıvan Dövlət Universiteti Elmi əsərlər. Tarix elmləri, ictimai elmlər, iqtisadiyyat və hüquq seriyası, Naxçıvan: "Qeyrət" nəşriyyatı, №2
6. Cabbarov Ə.X. Mədəni-tanışlıq turizmi və Naxçıvan Muxtar Respublikasında onun inkişafı istiqamətləri. Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, humanitar elmlər seriyası, №5, Bakı: ADPU, 2005, s. 254-261.
7. Cabbarov Ə.X. Naxçıvan-İğdır: Arazboyu turizm destinasiyası üzrə planlaşdırma məsələləri. Naxçıvan" Universiteti. "Elmi əsərlər". Beynəlxalq münasibətlər, iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika, psixologiya, riyaziyyat. 2015, № 1 (1). Naxçıvan, NU-"NUH", 2015
8. Cabbarov Ə.X. Naxçıvan-Əlincə turizm marşrutu üzrə destinasiya menecmenti: resurslar və perspektiv planlaşdirma. Azərbaycan Turizm və Menecment Universitetinin 10-illiyinə həsr olunmuş "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda II Beynəlxalq Elmi-Praktiki Konfransın

materialları 18-19 dekabr 2015-ci il. Bakı-2015. Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. İl 4, say 4, 2015

9. Cabbarov Ə.X. "Səyahət agentlikləri və turoperatorluq" fənnində "Turoperator xidmətlərinin nəzəri əsaslari" mövzusunun tədrisi metodikası. Metodiki məqalə. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. cild: 12. №3 2016
10. Cabbarov Ə.X. Turizm marşrutları və ekskursiya işinin təşkili. Fənn proqramı. "Naxçıvan" Universiteti "NUH" nəşriyyatı, 2016. "Məktəb" nəşriyyatı Naxçıvan 2016
11. Cabbarov Ə.X. Ekskursiyaların tərbiyəvi funksiyalarından istifadə. "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan-2016
12. Cabbarov Ə.X. Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu: mövcud vəziyyət və perspektiv planlaşdırma. Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. İl5, say 2, 2016
13. Cabbarov Ə.X. Araz çayı hövzəsi ölkələri üzrə müalicə turizmi: mövcud vəziyyət və gələcək perspektivlər (Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və Türkiyə Cumhuriyyəti timsalında). "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda üçüncü Beynəlxalq Elmi-Praktik Konfransın materialları ATMU. Bakı şəhəri 7 – 8 aprel 2017-ci. s. 173-182
14. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 494 s.
15. Əlirzayev Ə.Q., Aslanova S.İ. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: Adiloğlu, 2006,164 s



16. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncamı. Şərq qapısı qəzeti, Naxçıvan, 2006, 29 iyun, № 114 (18.039)
17. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı: Mütərcim, 2004, 312 s.
18. Биржаков М.Б. Введение в туризм. СПб.: "Издательский дом Герда" 2003. 448 с.
19. Биржаков М.Б. Деревенский туризм // Национальный туристский журнал "Туристские Фирмы". Справочник. Вып. 15.- СПб.: ОЛБИС, 1998, с. 231-237
20. Джаббаров А.Х., Рзаев М. "Туризм и современность. – Нахчыванская Автономная Республика, Азербайджан. Новосибирск-2011.
21. Джаббаров А.Х., Рзаев М.Г. Азербайджан в диалоге Восточно-Западной культуры нашей эпохи // Национальный туристский журнал "Туристские Фирмы". Выпуск 43(10), СПб.: Невский Фонд, 2007, с. 61-66
22. Джаббаров А.Х., Рзаев М. Гурбанлы Г. Дары природы: лечебный туризм в Азербайджане. Опыт и перспективы. Национальный туристский журнал "Туристские Фирмы". Выпуск 45(13), СПб.: Невский Фонд, 2008, с.139-145
23. Долженко Г.П. Экскурсионное дело. М., Ростов н\Д: МарТ, 2006. — 304 с
24. Дурович А.П., Кабушкин Н.И., Сергеева Т.М. и др. Организация туризма. Минск: Новое Знание, 2003. 632 с.
25. Емельянов. Б.В. Экскурсоведение.М.: изд-во "Советский спорт", 2007 г. - 128 с.
26. Каурова А.Д. Организация сферы туризма. Учебное пособие. СПб.: "Издательский дом Герда" 2005, 320 с.

27. Христов Т.Т. Религиозный туризм: учебное пособие для студ. высшее учебное заведений. М.: Издательский центр "Академия", 2005, 288 с.
28. Чудновский А.Д., Жукова М.А. Менеджмент туризма. Учебник. М.: Финансы и статистика, 2002, 288 с.
29. Jabbarov A. Zulfugarov Z. Azerbaijan and Russia: The role of ethnic tourism in modern cultural-economic relations. "Tourism and regional development" Journal of Smolensk University for Humanities. Issue 6. Smolensk-Russia. 2011
30. Jabbarov A. Zulfugarov Z. Social Tourism in Duzdag, Nakhchivan Autonomous Republic within the Republic of Azerbaijan: Resources, Planning and Development. American Journal of Tourism Management 2015, 4(1): DOI: 10.5923/j.tourism.20150401.01-6



## MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................... 3

**I FƏSİL. TURİZM MARŞRUTLARI, ONLARIN YARADILMASI**
1. Turizm marşrutu anlayışı. Turizm marşrutlarının növləri ........... 7
2. Turizm marşrutlarının yaradılmasına təsir edən amillər ........... 13
3. Tur və onun əhəmiyyəti ........... 20
4. Turların layihələndirilməsi ........... 27
5. Turların formalaşdırılmasındakı resurslar və onların planlaşdırılması ........... 35

**II FƏSİL. EKSKURSİYA FƏALİYYƏTİ VƏ ONUN TƏŞKİLİ**
6. Ekskursiyalar və onların təsnifatı ........... 46
7. Ekskursiya marşrutunun tərtib olunması ........... 56
8. Ekskursiyalara hazırlıq və onların keçirilmə texnologiyası ........... 61
9. Ekskursiyanın psixoloji elementləri ........... 66
10. Ekskursiyalarda məntiqi ardıcıllıq ........... 72
11. Ekskursiya pedaqoji bir proses kimi ........... 77
12. Ekskursiyalarda təqdimat ........... 83
13. Ekskursiya təqdimatında çıxış ........... 90
14. Bələdçi və onun çıxışına olan tələblər ........... 96
15. Turqrup üzvlərinin hüquq və vəzifəri. Ekskursiyalarda təhlükəsizlik ........... 103

**III FƏSİL. MÜXTƏLİF TURLAR ÜZRƏ MARŞRUT NÜMUNƏLƏRİ**
1. Ekoturizm marşrutları ........... 111
2. Kənd turizmi marşrutu ........... 117
3. İnanc turizmi ........... 124
4. Tanışlıq turları üzrə marşrutlar ........... 134
5. Naxçıvan şəhər Xatirə muzeyinə ekskursiya ........... 146

*Turizm və ekskursiya fəaliyyətinə dair izahlı lüğət* ........... 153
*Ədəbiyyat* ........... 155

**Əli Cabbarov**

# Turizm marşrutları və ekskursiya işinin təşkili

***(dərs vəsaiti)***

*Çapa imzalanmış 16.05.2017-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 10*
*Sifariş 225, sayı 200*

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*Email: Poliqrafiya@mail.ru*

Ar 2017/629



**Əli Xeybər oğ**

1970-ci ildə Şahbuz rayonunun Kükü kəndində anadan olub. Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2000-2014-cü illərdə Naxçıvan Dövlət Universitetində çalışıb. 2014-cü ildən "Naxçıvan" Universitetinin müəllimidir. 2008-ci ildə "Turizmin inkişafının sosial-iqtisadi problemləri (Naxçıvan Muxtar Respublikası timsalında)"mövzusunda dissertasiya müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 2007-ci ildən Sankt-Peterburq Beynəlxalq Turizm Akademiyasının üzvüdür.

Turizmin qeyri-neft sektorundakı rolu, ekoturizm, turizm və mədəniyyətlərarası dialoq, müalicə turizmi və digər mövzularda 50-dən artıq elmi məqaləsi ölkəmizdə və o ABŞ, Türkiyə, Almaniya, İtaliya, Rusiya və Özbəkistanın elmi jurnallarında dərc olunub. "TEMPUS" proqramı çərçivəsində həyata keçirilən "SuToMa" layihəsinin 2013-2014-cü illərdə Naxçıvan Dövlət Universiteti üzrə rəhbəri olub.

"Туризм и современность. – Нахчыванская Автономная Республика, Азербайджан". (Новосибирск - 2011) və "Turizmin iqtisadi əsasları" (dərs vəsaiti, Bakı - 2015) kitablarının, 7 fənn proqramının, habelə, Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatları, onlardan istifadə məsələləri mövzularında Respublika, Xalq və Şərq Qapısı qəzetlərində dərc olunmuş çox sayda məqalənin müəllifidir.

https://www.facebook.com/turizmdersleri internet səhifəsinin yaradıcısıdır.